RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 289 (8312) CÜMƏ, 27 dekabr 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# İlham Əliyev Azərbaycanı dünyanın idman paytaxtına çevirib

## Atletlərimiz bu il beynəlxalq yarışlarda 775 medal qazanıblar

Azərbaycanda idmanın inkişafı naminə həyata keçirilən tədbirlər dövlətin yürütdüyü daxili siyasətin üstün istiqamətlərindəndir. Bu sahə bir çox cəhətdən xüsusi əhəmiyyət kəsb edir. Əvvəla, idman yeni sağlam nəslin yetişdirilməsində müstəsna rol oynayır. Digər tərəfdən, idman gənclərin vətənpərvərlik ruhunda tərbiyə olunması işində böyük əhəmiyyət kəsb edir.

Sevindirici haldır ki, hazırda idmançılarımız dünyanın ən mötəbər turnirlərində uğurla çıxış edərək ölkəmizin adını daim uca tuturlar. Atletlərimiz müxtəlif yarışlarda idmanın olimpiya və qeyri-olimpiya növləri üzrə ölkəmizi şərəflə təmsil edir və Azərbaycanın idman şöhrətini qaldırırlar.

2019-cu ildə idmançılarımız qatıldıqları beynəlxalq yarışlarda 775 medal qazanıblar ki, onlardan 271-nin əyarı qızıldır. Bu, onu göstərir ki, ölkəmizdə idmanın inkişafı dinamik xarakter daşıyır və idmançılarımız ardıcıl olaraq böyük qələbələr qazanmağa qadirdilər.

Azərbaycanın cari ildə "Formula-1" Azərbaycan Qran-prisinə, bir sıra idman növləri üzrə qitə miqyaslı yarışlara, gimnastika üzrə dünya kuboklarına, Avropa çempionatına və UEFA Avropa Liqasının finalına uğurla evsahibliyi etməsi, atletlərimizin beynəlxalq turnirlərdə qazandıqları parlaq qələbələr ölkəmizin idman tarixinə qızıl hərflərlə yazıldı.

Milli Olimpiya Komitəsi (MOK) fəaliyyətini həmişə olduğu kimi, indi də uğurla davam etdirir, ölkə idmanının inkişafı naminə yeni-yeni addımlar atır. Dekabrın 25-də MOK-da cari ilin idman yekunlarına həsr olunmuş mərasimdə əldə olunmuş uğurlardan bəhs olundu, gələcək planlar müzakirə edildi. Prezident İlham Əliyev Milli Olimpiya Komitəsində 2019-cu ilin idman yekunlarına həsr olunan mərasimdə çıxış edərkən deyib ki, Azərbaycanda idmanın kütləviliyi təmin edilir, idmanla məşğul olmaq istəyən gənclərin sayı kəskin artır: *"Azərbaycan gənclərinin idmana böyük maraq göstərməsi bizi sevindirir. Əlbəttə ki, görkəmli idmançılarımızın uğurları bizim idman şöhrətimizi daha da yüksəklərə qaldırır. Bu baxımdan bu il də əlamətdar il olmuşdur. Bizim idmançılarımız beynəlxalq idman yarışlarında 775 medal qazanmışlar, onlardan 271-i qızıl medaldır. Bu, onu deməyə əsas verir ki, idmançılarımız ölkəmizi beynəlxalq yarışlarda ləyaqətlə təmsil ediblər və Azərbaycanın Dövlət himnini dəfələrlə səsləndiriblər, bizim bayrağımızı yüksəklərə qaldırıblar"*.

Cari ildə Azərbaycanın idman tarixinə daha bir möhtəşəm qələbə yazıldı. Beynəlxalq qrossmeyster Teymur Rəcəbov dünya kubokuna sahib olan ilk azərbaycanlı kimi tarixə düşdü. Ümumiyyətlə, zəka sahiblərimiz həm ölkə, həm də qitənin şahmat tarixinə yeni qələbələr yazdırmaqda davam etdilər. Azərbaycan Prezidenti idman nailiyyətləri arasında şahmatçıların uğurlarını xüsusilə qeyd edərək deyib: *"...Bu, onu göstərir ki, bizim gənclərimiz nəinki fiziki cəhətdən güclüdür, eyni zamanda, onların intellektual potensialı da çox yüksəkdir. Bizim görkəmli şahmatçımız Teymur Rəcəbov Dünya Kubokunun qalibi olmuşdur. Bu, tarixi hadisədir. On altı yaşadək yeniyetmələrdən ibarət şahmat komandamız Dünya Şahmat Olimpiadasının qalibi olmuşdur. Bu da onu təsdiqləyir ki, şahmata göstərilən diqqət, son illərdə rayonlarda şahmat məktəblərinin açılması öz nəticəsini verməkdədir. Mənim bölgələrə çoxsaylı səfərlərim çərçivəsində şahmat məktəblərinin açılışı da ənənəvi olaraq proqrama salınır. Demək olar ki, mən ölkəmizdə fəaliyyət göstərən əksər şahmat məktəblərinin açılışında iştirak etmişəm... Əlbəttə, şahmat çox məşhur, populyar idman növüdür, o idman növüdür ki, insanların, uşaqların intellektual potensialını gücləndirir.*

**Ardı 6-cı səh.**

# Yol infrastrukturunun müasir səviyyəyə çatdırılması istiqamətində işlər davam edir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 26-da Bakı-Quba-Rusiya Federasiyası dövlət sərhədi yeni avtomobil yolunun tikintisi ilə tanış olub.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri **Saleh Məmmədov** görülən işlər barədə dövlət başçısına məlumat verərək dedi:

- Möhtərəm cənab Prezident, xoş gəlmisiniz. Bu gün biz 2018-ci ildə təməlini qoyduğunuz 45-ci kilometrdən Rusiya Federasiyasının sərhədinə qədər olan 192 kilometr yolun başlanğıcında dayanmışıq. Biz 192 kilometrlik bu yolu 4 lota bölmüşük. Bu, birinci lotdur, hansı ki, Zeynalabdin Tağıyev qəsəbəsindən Giləzi qəsəbəsinə qədər 30 kilometrlik yoldur. Bu yolun hazırda bir istiqamətdə 90 faizinin asfalt-beton örtüyünü tam yerinə yetirmişik. Yerdə qalan hissələrinin isə tikintisi gedir.

**Ardı 2-ci səh.**

# "Azərbaycan vətəndaşı ildən-ilə daha yaxşı yaşamalıdır"

## *Prezident bunu bir daha bəyan etdi*

Başa çatmaqda olan 2019-cu il ölkəmizin tarixinə iqtisadi və sosial sahədə böyük nailiyyətlər dövrü kimi düşəcək. Bununla bərabər, ötən il ölkəmizin dünyada siyasi çəkisi də artıb.



Bütün bunlar isə Prezident İlham Əliyevin uğurla həyata keçirdiyi sosial-iqtisadi islahatlar sayəsində mümkün olub. Bu yüksəliş gələn il də ölkəmizin inkişafında mühüm rol oynayacaq. Çünki növbəti ilin sosial-iqtisadi inkişaf strategiyasının təməli möhkəmdir.

Prezident İlham Əliyev dekabrın 23-də yerli jurnalistlərə ilin yekunları ilə bağlı geniş müsahibə verib. Dövlət başçısı il ərzində siyasi, iqtisadi, sosial və humanitar sahələrdə qazanılan uğurlardan danışıb, özəl sektorda əldə olunan nailiyyətlərdən söz açıb və bir daha vurğulayıb ki, iqtisadi islahatların mərkəzində Azərbaycan vətəndaşının rifahı dayanır.

Dövlət başçısı müsahibəsində ölkədə sosial sahədə qazanılan nailiyyətləri yüksək dəyərləndirərək demişdir: "Maaşların artırılması, pensiyaların, sosial müavinətlərin, tələbələrin təqaüdlərinin, yəni bütün sosial sahələrdə olan məsələlər kompleks şəkildə öz həllini tapdı.

**Ardı 4-cü səh.**

◆ **İlə yekun vurulur**

# Qarabağ münaqişəsinin həlli yalnız beynəlxalq hüquqa əsaslanmalıdır

## Azərbaycanın mövqeyi dəyişilməz olaraq qalır

Müasir dövrdə beynəlxalq münasibətlər sistemində bir neçə il əvvəl başlamış gərginlik davam edir.

Qlobal və regional güclər arasında ixtilaflar, müstəqil dövlətlərin suverenliyinə və daxili işlərinə müdaxilə, planetin ayrı-ayrı regionlarında silahlı münaqişələr, etnik qarşıdurmalar, eləcə də birtərəfli iqtisadi sanksiyalar, dözümsüzlük və humanitar böhran müşahidə edilir.




Beynəlxalq aləmdə hökm sürən mürəkkəb şəraitə baxmayaraq, Azərbaycan rəhbərliyi yürütdüyü məqsədyönlü xarici siyasət sayəsində ayrı-ayrı ölkələrlə ikitərəfli əlaqələrin möhkəmləndirilməsi, beynəlxalq əməkdaşlığın genişləndirilməsi istiqamətində uğurlu addımlar atır, dövlətin beynəlxalq aləmdə siyasi çəkisinin artmasına və milli maraqların irəli aparılmasına nail olur. Bu il Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva bir çox ölkələrdə səfərdə olmuş, eyni zamanda bir sıra ölkələrin dövlət və hökumət başçıları Bakıda qarşılıqlı faydalı əməkdaşlığı inkişaf etdirmək üçün danışıqlar aparmışlar.

Azərbaycanın yürütdüyü xarici siyasətin başlıca istiqamətini Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi naminə davamlı diplomatik səylərin göstərilməsi təşkil edir.

**Ardı 6-cı səh.**

# Azərbaycan-Türkiyə əlaqələri ən yüksək zirvədədir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 26-da Türkiyə Respublikasının Ticarət naziri xanım Ruhsar Pekcanın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, qonaqları salamlayan **Prezident İlham ƏLİYEV** dedi: Xoş gəlmisiniz.

**Ruhsar PEKCAN:** Çox təşəkkür edirik. Çox məmnun olduq. Cənab Prezidentimizin Sizə sevgilərini, salamlarını gətirdik.

**Prezident İlham ƏLİYEV:** Sağ olun, təşəkkür edirəm.

**Ruhsar PEKCAN:** Cənab Prezidentimizin və Sizin uzaqgörənliklə ölkələrimiz arasındakı əməkdaşlığa verdiyiniz önəmə əsaslanaraq biz cənab nazir Cabbarovla birlikdə iqtisadi-ticari əlaqələrin inkişaf etdirilməsi istiqamətində, inşallah, gözəl işlər görəcəyik. Bu gün onunla da görüşümüz olacaq. Xatırladım ki, Birgə İqtisadi Komissiyanın toplantısında 147 maddədən ibarət ortaq fəaliyyət planı hazırladıq. Mən cənab Cabbarov ilə birlikdə bu 147 maddədə qarşıya qoyulan vəzifələrin həyata keçirilməsini daim nəzarətdə saxlayacağıq. Azərbaycanın Gömrük Komitəsinin sədri ilə Ankara görüşümüzdə Sadələşdirilmiş Gömrük Dəhlizi ilə bağlı anlaşma memorandumu imzalamışıq. Azərbaycan, Gürcüstan, Türkiyə olaraq Sizlərin də dəstəyi ilə, inşallah, həm ortaq biznes forum keçirəcək, həm də ortaq Sadələşdirilmiş Gömrük Dəhlizi haqqında anlaşma memorandumu imzalayaraq ölkələrimiz arasında ticarətin, gömrük-keçid prosedurlarının asanlaşdırılması ilə bağlı birgə addımlar atacağıq. Həmçinin cənab prezidentlərimizin dəstəyi ilə yaxın zamanlarda bizə güzəştli ticarət müqaviləsi imzalamaq qismət olacaq. Zati-alinizin və cənab Prezidentimizin razılığı ilə bu müqaviləni, - 15 maddəlik məhdud bir müqavilədir, - genişləndirib sənədə yeni nəsil azad ticarət razılaşmalarını, xidmətləri, sərmayələri də daxil etmək istəyirik. Azərbaycanın, SOCAR-ın Türkiyədəki sərmayələri bizim üçün son dərəcədə önəmlidir. Biz də bütün dəstəyimiz, təşviqimizlə SOCAR-ın yanındayıq. İnşallah, yeni sərmayələr də gözləyirik. Azərbaycanın investisiya imkanlarının tanıdılması ilə bağlı sentyabrda təqdimat təşkil etməyi nəzərdə tuturduq. Amma, cənab Prezident, indi həmkarlarımızla müzakirələr aparıb fevral ayında Türkiyədə Azərbaycanın investisiya iqlimi ilə bağlı təqdimat təşkil etməyi planlaşdırırıq.

**Prezident İlham ƏLİYEV:** Çox gözəl, çox təşəkkür edirəm. Xahiş edirəm mənim də səmimi salamlarımı əziz qardaşım Prezident Rəcəb Tayyib Ərdoğana çatdırasınız. İki gün bundan öncə biz telefonla danışdıq, bu il ərzində görülmüş işlərə bir daha nəzər saldıq. Doğrudan da, 2019-cu il bizim əlaqələrimiz üçün çox uğurlu il olmuşdur. Bizim çoxsaylı görüşlərimiz, eyni zamanda, nazirlər səviyyəsində keçirilmiş görüşlər, beynəlxalq tədbirlərdə görüşlərimiz birliyimizi daha da gücləndirdi. Bildiyiniz kimi, bu il Bakıda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Zirvə Görüşü keçirilmişdir. Bu Zirvə görüşü bir daha türkdilli dövlətlər arasındakı birliyi, həmrəyliyi təsdiq etdi. Əlbəttə, Türkiyə-Azərbaycan əlaqələri xüsusi önəm daşıyır və bu əlaqələr bu gün ən yüksək zirvədədir. Biz siyasi, iqtisadi, sərmayə qoyuluşu, enerji, nəqliyyat, mədəniyyət sahələrində sıx əməkdaşlıq edirik. Elə bir sahə yoxdur ki, biz uğurla əməkdaşlıq etməyək.

Əlbəttə, bu il də çox önəmli hadisələr birgə qeyd olundu. Onlardan biri də TANAP-ın Avropa sərhədinə çatdırılması layihəsidir. Biz TANAP-ın Türkiyə bazarına çatdırılmasını keçən il qeyd etmişdik. Bu il noyabrın sonunda isə TANAP artıq Avropa sərhədinə çatdırıldı və bu tarixi hadisəni birlikdə qeyd etdik. Əminəm ki, gələn il "Cənub qaz dəhlizi" tam istismara veriləcək və beləliklə, bizim birgə həyata keçirdiyimiz bu nəhəng layihə artıq başa çatacaq.

Qarşılıqlı sərmayə qoyuluşu məsələlərində də çox gözəl nəticələr var. Azərbaycan bugünə qədər Türkiyəyə 17 milyard dollardan çox, Türkiyə isə Azərbaycana 12 milyard dollardan artıq sərmayə qoyub. Qeyd etdiyiniz kimi, SOCAR-ın yeni planları, yeni sərmayə qoyuluşu layihələri var. Onlar da həyata keçdikcə bizim Türkiyəyə yatırdığımız sərmayənin həcmi 20 milyard dollara çatacaq. Bu, bir daha bizim qardaşlığımızı göstərir. Çünki ancaq bir-birinə sıx bağlı olan ölkələr bir-birinin iqtisadiyyatına bu qədər yatırım qoya bilərlər.

Biz çox şadıq ki, Azərbaycanda yüzlərlə Türkiyə şirkəti fəaliyyət göstərir. Onlar bizim üçün çox önəmli layihələrdə - xüsusilə texnoloji baxımdan tutumlu, inşaat və sənaye layihələrində iştirak edirlər. Bakıda bir çox müasir binanın inşaatında, dizaynında və memarlığında Türkiyə şirkətlərinin izi vardır. Burada xarici şirkətlər arasında dövlət xətti ilə gerçəkləşən layihələrdə Türkiyə şirkətləri böyük üstünlük təşkil edir. Bu da təbiidir. Çünki biz hər bir sahədə bir-birimizi dəstəkləyirik, həm siyasi sahədə, həm də iqtisadi və ticarət sahələrində. Qarşılıqlı ticarət dövriyyəsi də artır. Artıq hazır olan preferensianal ticarət anlaşması da imzalanandan sonra ticarət dövriyyəsi daha da artacaq.

Əminəm ki, sizin Azərbaycana bugünkü səfəriniz çox uğurlu olacaq. Bu, bizim ilin sonunda iki ölkə arasındakı əlaqələrə verdiyimiz önəmin gözəl nəticəsi, bir yekunudur. Yekun da çox müsbətdir.

**Ruhsar PEKCAN:** İnşallah, cənab Prezidentim. Azərbaycanın və Türkiyənin beynəlxalq platformalarda hər zaman bir-birinin yanında olması da cənab Prezidentimizin və Zati-alinizin sayəsində bizim ayrı bir xüsusiyyətimizdir. Biz sizlərə təşəkkür edirik. Sizin TANAP-la bağlı mərasimdəki çıxışınızı daim xatırlayıram. Bu, möhtəşəm, ölkələrimizin əlaqələrini çox yaxşı izah edən bir çıxış idi.

**Prezident İlham ƏLİYEV:** Sağ olun.

# Prezident İlham Əliyev "Rossiya-24" televiziya kanalına müsahibə verib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasının "Rossiya-24" televiziya kanalına müsahibə verib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı müsahibədə Azərbaycan-Rusiya ikitərəfli münasibətləri və digər məsələlərlə bağlı sualları cavablandırıb.

# Yol infrastrukturunun müasir səviyyəyə çatdırılması istiqamətində işlər davam edir





*Əvvəli 1-ci səh.*

Bu hissələrdə yolun tam eni 27,5 metr olacaq. Hərəkətin hər iki istiqamətində iki zolaq olacaq. Yol ödənişli olduğu üçün dayandığımız bu yerdə turniketlər qoyulacaq. Turniketlər hissəsində hər istiqamətdə 5 cərgəli yol olacaq, 4 cərgəsi hərəkət, 1 cərgəsi ehtiyat maşınların saxlanması üçün. Cənab Prezident, gördüyünüz bina bu yola xidmət üçün tikilir. Yolun hər iki tərəfi çəpərlənəcək ki, hərəkət hissəsinə kənar heç nə daxil ola bilməsin. Yol ətrafında maşınlara xidmət üçün dayanacaqlar olacaqdır.

**Prezident İlham ƏLİYEV:** Neçə dayanacaq nəzərdə tutulub?

**Saleh MƏMMƏDOV:** 8 gediş, 8 isə qayıdış hissəsində. Cənab Prezident, əsas odur ki, əvvəlki yol Bakıdan Samur sərhəd-keçid məntəqəsinədək 208 kilometr idi, indi isə 16 kilometr qısalıb və 192 kilometr olub. Bu da onunla əlaqədardır ki, yol rayon mərkəzlərindən keçməyəcək, yalnız onlara qovşaqla birləşəcəkdir.

**Prezident İlham ƏLİYEV:** Bu indiki yola da birləşmə varmı?

**Saleh MƏMMƏDOV:** Bəli, var.

**Prezident İlham ƏLİYEV:** Birinci birləşmə Giləzidədir?

**Saleh MƏMMƏDOV:** Giləzidə olacaq, yolun 30-cu kilometr hissəsində. Bu, ümumi götürəndə 75-ci kilometr adlanır. Amma layihə qiyməti ilə 30-cu kilometrdir. Bu, ikinci lotdur, hansı ki, Giləzidən başlayır Şabrana qədər. O da 27 kilometrdir. Üçüncü lot Şabrandan Gəndob qəsəbəsinə qədər olacaq. Gəndob qəsəbəsindən də Xaçmazın girişinə qədər, Xaçmazdan sonra Qusar-Yalama-Xudat hissəsinə qədər, bir də oradan düz sərhəd-keçid məntəqəsinə, 192-ci kilometr.

**Prezident İlham ƏLİYEV:** Yeni açılmış körpünün girəcəyinə qədər?

**Saleh MƏMMƏDOV:** Bəli, yeni açılmış körpünün girəcəyinə qədər. Avtomobillər Rusiya Federasiyasının ərazisinə 4 cərgə ilə daxil olacaq. Bu ərazilər boş, çöl torpaqlar idi. Sizin göstərişinizə əsasən və köməyiniz nəticəsində pay torpaqlarının təzminatı ödənilərək alınıb, yol çəkilişi üçün dövlət torpağından da ayrılıb. Yəni, yol altına düşən bütün torpaq sahələrinin ödənişi tam həll olunub. Bu gün yolun çəkilişi bütün lotlar üzrə davam etdirilir. Artıq 2020-ci ilin may ayının əvvəllərində bu yolun 100 kilometr hissəsinin tam ödənişli şəkildə istismara verilməsi nəzərdə tutulur. Cənab Prezident, bu stenddəki isə Moskva prospekti ilə 20 Yanvar küçəsinin kəsişməsində yerüstü piyada keçididir, tikilib tam hazırdır. Yolun bu hissəsindən həmişə piyadalar keçirdi, sıxlıq yaranırdı. Bu, 130 metrlik dayaqsız yeni yol keçididir.

**Prezident İlham ƏLİYEV:** İndi gərək yolboyu bütün texniki parametrlər gözlənilsin, yolları ikiyə ayıran yerlər də müasir səviyyədə olmalıdır. Çünki mən sizə irad tutmuşam, bəzi yollarda daralma var, böyümə var. Ona görə onlar yolda təhlükə yarada bilər. Burada ayırıcı bir xətt olmalıdır.

**Saleh MƏMMƏDOV:** Bəli, cənab Prezident, bir xətt olacaq. Sizin göstərişinizə əsasən həmin keçidləri müəyyən hissələrdə qoymuşuq. Bu yolda Taxtakörpüdən gələn su kanallarından suvarma torpaqlarına keçidlər var. Hamısı böyük keçidlərdir, insanlar və heyvanlar üçün keçidlər də nəzərə alınıb. Yolboyu rayon mərkəzlərinə ayrılan keçidlər var, qəsəbələrə getmək və geri dönmə üçün 14 yol qovşağı nəzərdə tutulub.

**Prezident İlham ƏLİYEV:** Bu istiqamətdə turniket harada quraşdırılacaq?

**Saleh MƏMMƏDOV:** Biri Giləzidə olacaq, Şabrana dönən yerdə. Ümumiyyətlə, ödəniş məntəqələri ilə birlikdə 7 turniket olacaq. Yolboyu bütün ödəniş məntəqələrinə elektrik kabelləri çəkilib.

**Prezident İlham ƏLİYEV:** Gördüm, mövcud yolun da təmirini aparırsınız, yeni asfalt vurulub.

**Saleh MƏMMƏDOV:** Bəli, cənab Prezident, yay aylarında düz Qubaya qədər tam təmir etmişik. Çalışacağıq ki, o yolun təmirini mərhələli şəkildə yerinə yetirək ki, gələcəkdə insanlar əziyyət çəkməsinlər.

**Prezident İlham ƏLİYEV:** Çox yaxşı. Bu yolun tikintisinə böyük ehtiyac var. İndi həm Rusiya ilə ticarət dövriyyəmiz artır, həm də Azərbaycan tranzit ölkə kimi öz imkanlarını ortaya qoyur. İrandan Rusiyaya, Rusiyadan İrana yükdaşımalarının həcmi artır. Belə olan halda, əlbəttə ki, bizim yol infrastrukturu artan yükləri daşımaq üçün yeni imkanlara malik olmalıdır. Eyni zamanda, sərnişinlər üçün də çox gözəl imkanlar yaradılacaq. Çox təhlükəsiz bir yol olacaq və eyni zamanda, şimal rayonlarımızda da bu yoldan istifadə edənlərin sayı artacaq. O cümlədən Şahdağ qış xizək kurortuna, Qubanın mənzərəli yerlərinə getmək üçün həm xarici, həm yerli turistlər, həm də rayon sakinləri bu yoldan istifadə edəcəklər. Eyni zamanda, bu, çox mənzərəli yol olacaq, çünki sahilboyu gedəcək. Əminəm ki, gələcəkdə bu zonada turizm imkanı da dəyərləndiriləcək və investisiya qoyuluşu da nəzərdə tutulacaq. Yol olan yerdə həyat var, inkişaf var, ticarət var, rahatlıq var.

Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı **Zakir FƏRƏCOV:** Cənab Prezident, 500 hektarlıq böyük ərazidir.

**Saleh MƏMMƏDOV:** Cənab Prezident, həm də bu yolun sayəsində Rusiya sərhədindən İrana qədər məsafə 45 kilometr qısalacaqdır.

**Prezident İlham ƏLİYEV:** Elədir, həm yanacağa qənaət olunacaq, həm də vaxta. Ona görə bu yolun çox böyük əhəmiyyəti var.

**Saleh MƏMMƏDOV:** Çox sağ olun ki, Siz buna önəm verirsiniz.

**Prezident İlham ƏLİYEV:** Siz də bu yolları keyfiyyətlə çəkirsiniz, bilirəm.

**Saleh MƏMMƏDOV:** Bəli, öz şirkətlərimizdir.

**Prezident İlham ƏLİYEV:** Bəli, siz Bakı-Aeroport yolunu 2008-ci ildə istifadəyə verdiniz, bugünə qədər orada, demək olar ki, heç bir problem yoxdur. Yolu on bir il ərzində belə vəziyyətdə saxlamaq üçün, əlbəttə, böyük təcrübə və keyfiyyət olmalı idi. Ona görə bu yolu da eyni keyfiyyətlə çəkməlisiniz. Azərbaycan dövlətinin dəstəyi ilə siz xaricdə layihələr reallaşdırırsınız. Eşitmişəm ki, indi sizin fəaliyyət dairəniz genişlənir, yeni ölkələrə öz təkliflərinizi təqdim edirsiniz. Çox yaxşı, Azərbaycan şirkətləri həm Azərbaycanda, həm də başqa ölkələrdə layihələrdə iştirak etməlidirlər. Yol infrastrukturunun səviyyəsinə görə biz dünyada 27-ci yerdəyik, böyük nəticədir. Həm əhatə dairəsi artır, həm də keyfiyyət. Bu il min kilometrdən çox yol çəkilib. Gələn il də bu templə gedəcəyik.

**Saleh MƏMMƏDOV:** Cənab Prezident, bunların hamısı Sizin diqqət və qayğınız sayəsindədir. Biz də çalışırıq ki, Sizin etimadınızı doğruldaq. Görülən bütün bu işlərə görə Sizə minnətdarıq.

**Prezident İlham ƏLİYEV:** Sağ olun.

* * *

Son illərdə regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarının uğurla icrası nəticəsində ölkəmizdə magistral, respublika və yerli əhəmiyyətli avtomobil yolları əsaslı şəkildə yenidən qurulub, həmçinin yeni avtomobil yolları, körpülər və yol ötürücüləri inşa edilərək əhalinin istifadəsinə verilib. Prezident İlham Əliyevin imzaladığı sərəncamlara əsasən Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi yeni avtomobil yolunun H.Z.Tağıyev qəsəbəsindən başlayaraq inşası ölkəmizdə yol infrastrukturunun müasir səviyyəyə çatdırılması istiqamətində icra olunan işlərin davamlı xarakter aldığını göstərir. "Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizi"nin tərkib hissəsi olan bu yolun inşası sürətlə və yüksək keyfiyyətlə davam etdirilir. Yeni avtomobil yolunun tikilməsi nəqliyyat xidmətlərinin daha da yaxşılaşdırılması ilə yanaşı, bölgədə turizmin inkişafına əlavə təkan verəcək, "Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizi" ilə yük və sərnişin daşımalarında əsas rol oynayacaq. Həmçinin yük həcminin çoxalmasına və gəlirlərin artmasına, ölkəmizin nəqliyyat infrastrukturunun inkişafına, yeni iş yerlərinin açılmasına, ümumilikdə respublikamızın iqtisadi inkişafına töhfə verəcək.

# Seçenov Universitetinin Bakı filialında poeziya gecəsi keçirilib





Dekabrın 26-da İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin (Seçenov Universiteti) Bakı filialında Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə poeziya gecəsi keçirilib.

AZƏRTAC xəbər verir ki, Bakı filialının rektoru, professor Əziz Əliyev tədbirdə çıxış edərək tələbələrin poeziyaya marağının artırılmasına dəyərli töhfəsinə görə Leyla Əliyevaya təşəkkürünü bildirib.

Leyla Əliyeva çıxışında ən çətin və humanist peşələrdən biri olan həkim peşəsinin əhəmiyyətini vurğulayıb.

Sonra Seçenov Universitetinin Bakı filialının tələbələri Lalə İsayeva, Nuranə Ələkbərova, Vüsalə Hüseynova Leyla Əliyevanın "Dünyanın ən gözəl insanı, haradasan?", "İnanmırıq" və "Zaman, xahiş edirəm, dayan" şeirlərini oxuyublar. Gələcəyin həkimləri - Tamerlan Rüstəmov, Lalə İsayeva və Yaqub Kərimov da öz şeirlərini oxuyublar.

Leyla Əliyeva gecənin sonunda tələbələrə öz kitablarını hədiyyə edib, tədbir iştirakçıları ilə xatirə şəkilləri çəkdirib.

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli Prezident, zati-aliləri!

Doğum gününüz münasibətilə Sizi təbrik etməkdən böyük məmnunluq hissi duyur, qarşıdakı ilin Sizin üçün firavan keçməsini arzulayıram.

Sizə və ailənizə ən xoş arzularımı çatdırır, Misir dövləti ilə dostluq münasibətlərinizi yüksək qiymətləndirirəm.

*Səmimiyyətlə,*

***Əbdülfəttah əs-SİSİ,***
***Misir Ərəb Respublikasının Prezidenti***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Doğum gününüz münasibətilə Sizə möhkəm cansağlığı, tükənməz enerji və nikbinlik, bütün yeni təşəbbüs və planlarınızın həyata keçməsi üçün böyük qüvvə arzulayıram.

Prezident olduğumuz dövrdən başlayaraq son iyirmi il ərzində Sizinlə əməkdaşlıq etmək mənim üçün böyük şərəf olub. 2005-ci ilin mart ayında Sizin Polşaya rəsmi səfərinizi, orada keçirdiyiniz bütün görüşləri, xüsusilə də müzakirələrlə yadda qalan çoxsaylı şəxsi görüşlərinizi böyük məmnuniyyətlə xatırlayıram. Həmin vaxt ölkəmi və onun əldə etdiyi nailiyyətləri Sizə təqdim etmək mənim üçün böyük şərəf idi və şadam ki, bu səfər dövlətlərimiz və millətlərimiz arasındakı dostluq münasibətlərini daha da möhkəmləndirdi.

Azərbaycanın və şəxsən Sizin dinlərarası, millətlərarası tolerantlıq və sülh kimi dəyərlərə göstərdiyiniz sədaqət bu gün bütün dünyaya məlumdur. Bu baxımdan, mənim də iştirak etdiyim Qlobal Bakı Forumu da Azərbaycanın bu məsələlərlə bağlı beynəlxalq dialoqun inkişafına sadiqliyinin bariz nümunəsidir. Bu tədbir mənim regionda yürüdülən siyasətin xüsusiyyətləri, eləcə də Azərbaycanın və regionun hazırda üzləşdiyi çağırışlarla tanışlığım üçün gözəl bir fürsət oldu.

Cənab Prezident, Sizə qarşıdakı illərin həmvətənlərinizə və beynəlxalq ictimaiyyətə fayda gətirən uğurlarla zəngin olmasını diləyirəm.

*Ən xoş arzularla və səmimiyyətlə,*

***Aleksandr KVASNİEVSKİ,***
***Polşanın sabiq Prezidenti (1995-2005),***
***Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvü***

❖ ❖ ❖

Cənab Prezident İlham Əliyev!

Sizi doğum gününüz münasibətilə təbrik edir və Sizə ən yaxşı arzularımı çatdırıram. Regionumuzda sülhün bərqərar olunması və inkişafın təmin edilməsində Sizin rolunuzu yüksək qiymətləndirirəm. Xalqlarımızın bu günü və gələcəyinin daha yaxşı olması naminə Sizinlə işləmək həqiqətən çox faydalı idi.

Sülh quruculuğunun, regional və qlobal müzakirələrin mühüm platforması olan Nizami Gəncəvi Beynəlxalq Mərkəzinə göstərdiyiniz dəstəyə görə Sizə səmimi-qəlbdən təşəkkür edirəm. Sizə, ailənizə, dostlarınıza və xalqınıza ən xoş arzularımı bildirir, bütün gələcək təşəbbüslərinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

***Giorgi MARQVELAŞVİLİ,***
***Gürcüstanın sabiq Prezidenti (2013-2018),***
***Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvü***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Doğum gününüz münasibətilə səmimi təbriklərimi və ən xoş arzularımı qəbul etməyinizi xahiş edirəm.

Siz Azərbaycanın davamlı iqtisadi inkişafı yolunda ona rəhbərlik edən güclü dövlət xadimi və ölkənizin lideri kimi böyük nüfuz qazanmısınız.

Mən Azərbaycanın beynəlxalq birliyin fəal üzvü imicinin formalaşmasında Sizin mühüm rolunuzu xüsusilə vurğulamaq istərdim. Siz yürütdüyünüz praqmatik siyasət və dövrümüzün ən aktual çağırışlarının həlli üçün göstərdiyiniz səylər nəticəsində beynəlxalq arenanın ən parlaq simaları sırasına daxil olmusunuz.

Sizinlə olan çoxsaylı görüşlərimizi və söhbətlərimizi böyük məmnuniyyət hissi ilə xatırlayıram. Şadam ki, Bolqarıstan Respublikasının Prezidenti olduğum müddətdə Sizinlə birlikdə strateji tərəfdaşlığın möhkəm əsaslarını qoymuşuq.

Sizin uzaqgörən strategiyanızın parlaq nümunələrindən biri də dialoq və anlaşma platforması olan Nizami Gəncəvi Beynəlxalq Mərkəzidir.

Azərbaycan Respublikasının Prezidenti kimi məsuliyyətli missiyanızda qarşınıza qoyduğunuz məqsədlərin həyata keçməsi üçün Sizə möhkəm cansağlığı, tükənməz güc və enerji arzulayıram.

*Dərin hörmətlə,*

***Georgi PIRVANOV,***
***Bolqarıstan Respublikasının sabiq Prezidenti (2002-2012),***
***Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvü***

❖ ❖ ❖

Cənab Prezident İlham Əliyev!

İcazə verin, Sizi doğum gününüz münasibətilə təbrik edim.

Müasir dünyada Sizin uzaqgörən dövlət xadimi kimi rolunuz yüksək qiymətləndirilir. Yalnız Zati-aliniz kimi qeyri-adi insanlar siyasi proseslərə və ideyalara yüksək standartlar səviyyəsində yanaşırlar. Mən bizim birgə çalışdığımız, ölkələrimiz və xalqlarımız arasında əlaqələrin inkişafına töhfə verdiyimiz dövrü yaxşı xatırlayıram.

Zati-aliləri, icazə verin, indiyə qədər gördüyünüz bütün işlərə görə Sizə bir daha dərin ehtiramımı bildirim. Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin İdarə Heyətinin üzvü kimi bu bənzərsiz qurumun missiyasına davamlı dəstəyinizə və sadiqliyinizə görə Sizə minnətdaram. Siz hələ çox töhfələr verəcəksiniz və bu yolda Sizə xoşbəxtlik, rifah diləyirəm.

*Hörmətlə,*

***Boris TADİÇ,***
***Serbiyanın sabiq Prezidenti (2004-2012),***
***Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin Qəyyumlar Şurasının üzvü***

❖ ❖ ❖

Hörmətli cənab Prezident, əziz dostum!

Doğum gününüz münasibətilə səmimi təbriklərimi qəbul edin. Siz fəal işinizlə, əsas dövləti məsələləri səmərəli şəkildə həll etməklə və beynəlxalq problemlərin həllində kompromis tapmaq bacarığınızla haqlı olaraq dünyada yüksək nüfuz və hörmət qazanmısınız.

Mən Sizə dost deyib ünsiyyət qura bildiyim üçün taleyimə minnətdaram.

Cənab Prezident, icazə verin, Sizə fəaliyyətinizdə uğurlar, cansağlığı, uzun ömür, xoşbəxtlik və firavanlıq diləyim.

Bu xoş fürsətdən istifadə edərək Sizə, ailənizə və ölkənizə qarşıdan gələn Yeni il münasibətilə ən xoş arzularımı yetirirəm.

*Hörmətlə,*

***Stepan MESİÇ,***
***Xorvatiya Respublikasının sabiq Prezidenti (2000-2010)***

❖ ❖ ❖

Möhtərəm Prezident İlham Əliyev!

Doğum gününüz münasibətilə Sizə ən xoş və səmimi təbriklərimi çatdırır, möhkəm cansağlığı və xoşbəxtlik, Azərbaycan xalqı və onun dünyadakı dostları naminə davamlı məhsuldar fəaliyyətinizdə uğurlar arzulayıram.

Ötən on il ərzində Sizin müdrikliyiniz və rəhbərliyiniz sayəsində Azərbaycan inkişaf edərək nüfuzlu və önəmli ölkəyə çevrilib. Dünyada bir çoxları Azərbaycanı regionda sabitliyin və iqtisadi inkişafın təmin olunmasına əhəmiyyətli töhfə verən ölkə hesab edir.

Əminəm ki, gözəl və sevimli ailəniz, xüsusən də şəxsən tanımaqdan şərəf duyduğum həyat yoldaşınız və istedadlı qızınız da Sizin böyük uğurlarınızda və nailiyyətlərinizdə mühüm rol oynayırlar.

Uzun illər İsrailin siyasi rəhbərliyinin üzvü və ölkənizi yaxından tanıyan əsl bir dost kimi Sizin işinizi yüksək qiymətləndirmək üçün mən kifayət qədər əsaslı məlumatlara malikəm. Qarşıdakı illərdə öz fəaliyyətinizi davam etdirmək üçün Sizə böyük qüvvə və uzun ömür arzulayıram.

İsrail dövlətinə olan həqiqi dostluğunuza və rəğbətinizə, habelə beynəlxalq aləmə müsbət töhfə verən Nizami Gəncəvi Beynəlxalq Mərkəzinə göstərdiyiniz davamlı dəstəyə görə Sizə minnətdarlığımı bildirirəm.

Ad gününüz mübarək! Qadir Allah Sizi qorusun!

***Dalia İTZİK,***
***İsrailin sabiq Prezidenti,***
***Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvü***

❖ ❖ ❖

Möhtərəm Prezident!

Sizin doğum gününüz Azərbaycanın sabit milli iqtisadiyyatı olan, xalqının tədricən yüksək həyat şəraitinin təmin edildiyi, həm regional, həm də beynəlxalq münasibətlərin nüfuzlu aktoru kimi fəal rol oynayan müasir ölkəyə çevrilməsində zati-alinizin böyük töhfəsini yüksək qiymətləndirmək baxımından gözəl imkandır.

Fürsətdən istifadə edərək, Sizə cansağlığı arzulayır, Azərbaycanı firavan saxlamaq və ölkənizi parlaq gələcəyə doğru aparmaq yolunda uğurlar diləyirəm.

***Yan FİŞER,***
***Çex Respublikasının sabiq Baş Naziri (2009-2010),***
***sabiq Maliyyə naziri (2013-2014),***
***Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvü***

❖ ❖ ❖

Zati-aliləri!

Doğum gününüz münasibətilə təbriklərimi qəbul edin.

Bu xoş fürsətdən istifadə edərək, Sizə möhkəm cansağlığı və fəaliyyətinizdə uğurlar arzulayıram. İnsanpərvərlik, mədəniyyətlər və xalqlar arasında dialoq, tolerantlıq və anlaşma dahi şair Nizami Gəncəvinin poeziyasının əsas motivlərini təşkil edir. Mən inanıram ki, ölkələrimiz arasında həm ikitərəfli, həm də çoxtərəfli formatda qarşılıqlı faydalı əməkdaşlıq xalqlarımızın mənafeləri naminə bundan sonra da davam edəcək. Xalqınıza rifah arzulayıram.

*Səmimiyyətlə,*

***Laimdota STRAUYUMA,***
***Latviyanın sabiq Baş Naziri (2014-2016),***
***Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvü***

❖ ❖ ❖

Hörmətli Prezident!

Doğum gününüz münasibətilə zati-alinizə və möhtərəm xanımınıza cansağlığı, firavanlıq və uzun ömür diləyirəm.

Bu münasibətlə əziz Azərbaycan xalqına Sizin rəhbərliyinizlə daha gözəl və firavan gələcək arzulayır, himayənizlə uğurlu fəaliyyət göstərən Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin nailiyyətlərinin artmasını diləyirəm.

Sizə ən səmimi ehtiramımı bildirir, xoş arzularımı qəbul etməyinizi rica edirəm.

*Dərin hörmətlə,*

***Ekmələddin İHSANOĞLU,***
***İslam Əməkdaşlıq Təşkilatının 9-cu Baş katibi,***
***Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvü***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!

Rusiya Federasiyası Xarici Kəşfiyyat Xidmətinin rəhbərliyi adından və şəxsən öz adımdan Sizi doğum gününüz münasibətilə təbrik edirəm.

Hörmətli İlham Heydər oğlu, Sizə ali dövləti vəzifənizdə yeni uğurlar, möhkəm cansağlığı, yaradıcılıq ruhu, xoşbəxtlik, firavanlıq, əziz və yaxın insanların səmimi diqqətini və sevgisini arzu edirəm.

Fürsətdən istifadə edib Rusiya və Azərbaycanın təhlükəsizliyinin təmin olunması, milli maraqların müdafiəsi, MDB məkanında sülhün və sabitliyin qorunub saxlanması məqsədilə ölkələrimizin xüsusi xidmətləri arasında qarşılıqlı əlaqələrin inkişafına göstərdiyiniz daimi diqqət və dəstəyə görə Sizə minnətdarlığımı bildirmək istəyirəm.

*Hörmətlə,*

***Sergey NARIŞKİN,***
***Rusiya Federasiyası Xarici Kəşfiyyat Xidmətinin direktoru***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Sizi - Azərbaycanın müdrik və uzaqgörən liderini doğum günü münasibətilə təbrik edirəm.

Sizin rəhbərliyinizlə Azərbaycan dünyada layiqli yerini tutaraq söz sahibinə çevrilmişdir. Eyni zamanda, Sizi planetin gələcəyi naminə beynəlxalq müzakirələrin aparıldığı platforma kimi tanınan Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin diqqətəlayiq uğurları münasibətilə təbrik etmək istəyirəm.

Zati-aliləri, qarşıdan gələn illərdə Sizə daha böyük uğurlar və möhkəm cansağlığı arzulayıram.

***Əmr MUSA,***
***Ərəb Dövlətləri Liqasının sabiq Baş katibi (2001-2011),***
***Misirin sabiq xarici işlər naziri (1991-2001),***
***Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin Qəyyumlar Şurasının üzvü***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Doğum gününüz münasibətilə zati-alinizi böyük məmnuniyyətlə səmimi-qəlbdən təbrik edirəm.

Sizin bacarıqlı və müdrik rəhbərliyinizlə Azərbaycanda həyatın bütün sahələri hərtərəfli və uğurlu inkişaf edib, ölkəniz bütün dünyada dialoq, sülh və tolerantlığın rəmzinə çevrilib. Ortaq problemlərimizi müzakirə etmək üçün görkəmli liderlərin bir araya gəldiyi platforma kimi Nizami Gəncəvi Beynəlxalq Mərkəzinə göstərdiyiniz davamlı dəstəyə görə Sizə minnətdarlığımı bildirirəm.

Ölkənizi dinamik inkişaf və davamlı tərəqqi yolunda aparmaq kimi nəcib missiyanızı davam etdirmək üçün zati-alinizə uzun ömür və möhkəm cansağlığı arzulayıram.

***Əbdüləziz bin Osman əl-TÜVEYCRİ,***
***ISESCO-nun sabiq Baş direktoru,***
***Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvü***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident!

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası adından və şəxsən öz adımdan Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edir, ən xoş arzularımı və diləklərimi qəbul etməyinizi xahiş edirəm.

Liderliyiniz və müdrik siyasətiniz sayəsində Azərbaycan Respublikası regionun ən inkişaf etmiş ölkəsi olaraq dünya dövlətləri arasında nüfuzunu daha da möhkəmləndirməkdədir.

Eyni zamanda Türk Şurasına daimi dəstəyinizi məmnuniyyətlə qeyd edirəm. Türk Şurasının Sizin sədrliyinizlə Bakıda keçirilən VII Zirvə Görüşünün uğurlu nəticələri təşkilatımızın keyfiyyətcə yeni mərhələyə qədəm qoymasına və regional müstəvidə daha da cəlbedici platformaya çevrilməsinə zəmin yaratmışdır.

Zati-aliləri, bu xoş fürsətdən istifadə edərək Sizə möhkəm cansağlığı, firavanlıq, ailə səadəti diləyir və çoxşaxəli ali dövləti fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayıram.

*Dərin hörmətlə,*

***Bağdad AMREYEV,***
***Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Baş katibi,***
***İstanbul şəhəri***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!

Ad gününüz münasibətilə Rusiyanın TASS İnformasiya Agentliyinin kollektivi adından və şəxsən öz adımdan ən səmimi təbrikləri qəbul edin.

Siz TASS agentliyinə müsahibənizdə vaxtilə demişdiniz: “Dövlətin davamlı inkişafı yalnız o halda mümkündür ki, addımlar düzgün planlaşdırılmış olsun”. Azərbaycanın bugünkü uğurları, sosial-iqtisadi potensialının və beynəlxalq nüfuzunun möhkəmlənməsi Sizin daxili və xarici siyasətdə atdığınız ardıcıl addımların nəticəsidir.

Sizin qətiyyətiniz və əzmkarlığınız, möhkəm rəhbər iradəniz həmişə ölkənin qələbələrinin həlledici qüvvəsi olmuş Azərbaycan xalqının zəngin mənəvi və yaradıcı potensialını səfərbər etməyə imkan verib.

Siz ölkə vətəndaşları üçün cəmiyyətə fədakarcasına xidmət nümunəsi olmusunuz.

TASS agentliyi Azərbaycanın həyatı ilə bağlı hadisələrin işıqlandırılmasına böyük diqqət yetirir. Ümidvaram ki, informasiya sahəsində əməkdaşlığımız keyfiyyətcə yeni formada davam edəcək.

Bu əlamətdar gündə ən səmimi arzularımı qəbul edin. Sizə sülh, rifah, cansağlığı, firavanlıq və təşəbbüslərinizdə yeni uğurlar diləyirəm.

*Hörmətlə,*

***Sergey MİXAYLOV,***
***TASS İnformasiya Agentliyinin Baş direktoru***

❖ ❖ ❖

Zati-aliləri, möhtərəm cənab Prezident!

Doğum gününüz münasibətilə Sizə uzun ömür, cansağlığı, ailə səadəti və xalqınızın rifahı naminə fəaliyyətinizdə yeni uğurlar arzulayıram. Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin dostları qrupunun üzvü kimi bu mühüm düşüncə və təşəbbüs mərkəzinin fəaliyyətinə verdiyiniz dəyərli dəstəyə görə Sizə minnətdarlığımı bildirirəm.

Yunanıstanın ən ucqar qərb bölgəsi olan və Trans-Adriatik boru kəmərinin (TAP) Albaniya sahilindən İtaliya sahilinə doğru dəniz dibi ilə Adriatik dənizi boyunca keçdiyi əraziyə çox yaxın olan İoniya adaları regionunun yeni seçilmiş qubernatoru kimi Sizə ən xoş arzularımı çatdırıram. Bu, təkcə Yunanıstanın deyil, həm də Avropa İttifaqının (Aİ) enerji sektorunun gələcəyi üçün çox əhəmiyyətli bir layihədir, çünki onun başa çatması ilə həyati əhəmiyyətli “Cənub qaz dəhlizi” layihəsi işə düşəcək ki, bu da Aİ ilə Azərbaycanın strateji tərəfdaşlığını möhkəmləndirəcəkdir.

Sizi əmin etmək istərdim ki, Azərbaycan və Yunanıstan arasındakı 25 ildən çox davam edən diplomatik münasibətlər və əməkdaşlıq kontekstində yeni hökumətimizin xarici siyasətinin məqsədi xalqlarımızın rifahı və firavanlığı, eləcə də dünyada sülh naminə ortaq layihələr üzrə ölkənizlə əlaqələrimizi daha da gücləndirməkdir.

Mənim səlahiyyətim çərçivəsində İoniya adaları regionu ilə Azərbaycan arasında turizm, ali təhsil, mədəniyyət və idman sahələrində əməkdaşlığı inkişaf etdirməkdən məmnun olardım.

*Dərin hörmətlə,*

***Rodi Kratsa TSAQAROPOLOU,***
***Yunanıstanın İoniya adaları regionunun qubernatoru***

❖ ❖ ❖

Zati-aliləri!

Doğum gününüz münasibətilə ən səmimi təbriklərimi qəbul edin. Sizə möhkəm cansağlığı, uzun ömür, rifah və yeni-yeni uğurlar diləyirəm.

Ölkələrimizin strateji tərəfdaşlığı, böyük əhəmiyyət daşıyan ortaq layihələr, dövlətlərimiz arasındakı mehriban qonşuluq münasibətləri Gürcüstan və Azərbaycan xalqlarının çoxəsrlik dostluğunun və tolerantlığının əyani təsdiqidir. Biz bu münasibətləri Kvemo Kartli bölgəsinin timsalında aydın görürük.

Sizi bir daha təbrik edir və ən gözəl arzularımızı çatdırıram.

*Hörmətlə,*

***Şota REXVİAŞVİLİ,***
***Gürcüstanın Kvemo Kartli bölgəsinin qubernatoru***

❖ ❖ ❖

Zati-aliləri, cənab İlham Əliyev!

Doğum gününüz münasibətilə Sizə ən xoş arzularımı çatdırıram. Sizə cansağlığı və xoşbəxtlik, ölkənizə firavanlıq diləyirəm.

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin Qlobal Dərnəyinin həmsədri kimi bu təşkilatın fəaliyyətinə dəstək vermək və onun tədbirlərində iştirak etmək mənim üçün şərəfdir. Mən inanıram ki, Sizin böyük dəstəyiniz və himayənizlə Nizami Gəncəvi Beynəlxalq Mərkəzi mədəniyyətlər arasında dialoqun və anlaşmanın təşviqində daha fəal rol oynayacaq və müasir dünyanın üzləşdiyi problemlərin həllinə daha çox töhfə verəcək.

İcazə verin, bir Çin məsəlində deyildiyi kimi, Tanrıdan Sizə dəryalar qədər dərin xoşbəxtlik və dağlar qədər uzun ömür arzulayım.

*Hörmətlə,*

***Çau Çak VİNQ,***
***Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin Qlobal Dərnəyinin həmsədri, Çin Xalq Respublikasında “Kingold” qrupunun sədri***

❖ ❖ ❖

Doğum gününüz münasibətilə Sizə və Azərbaycan xalqına təbriklərimizi və dərin hörmətimizi bildiririk.

Azərbaycan Prezidentinin, hökumətinin və xalqının dünyada sülh, çoxtərəflilik, beynəlxalq anlaşma və multikultural harmoniyanı təşviq etmək səyləri XXI əsrdə bəşəriyyəti irəli aparmaq üçün tələb olunan intellektual və diplomatik liderlik keyfiyyətlərinin bariz nümunəsidir.

***Qarri YAKOBS,***
***Ümumdünya Elm və İncəsənət Akademiyasının prezidenti və Baş icraçı direktoru***

❖ ❖ ❖

Zati-aliləri!

Gürcüstan-Azərbaycan Dostluq və Mədəni Əlaqələr Evinin İdarə Heyəti adından və şəxsən öz adımdan Sizi, ailənizi və bütün qardaş Azərbaycan xalqını ad gününüz münasibətilə təbrik etməyi özümə xoş bir borc hesab edirəm.

Sizə möhkəm cansağlığı, Azərbaycan dövlətinin tərəqqisi və Gürcüstan-Azərbaycan qardaşlıq münasibətlərinin inkişafı naminə gərgin və nəcib fəaliyyətinizdə gümrahlıq, tükənməz enerji arzu edirik.

*Dərin hörmətlə,*

***Georgi STURUA,***
***Gürcüstan-Azərbaycan Dostluq və Mədəni Əlaqələr Evinin İdarə Heyətinin sədri***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident!

Çox qədim və zəngin tarixə malik Azərbaycana rəhbərlik etdiyiniz bu illərdə ölkəmiz çox sürətlə inkişaf edərək dünyanın qabaqcıl dövlətlərindən birinə çevrilmişdir. Bu, Sizin yorulmaz fəaliyyətiniz nəticəsində mümkün olmuşdur.

Biz - Gürcüstanda yaşayan azərbaycanlılar tarixi Vətənimizdə gedən bütün siyasi, iqtisadi və mədəni prosesləri çox diqqətlə izləyirik. Xüsusən də xalqımızın ən ağrılı problemi olan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli üçün göstərdiyiniz qətiyyəti çox yüksək dəyərləndiririk. İnanırıq ki, səyləriniz hədər getməyəcək, haqq və ədalət tezliklə öz yerini tapacaq, torpaqlarımız işğaldan azad olunacaqdır.

Möhtərəm Prezident, Siz Azərbaycanda yaşayan azərbaycanlılarla yanaşı, Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu ənənəni davam etdirərək, ölkə hüdudlarından kənarda yaşayan soydaşlarımızın da hər zaman qayğısına qalırsınız. Xüsusən, Gürcüstanda yaşayan azərbaycanlılara daim böyük qayğı və diqqətinizi soydaşlarımız minnətdarlıqla qarşılayırlar, Sizin hər bir uğurunuz bizə çox böyük sevinc bəxş edir.

Bu xoş fürsətdən istifadə edərək, doğum gününüz münasibətilə Sizi Gürcüstanda yaşayan azərbaycanlı elm adamları və ziyalılar adından səmimi-qəlbdən təbrik edir, Sizə uzun ömür, cansağlığı arzulayır və doğma Azərbaycanımızın daha da inkişafı yolunda uğurlar diləyirik.

*Hörmətlə,*

***Mahmud KAMALOĞLU,***
***Gürcüstandan Ukrayna-Gürcüstan Beynəlxalq Elm və Təhsil İnstitutunun tədris işləri üzrə prorektoru***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

İcazə verin, doğum gününüz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edim.

Sizə möhkəm cansağlığı, ailənizə əmin-amanlıq, güclü Azərbaycan dövləti qurmaq kimi şərəfli tarixi missiyanı davam etdirmək üçün enerji diləyirəm. Artıq neçə illərdir ki, biz dost və qardaş Azərbaycan xalqının uğurlarını sevinclə müşahidə edir, Sizə və ölkənizə firavanlıq, yeni uğurlar və əmin-amanlıq arzulayıram.

Biz bundan sonra da vahid, dinc və çiçəklənən Azərbaycan görmək istəyirik. Əminik ki, Sizin rəhbərliyinizlə Azərbaycan bundan sonra da yeni uğurlar qazanacaq, böyük, nurlu ümidlər və geniş imkanlar ölkəsi olaraq qalacaq.

Ad gününüz mübarək, hörmətli İlham Heydər oğlu!

Sizə və bütün ailənizə ən xoş arzular və dərin hörmətlə,

***David BEJUAŞVİLİ,***
***“Gürcüstan Sənaye Qrupu”nun Direktorlar Şurasının sədri***

## Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 17, № 5, maddə 323; 2002, № 5, maddə 236; 2003, № 1, maddələr 23, 24, № 6, maddə 279; 2004, № 7, maddə 505, № 8, maddə 598, № 10, maddə 761; 2005, № 4, maddələr 277, 278; 2006, № 2, maddə 64, № 12, maddə 1006; 2007, № 1, maddələr 3, 4, № 2, maddə 68, № 5, maddə 439, № 6, maddə 560, № 7, maddə 712, № 8, maddə 756; 2008, № 6, maddə 462, № 7, maddə 602, № 12, maddə 1046; 2009, № 6, maddə 402; 2010, № 2, maddə 75, № 4, maddə 276; 2011, № 6, maddələr 471, 476, № 7, maddələr 583, 619, № 12, maddələr 1096, 1105; 2012, № 5, maddə 411, № 6, maddə 511; 2013, № 5, maddə 472, № 6, maddə 625, № 11, maddələr 1266, 1307; 2015, № 6, maddə 677, № 12, maddə 1435; 2016, № 5, maddə 836, № 6, maddə 1016, № 11, maddələr 1761, 1763, № 12, maddə 2047; 2017, № 2, maddə 155, № 4, maddə 523, № 5, maddələr 706, 750, № 11, maddələr 1935, 1975; 2018, № 5, maddə 879, № 8, maddə 1672, № 11, maddələr 2209, 2225, № 12, (I kitab), maddələr 2524, 2534; 2019, № 1, maddə 23, № 5, maddələr 792, 812, № 7, maddə 1197) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 172.2-ci maddədə "tutulması," sözündən sonra "övladlığa götürmə," sözləri əlavə edilsin;

1.2. 347-ci maddə üzrə:

1.2.1. 347.1.6-cı maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 347.1.7-ci maddə əlavə edilsin:

"347.1.7. müvafiq icra hakimiyyəti orqanının övladlığa götürmənin övladlığa götürülən uşağın mənafeyinə uyğunluğu barədə rəyi.";

1.2.2. 347.2-ci maddədə "347.1.1-347.1.6-cı" sözləri "347.1.1-347.1.7-ci" sözləri ilə əvəz edilsin, həmin maddədən "müvafiq icra hakimiyyəti orqanının razılığı," sözləri çıxarılsın və həmin maddəyə "barədə rəyi," sözlərindən sonra "həmin ölkələrdə məhkumluğuna və barəsində cinayət təqibinin olmamasına dair sənəd," sözləri əlavə edilsin;

1.3. 348-ci maddə üzrə:

1.3.1. 348.1-ci, 348.2-ci və 348.2.1-ci maddələr aşağıdakı redaksiyada verilsin:

"348.1. İşi məhkəmədə baxılmağa hazırlayarkən hakim ərizəyə övladlığa götürmənin uşağın mənafeyinə uyğunluğu barədə müvafiq icra hakimiyyəti orqanının rəyinin əlavə olunub-olunmadığını yoxlayır.

348.2. Məhkəməyə təqdim edilmiş müvafiq icra hakimiyyəti orqanının rəyinə aşağıdakılar əlavə olunur:

348.2.1. müvafiq icra hakimiyyəti orqanının tərtib etdiyi övladlığa götürənlərin (götürənin) maddi-məişət şəraitinin müayinə aktı;";

1.3.2. 348.2.5-ci maddədə "valideynlərinin" sözündən sonra ", ögey valideynlərinin, qəyyumunun (himayəçisinin)" sözləri əlavə edilsin;

1.3.3. 348.2.6-cı maddə aşağıdakı redaksiyada verilsin:

"348.2.6. valideyn himayəsindən məhrum olmuş uşağın yerləşdiyi müəssisənin rəhbərinin uşağın övladlığa götürülməsinə dair fikri (rəyi);";

1.3.4. 348.2.7-ci maddədə "övladlığa götürülənin mərkəzləşdirilmiş qeydiyyatda" sözləri "habelə Azərbaycan Respublikasının vətəndaşı olan uşaq əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər tərəfindən övladlığa götürülərkən, övladlığa götürülənin və övladlığa götürənin (götürənlərin) müvafiq icra hakimiyyəti orqanında vahid elektron uçotda" sözləri ilə əvəz edilsin;

1.3.5. 348.4-cü və 348.5-ci maddələr ləğv edilsin;

1.4. 349-cu maddədə "iclasında," sözündən sonra "ögey ata (ögey ana) tərəfindən övladlığa götürülmə halları istisna olmaqla," sözləri əlavə edilsin və həmin maddədən "qəyyumluq və himayəçilik orqanı nümayəndəsinin, Azərbaycan Respublikasının vətəndaşı olan uşaq əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər tərəfindən övladlığa götürüldükdə" sözləri çıxarılsın;

1.5. 350.4-cü maddəyə "müvafiq icra hakimiyyəti orqanına" sözlərindən sonra "və" sözü əlavə edilsin və həmin maddədən "övladlığa götürülən uşaqların uçotu üçün uşağın yaşadığı (olduğu) yer üzrə müvafiq icra hakimiyyəti orqanına" sözləri çıxarılsın.

**Maddə 2. Keçid müddəa**

2.1. 2019-cu ilin noyabrın 1-dək övladlığa götürmə ilə bağlı məhkəmələr tərəfindən icraata qəbul edilmiş ərizələrə baxılması zamanı övladlığa götürülən uşağın yaşayış yeri (olduğu yer) üzrə qəyyumluq və himayəçilik orqanının övladlığa götürmənin əsaslılığı və övladlığa götürülən uşağın mənafeyinə uyğunluğu haqqında Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinin 348.2-ci maddəsinə uyğun olaraq təqdim etdiyi rəyi nəzərə alınır;

2.2. 2019-cu ilin noyabrın 1-dək övladlığa götürmə ilə bağlı məhkəmələr tərəfindən icraata qəbul edilmiş ərizələrə baxılması zamanı bu Qanunun 2.1-ci maddəsində göstərilən orqan tərəfindən övladlığa götürmənin əsaslılığı və övladlığa götürülən uşağın mənafeyinə uyğunluğu haqqında rəyin təqdim edilmədiyi hallarda, övladlığa götürmənin övladlığa götürülən uşağın mənafeyinə uyğunluğu barədə rəy Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinin 348.2.1-348.2.7-ci maddələrinin tələbləri nəzərə alınmaqla müvafiq icra hakimiyyəti orqanı tərəfindən verilir.

**Maddə 3.** Bu Qanun 2019-cu il noyabrın 1-dən tətbiq edilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 dekabr 2019-cu il*

## Azərbaycan Respublikasının Mülki Məcəlləsində, "Uşaq hüquqları haqqında" və "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının Mülki Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4 (I kitab), maddə 250, № 5, maddə 323; 2002, № 12, maddə 709; 2003, № 8, maddə 420; 2004, № 3, maddə 123, № 5, maddə 318, № 6, maddə 415, № 10, maddə 761, № 11, maddə 901; 2005, № 2, maddə 61, № 6, maddə 466, № 8, maddələr 684, 692, 693, № 11, maddə 996, № 12, maddə 1085; 2006, № 2, maddə 68, № 3, maddə 225, № 5, maddə 387, № 6, maddə 478, № 8, maddə 657, № 12, maddə 1005; 2007, № 2, maddə 80, № 6, maddə 560, № 8, maddə 745, № 10, maddə 937, № 11, maddə 1053, № 12, maddələr 1215, 1219; 2008, № 3, maddə 145, № 6, maddə 456, № 7, maddə 602, № 12, maddə 1049; 2009, № 2, maddə 47, № 5, maddə 295, № 6, maddə 404, № 7, maddə 517; 2010, № 2, maddə 75, № 3, maddə 171, № 4, maddələr 265, 266, 276; 2011, № 2, maddə 71, № 7, maddə 586, № 8, maddə 750, № 12, maddələr 1073, 1102; 2012, № 1, maddə 5, № 5, maddə 403, № 6, maddə 498; 2013, № 1, maddə 15, № 6, maddə 620, № 11, maddə 1280, № 12, maddələr 1469, 1478; 2014, № 2, maddə 96, № 7, maddə 768; 2015, № 3, maddə 254, № 5, maddə 512, № 7, maddə 814, № 10, maddə 1093; 2016, № 1, maddə 26, № 2 (I kitab), maddələr 186, 204, № 3, maddə 401, № 4, maddələr 640, 646, № 6, maddə 1005, № 7, maddə 1248, № 12, maddələr 1998, 2018; 2017, № 2, maddələr 151, 153, № 5, maddələr 703, 735, № 6, maddə 1035, № 11, maddə 1953, № 12 (I kitab), maddələr 2210, 2234, 2239; 2018, № 2, maddə 142, № 4, maddə 650, № 5, maddələr 845, 851, № 11, maddə 2212, № 12 (I kitab), maddələr 2467, 2518, 2526, 2533; 2019, № 1, maddələr 23, 50, № 5, maddələr 806, 812, 814, № 6, maddələr 994, 996, № 8, maddə 1369; Azərbaycan Respublikasının 2019-cu il 9 iyul tarixli 1640-VQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 35-ci maddə üzrə:

1.1.1. 35.4-cü maddədə "tərbiyə, müalicə, əhalinin sosial müdafiəsi və ya digər oxşar müəssisələrdə" sözləri "sosial xidmət müəssisələrində" sözləri ilə əvəz edilsin;

1.1.2. 35.7-ci maddədə "olanların" sözləri "olan uşaqların, o cümlədən Azərbaycan Respublikasının Ailə Məcəlləsinin 118.12-ci və 118.13-cü maddələrinə uyğun olaraq övladlığa götürmək istəyən şəxsin ailəsində sınaq müddəti ilə yerləşdirilən uşaqların" sözləri ilə əvəz edilsin.";

1.2. 38.2-ci maddədə "tərbiyə, müalicə, əhalinin sosial müdafiəsi müəssisəsinə" sözləri "sosial xidmət müəssisələrinə" sözləri ilə əvəz edilsin;

1.3. 1103-cü maddə üzrə:

1.3.1. 1103.2-ci maddədə "tərbiyə, müalicə müəssisəsində" sözləri "sosial xidmət müəssisəsində" sözləri ilə əvəz edilsin;

1.3.2. 1103.3-cü maddədə "təhsil, tərbiyə, müalicə müəssisəsinin" sözləri "sosial xidmət müəssisələri" sözləri ilə əvəz edilsin;

1.3.3. 1103.4-cü maddədə "təhsil, tərbiyə, müalicə müəssisələrinin" sözləri "sosial xidmət müəssisələri" sözləri ilə əvəz edilsin;

1.4. 1104.3-cü maddədə "tərbiyə, müalicə müəssisəsində" sözləri "sosial xidmət müəssisəsində" sözləri ilə əvəz edilsin.

**Maddə 2.** "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikası Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 8, maddə 484; 2001, № 3, maddə 143, № 11, maddələr 676, 687, № 12, maddə 731; 2002, № 5, maddə 241, № 6, maddə 328; 2004, № 2, maddə 57, № 3, maddə 133, № 7, maddə 507; 2006, № 2, maddə 75; 2007, № 6, maddə 560; 2008, № 7, maddə 602; 2010, № 2, maddə 70, № 4, maddə 275; 2013, № 11, maddə 1317; 2015, № 5, maddə 484; 2016, № 6, maddə 968; 2017, № 7, maddə 1263; 2019, № 1, maddə 9; Azərbaycan Respublikasının 2019-cu il 8 oktyabr tarixli 1675-VQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 30-cu maddədə "yetim" sözü "valideynlərini itirmiş" sözləri ilə əvəz edilsin;

1.2. 31-ci maddə üzrə:

1.2.1. 1-ci hissədə "uşaqlara baxan müvafiq müəssisələrdə" sözləri "uşaqlar üçün sosial xidmət müəssisələrində" sözləri ilə əvəz edilsin;

1.2.2. 3-cü hissədə "Uşaq müəssisələrində" sözləri "Uşaqlar üçün sosial xidmət müəssisələrində" sözləri ilə əvəz edilsin.

**Maddə 3.** "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 8, maddə 477; 2001, № 11, maddə 687, № 12, maddələr 731, 736; 2002, № 5, maddə 241, № 6, maddə 328; 2006, № 2, maddə 75; 2007, № 6, maddə 561, № 12, maddə 1197; 2008, № 7, maddə 602; 2010, № 4, maddə 275; 2013, № 5, maddə 477; 2016, № 11, maddə 1765; 2018, № 5, maddə 872, № 12 (I kitab), maddə 2505; 2019, № 8, maddə 1382) 1-ci maddəsində aşağıdakı dəyişikliklər edilsin:

2.1. doqquzuncu abzasda "tərbiyə, müalicə, əhalinin sosial müdafiəsi və digər analoji müəssisələrdən" sözləri "uşaqlar üçün sosial xidmət müəssisələrindən" sözləri ilə əvəz edilsin;

2.2. on beşinci abzasda "əhalinin sosial müdafiəsi müəssisələri" sözləri "sosial xidmət müəssisələri" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 dekabr 2019-cu il*

## "Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 3 dekabr tarixli 1721-VQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 22 yanvar tarixli 265 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 3 dekabr tarixli 1721-VQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

1. Müəyyən edilsin ki, Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinin 347.1.7-ci, 348.1-ci, 348.2-ci, 348.2.1-ci, 348.2.7-ci, 350.4-cü maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi həyata keçirir.

2. "Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 22 yanvar tarixli 265 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 44; 2002, № 8, maddə 478; 2006, № 8, maddə 677, № 12, maddə 1034; 2007, № 3, maddə 226; 2009, № 6, maddə 414; 2011, № 11, maddə 1009; 2016, № 3, maddə 471, № 6, maddə 1045; 2017, № 3, maddə 352, № 4, maddə 551, № 8, maddə 1517, № 11, maddə 2261; 2019, № 6, maddə 1030) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 2.6-cı bənd aşağıdakı redaksiyada verilsin:

"2.6. həmin Məcəllənin 347.1.7-ci, 348.1-ci, 348.2-ci, 348.2.1-ci, 348.2.7-ci, 349-cu, 350.4-cü maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi həyata keçirir;";

2.2. 2.7-ci bənd ləğv edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 dekabr 2019-cu il*

## Ümumdünya Poçt Konvensiyasına və onun Yekun Protokoluna qoşulmaq haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

1. Azərbaycan Respublikası 2016-cı il oktyabrın 6-da İstanbul şəhərində qəbul edilmiş Ümumdünya Poçt Konvensiyasına və onun Yekun Protokoluna Azərbaycan Respublikasının ona dair bəyanatı ilə qoşulsun.

2. Azərbaycan Respublikasının aşağıdakı qanunları bu Qanun qüvvəyə mindiyi gündən ləğv edilsin:

2.1. "Ümumdünya Poçt Konvensiyasına qoşulmaq haqqında" Azərbaycan Respublikasının 2002-ci il 19 fevral tarixli 265-IIQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 4 (I kitab), maddə 168);

2.2. "Ümumdünya Poçt Konvensiyasına və onun Yekun Protokoluna qoşulmaq barəsində" Azərbaycan Respublikasının 2004-cü il 22 iyun tarixli 701-IIQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 7, maddə 516);

2.3. "Ümumdünya Poçt Konvensiyasının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2008-ci il 1 aprel tarixli 567-IIIQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 5, maddə 334);

2.4. "Ümumdünya Poçt Konvensiyasının Yekun Protokolunun təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2008-ci il 1 aprel tarixli 568-IIIQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 5, maddə 335);

2.5. "Ümumdünya Poçt Konvensiyasına və onun yekun Protokoluna qoşulmaq haqqında" Azərbaycan Respublikasının 2012-ci il 21 dekabr tarixli 514-IVQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 2, maddə 84);

2.6. "Ümumdünya Poçt Konvensiyasına və onun yekun Protokoluna qoşulmaq haqqında" Azərbaycan Respublikasının 2016-cı il 4 mart tarixli 167-VQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 3, maddə 425).

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 dekabr 2019-cu il*

## Ümumdünya Poçt İttifaqının Nizamnaməsinə Doqquzuncu Əlavə Protokola qoşulmaq haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikası 2016-cı il oktyabrın 6-da İstanbul şəhərində qəbul edilmiş Ümumdünya Poçt İttifaqının Nizamnaməsinə Doqquzuncu Əlavə Protokola qoşulsun.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 dekabr 2019-cu il*

## Bakı şəhərinin Xəzər rayonu ərazisində avtomobil yollarının, həmçinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması işlərinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Bakı şəhəri Xəzər rayonunun Binə, Buzovna, Qala, Mərdəkan, Şağan, Şüvəlan və Türkan qəsəbələri ərazisində yeni infrastruktur layihələrinin həyata keçirilməsi məqsədilə Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan cəmi 6,0 (altı) milyon manat, o cümlədən avtomobil yollarının yenidən qurulması üçün Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ilkin olaraq 3,0 (üç) milyon manat, su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması üçün "Azərsu" Açıq Səhmdar Cəmiyyətinə ilkin olaraq 3,0 (üç) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 dekabr 2019-cu il*

## F.F.Axundovun Azərbaycan Respublikasının Niderland Krallığında fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Fikrət Fərman oğlu Axundov Azərbaycan Respublikasının Niderland Krallığında fövqəladə və səlahiyyətli səfiri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 dekabr 2019-cu il*

## Azərbaycan Respublikasının Dövlət Neft Fondu işçilərinin təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Dövlət Neft Fondunun 20 illiyi ilə əlaqədar Fondun aşağıdakı işçiləri təltif edilsinlər:

**3-cü dərəcəli "Əmək" ordeni ilə**

Məmmədov Rauf Əhmədoviç

**"Tərəqqi" medalı ilə**

Ağayeva Səidə Ramis qızı
Bəhramov Bəhruz Fərman oğlu
Cavadov Rövşən Nazim oğlu
Əliyeva Cəmalə Araz qızı
İbrahimov Zaur Seyfulla oğlu
Kərimova Lamiyyə Ədalət qızı
Manafov İsmayıl Samud oğlu
Məmmədov Rəhim Fikrət oğlu
Mustafayev Rasim Vaqif oğlu
Mustafayeva Çəməngül Bahadur qızı
Pşeniçnıy Vadim Aleksandroviç
Zeynalov Allahverdi Nəriman oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 dekabr 2019-cu il*

## "Azərbaycan vətəndaşı ildən-ilə daha yaxşı yaşamalıdır"

*Prezident bunu bir daha bəyan etdi*

*Əvvəli 1-ci səh.*

Müavinətlər orta hesabla 50 faiz, yaxud da 2 dəfə, minimum əməkhaqqı 2 dəfə, minimum pensiya 70 faizdən çox artırıldı. Minimum pensiyanın alıcılıq qabiliyyətinə görə bu gün Azərbaycan MDB-də birinci yerdədir. Amma o demək deyil ki, bu, bizi qane edir, yox. Biz istəyirik daha da artsın və əminəm ki, artacaq. Sadəcə olaraq, buna nail olmaq üçün gərək iqtisadi sahədə daha böyük artım olsun".

Prezident xatırlatmışdır ki, neftin qiymətinin kəskin şəkildə düşməsindən sonra milli valyutamız devalvasiyaya uğramışdır. İqtisadi fəallıq aşağı düşmüş, dövlətin gəlirləri azalmışdır. Buna baxmayaraq, heç bir sosial layihə təxirə salınmamışdır ki, bu da dövlətin öz vətəndaşına olan qayğısının təzahürü idi.

Dövlət başçısı bir daha vurğulamışdır ki, sosial layihələrin həyata keçirilməsi ölkənin iqtisadi inkişafı ilə bağlıdır. Belə ki, iqtisadi inkişaf, yüksək gəlir əldə olunmasa, sosial sahəyə yönəltmək üçün vəsait də tapılmaz. Ona görə də iqtisadi inkişaf sosial problemlərin həllini təmin edən əsas amil olaraq qalır.

Aparılan uğurlu iqtisadi islahatlar sayəsində ölkənin builki inkişaf göstəriciləri də yüksəkdir. Ölkə üzrə ümumi iqtisadi artım 2, qeyri-neft iqtisadiyyatında 3,5 faizdən çoxdur. Qeyri-neft sənayesində isə bu artım 14 faizdir. Qeyri-neft sənayesinin belə sürətli inkişafı ölkənin neftdən asılılığını tədricən aradan qaldıracaq. Bununla yanaşı, iqtisadiyyatımızda coğrafiyasına, qeyri-neft sektorunda çəkisinə və məşğul əhalinin sayına görə yüksək yer tutan kənd təsərrüfatında da artım 7 faizdən çoxdur.

11 ayın nəticələrinə görə, ölkə üzrə inflyasiya təqribən 2,6 faizdir. Xarici ticarət dövriyyəsində qeyri-neft ixracatı təqribən 14-15 faiz artıb. Dövlətin xarici borcu azalaraq ümumi daxili məhsulun 17 faizini təşkil edir ki, bu da dünya üzrə 9-cu göstəricidir. Ölkəmizin valyuta ehtiyatları 50 milyard dollara çatıb və bu da rekord nailiyyətdir. Belə halın təkcə iqtisadi deyil, həm də siyasi uğurumuz olduğunu deyən dövlət başçısı vurğulamışdır ki, iqtisadi müstəqillik həm də siyasi müstəqilliyimizin təminatıdır.

Prezident gələn il sosial sahədə görüləcək işlər barədə məlumat verərək bildirmişdir ki, sosial layihələrin həyata keçirilməsi sırf iqtisadi inkişafla bağlıdır. Görünən odur ki, növbəti ildə də əldə olunacaq əlavə gəlirlərin böyük əksəriyyəti sosial layihələrin icrasına istiqamətləndiriləcək. Prezident qeyd etmişdir ki, gələn il də xüsusilə sosial cəhətdən həssas təbəqələrin ehtiyacları diqqət mərkəzində olacaq.

Dövlət başçısı müsahibəsində onu da xatırlatmışdır ki, təkcə cari il məcburi köçkünlər üçün 5 mindən çox ev tikilib, 800-ə yaxın şəhid ailəsi, müharibə əlili evlərlə təmin edilib. Artıq 7 mindən çox şəhid ailəsi dövlətin bu qayğısından yararlanıb. Bununla yanaşı, 6 mindən çox müharibə əlilinə fərdi avtomobil verilib.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# MƏRKƏZİ SEÇKİ KOMİSSİYASINDA

## Mərkəzi Seçki Komissiyasının iclası keçirilib

Dekabrın 26-da Məzahir Pənahovun sədrliyi ilə Mərkəzi Seçki Komissiyasının (MSK) növbəti iclası keçirilib.

Mərkəzi Seçki Komissiyası Katibliyinin media və ictimai əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, əvvəlcə komissiyanın 2019-cu il 21 dekabr tarixli iclasının protokolu təsdiq olunub.

Sonra 2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Vətəndaş və İnkişaf Partiyası, Vahid Azərbaycan Partiyası və Müsavat Partiyasının səlahiyyətli nümayəndələrinin qeydə alınması məsələsinə baxılıb, sözügedən partiyalar tərəfindən təqdim olunan şəxslər səlahiyyətli nümayəndələr kimi qeydə alınıb.

İclasda, həmçinin 2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkiləri ilə əlaqədar MSK-ya daxil olmuş müraciətlərə baxılıb. Komissiya vətəndaşların seçki hüquqlarının daha səmərəli təmin olunması məqsədilə daxil olan müraciətlərə qanunla müəyyən olunmuş qaydada və müddətdə operativ şəkildə baxaraq müvafiq qərarlar qəbul edib.

Kütləvi informasiya vasitələrinin nümayəndələrinin və maraqlı subyektlərin iştirak etdiyi iclasda dekabrın 23-də keçirilmiş bələdiyyə seçkiləri və qarşıdan gələn 9 fevral Milli Məclisə seçkilərlə əlaqədar cari məsələlərə də baxılıb.

---

**Qərar № 23/106**

### Mərkəzi Seçki Komissiyasının 21 dekabr 2019-cu il tarixli iclas protokolunun təsdiq edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci və 28.4-cü maddələrinə uyğun olaraq **qərara alır:**

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 21 dekabr 2019-cu il tarixli iclasının protokolu təsdiq edilsin.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*26.12.2019*

---

**Qərar № 23/107**

### 2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Vətəndaş və İnkişaf Partiyasının səlahiyyətli və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələrinin qeydə alınması haqqında Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Vətəndaş və İnkişaf Partiyası Məclisinin 2019-cu il 21 dekabr tarixli iclasının qərarları ilə səlahiyyətli nümayəndələr və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələr təyin olunmuş və həmin şəxslərin qeydə alınması üçün müvafiq sənədlər Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) təqdim edilmişdir.

Mərkəzi Seçki Komissiyası bununla əlaqədar qanunvericilikdə nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, təqdim edilmiş şəxslərin qeydə alınması üçün hüquqi əsasların olmasını müəyyən etmişdir.

Yuxarıda qeyd edilənləri əsas götürərək Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü və 52-ci maddələrinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə aşağıdakı şəxslər Vətəndaş və İnkişaf Partiyasının səlahiyyətli və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələri kimi qeydə alınsınlar:

**1.1. Səlahiyyətli nümayəndələr:**
Əliyar Əliş oğlu Şirməmmədov
Yusif İbrahim oğlu Vəliyev

**1.2. Maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələr:**
İlhamə Akif qızı Şeyx-zadə
Şamil Oqtay oğlu Sadıqov

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*26.12.2019*

---

**Qərar № 23/108**

### 2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Vahid Azərbaycan Partiyasının səlahiyyətli nümayəndələrinin qeydə alınması haqqında Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Vahid Azərbaycan Partiyası Mərkəzi Şurasının 2019-cu il 18 dekabr tarixli iclasının qərarı ilə səlahiyyətli nümayəndələr təyin olunmuş və həmin şəxslərin qeydə alınması üçün müvafiq sənədlər Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) təqdim edilmişdir.

Mərkəzi Seçki Komissiyası bununla əlaqədar qanunvericilikdə nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, təqdim edilmiş şəxslərin qeydə alınması üçün hüquqi əsasların olmasını müəyyən etmişdir.

Yuxarıda qeyd edilənləri əsas götürərək Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü və 52-ci maddələrinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə aşağıdakı şəxslər Vahid Azərbaycan Partiyasının səlahiyyətli nümayəndələri kimi qeydə alınsınlar:

**Səlahiyyətli nümayəndələr:**
Rəvan Aydın oğlu Əhmədov
Nicat Nozər oğlu Həsənxani
Emin Rahib oğlu Kazımov
Məhərrəm Məzahir oğlu Aslanov
Vüsal Balacan oğlu Quliyev
Kamal İlham oğlu Səlimov

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*26.12.2019*

---

**Qərar № 23/109**

### 2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Müsavat Partiyasının səlahiyyətli və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələrinin qeydə alınması haqqında Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Müsavat Partiyası Divanının 2019-cu il 23 dekabr tarixli iclasının qərarları ilə səlahiyyətli nümayəndələr və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələr təyin olunmuş və həmin şəxslərin qeydə alınması üçün müvafiq sənədlər Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) təqdim edilmişdir.

Mərkəzi Seçki Komissiyası bununla əlaqədar qanunvericilikdə nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, təqdim edilmiş şəxslərin qeydə alınması üçün hüquqi əsasların olmasını müəyyən etmişdir.

Yuxarıda qeyd edilənləri əsas götürərək Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü və 52-ci maddələrinə əsasən **qərara alır:**

1. 2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə aşağıdakı şəxslər Müsavat Partiyasının səlahiyyətli və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələri kimi qeydə alınsınlar:

**1.1. Səlahiyyətli nümayəndələr:**
Elman Fizuli oğlu Quliyev
Nəsiman Qara oğlu Yaqublu
Tahir Əli oğlu Hüseynov
Səxavət Zülfəli oğlu Quliyev
İbrahim Rəhim oğlu Hacıyev
Fərəc Raqif oğlu Kərimov
Fəyyaz Qüdrət oğlu Allahverdiyev
Fizuli Vəzir oğlu Carullayev

**1.2. Maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələr:**
Emin Adil oğlu Yavəri
İsmayıl Rəşid oğlu Nəcəfli
Abduləli Nəzir oğlu Nəzirov

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*26.12.2019*

---

**Qərar № 23/110**

### 2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 25 dekabr 2019-cu il tarixli 15 saylı müraciətə baxılmasına dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 77 saylı Astara seçki dairəsindən Astara bələdiyyəsi üzrə qeydə alınmış namizəd Abdullayev Rəfail Oruc oğlu 2019-cu il dekabrın 24-də teleqramla Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) müraciət edərək həmin seçki dairəsinin 2, 4, 5, 6 və 7 saylı seçki məntəqələrində qanun pozuntularının baş verdiyini iddia etmiş, bununla bağlı tədbirlərin görülməsini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (Seçki Məcəlləsi) 112-ci və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələblərinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən nəzərdən keçirilmiş, bu barədə müvafiq rəy verilmiş və Mərkəzi Seçki Komissiyasının iclasında baxılmışdır.

Həmin məcəllənin 112-1.12-ci maddəsinə görə müraciət aidiyyət qaydalarının pozulması ilə daxil olmuşdursa, onda həmin müraciətin aidiyyəti üzrə göndərilməsinə dair qərar qəbul edilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1, 2, 4, 6, 7 və 8-ci bəndlərinə əsasən **qərara alır:**

1. 77 saylı Astara seçki dairəsindən Astara bələdiyyəsi üzrə qeydə alınmış namizəd Abdullayev Rəfail Oruc oğlunun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 25 dekabr 2019-cu il tarixli 15 saylı müraciəti aidiyyəti üzrə araşdırılması üçün həmin seçki dairəsinin dairə seçki komissiyasına göndərilsin.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*26.12.2019*

---

**Qərar № 23/111**

### 2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 25 dekabr 2019-cu il tarixli 09 saylı müraciətə baxılmasına dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 74 saylı Lənkəran kənd seçki dairəsindən Osaküçə bələdiyyəsi üzrə qeydə alınmış namizəd Niftullayev Talışxan İsmayıl oğlu 2019-cu il dekabrın 25-də teleqramla Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) müraciət edərək səsvermə günü Osaküçə kəndində seçkilərin düzgün aparılmadığını, vətəndaşların seçki hüquqlarının pozulduğunu iddia etmiş, səslərin düzgün hesablanmasına göstəriş verilməsini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (Seçki Məcəlləsi) 112-ci və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələblərinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən nəzərdən keçirilmiş, bu barədə müvafiq rəy verilmiş və Mərkəzi Seçki Komissiyasının iclasında baxılmışdır.

Seçki Məcəlləsinin 112-1.12-ci maddəsinə əsasən şikayət aidiyyət qaydalarının pozulması ilə daxil olmuşdursa, onda həmin müraciətin aidiyyəti üzrə göndərilməsinə dair qərar qəbul edilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1, 2, 4, 6, 7 və 8-ci bəndlərinə əsasən **qərara alır:**

1. 2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 74 saylı Lənkəran kənd seçki dairəsindən Osaküçə bələdiyyəsi üzrə qeydə alınmış namizəd Niftullayev Talışxan İsmayıl oğlunun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 25 dekabr 2019-cu il tarixli 09 saylı müraciəti aidiyyəti üzrə araşdırılması üçün həmin seçki dairəsinin dairə seçki komissiyasına göndərilsin.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*26.12.2019*

---

**Qərar № 23/112**

### 2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 25 dekabr 2019-cu il tarixli 10 saylı müraciətə baxılmasına dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 75 saylı Lənkəran-Masallı seçki dairəsindən Türkoba bələdiyyəsinə seçkilərdə qeydə alınmış namizəd Hüseynov Qaraxan Mirzə oğlu və digər qeydə alınmış namizəd Ağayev Vəkil Mürşüd oğlu 2019-cu il dekabrın 25-də teleqramla Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) müraciət edərək həmin seçki dairəsi üzrə Türkoba bələdiyyəsinə keçirilən seçkilərdə 29, 30 və 31 saylı seçki məntəqələrində səsvermə günü qanun pozuntularının baş verməsini, bülletenlərin təkrar sayılmasına dair tələblərinin məntəqə seçki komissiyası tərəfindən rədd olunduğunu iddia etmiş, bu pozuntuların araşdırılmasını və müvafiq tədbirlərin görülməsini xahiş etmişlər.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (Seçki Məcəlləsi) 112-ci və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələblərinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən nəzərdən keçirilmiş, bu barədə müvafiq rəy verilmiş və Mərkəzi Seçki Komissiyasının iclasında baxılmışdır.

Seçki Məcəlləsinin 112-1.12-ci maddəsinə əsasən şikayət aidiyyət qaydalarının pozulması ilə daxil olmuşdursa, onda həmin müraciətin aidiyyəti üzrə göndərilməsinə dair qərar qəbul edilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1, 2, 4, 6, 7 və 8-ci bəndlərinə əsasən **qərara alır:**

1. 75 saylı Lənkəran - Masallı seçki dairəsindən Türkoba bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizədlər Hüseynov Qaraxan Mirzə oğlu və Ağayev Vəkil Mürşüd oğlunun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 25 dekabr 2019-cu il tarixli 10 saylı müraciəti aidiyyəti üzrə araşdırılması üçün həmin seçki dairəsinin dairə seçki komissiyasına göndərilsin.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*26.12.2019*

---

**Qərar № 23/113**

### 2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 24 dekabr 2019-cu il tarixli 11 saylı müraciətə baxılmasına dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 97 saylı Goranboy-Ağdam-Tərtər seçki dairəsindən Sarov bələdiyyəsi üzrə qeydə alınmış namizəd Nuruyev Emin Məhərrəm oğlu 2019-cu il dekabrın 25-də teleqramla Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) müraciət edərək seçki məntəqəsinə özünün və müşahidəçisinin buraxılmadığını iddia etmiş, bununla bağlı müvafiq tədbirlərin görülməsini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (Seçki Məcəlləsi) 112-ci və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələblərinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən nəzərdən keçirilmiş, bu barədə müvafiq rəy verilmiş və Mərkəzi Seçki Komissiyasının iclasında baxılmışdır.

Seçki Məcəlləsinin 112-1.12-ci maddəsinə əsasən şikayət aidiyyət qaydalarının pozulması ilə daxil olmuşdursa, onda həmin müraciətin aidiyyəti üzrə göndərilməsinə dair qərar qəbul edilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1, 2, 4, 6, 7 və 8-ci bəndlərinə əsasən **qərara alır:**

1. 2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 97 saylı Goranboy-Ağdam-Tərtər seçki dairəsindən Sarov bələdiyyəsi üzrə qeydə alınmış namizəd Nuruyev Emin Məhərrəm oğlunun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 25 dekabr 2019-cu il tarixli 19 saylı müraciəti aidiyyəti üzrə araşdırılması üçün həmin seçki dairəsinin dairə seçki komissiyasına göndərilsin.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*26.12.2019*

---

**Qərar № 23/114**

### 2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 25 dekabr 2019-cu il tarixli 20 saylı müraciətə baxılmasına dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində Lerik rayonu Bürsülüm kənd sakinləri Əliyev Təyyar Tərlan oğlu və digərləri 2019-cu il dekabrın 25-də teleqramla Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) müraciət edərək 78 saylı Lerik seçki dairəsi üzrə Bürsülüm bələdiyyəsinə keçirilmiş seçkilərdə həmin seçki dairəsinin 75, 76 və 77 saylı seçki məntəqələrində səsvermə günü seçki saxtakarlığa yol verdiyini iddia etmiş, həmin seçki məntəqələri üzrə nəticələrin ləğv edilməsini xahiş etmişlər.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (Seçki Məcəlləsi) 112-ci və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələblərinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən nəzərdən keçirilmiş, bu barədə müvafiq rəy verilmiş və Mərkəzi Seçki Komissiyasının iclasında baxılmışdır.

Seçki Məcəlləsinin 112-1.12-ci maddəsinə əsasən şikayət aidiyyət qaydalarının pozulması ilə daxil olmuşdursa, onda həmin müraciətin aidiyyəti üzrə göndərilməsinə dair qərar qəbul edilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1, 2, 4, 6, 7 və 8-ci bəndlərinə əsasən **qərara alır:**

1. 2019-cu il dekabrın 23-də keçirimiş bələdiyyə seçkilərində Lerik rayonu Bürsülüm kənd sakini Əliyev Təyyar Tərlan oğlu və digərlərinin Mərkəzi Seçki Komissiyasına daxil olmuş 25 dekabr 2019-cu il tarixli 20 saylı müraciəti aidiyyəti üzrə araşdırılması üçün 78 saylı Lerik seçki dairəsinin dairə seçki komissiyasına göndərilsin.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*26.12.2019*

---

**Qərar № 23/115**

### 2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 26 dekabr 2019-cu il tarixli 12 saylı müraciətə baxılmasına dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 82 saylı Ağcabədi seçki dairəsinin Aşağı Qiyamadınlı kəndindən seçici Balayev Adışirin Cavad oğlu 25 dekabr 2019-cu il tarixdə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) teleqramla müraciət edərək Aşağı Qiyamadınlı kənd bələdiyyəsi üzrə 82 saylı Ağcabədi seçki dairəsinin 26 saylı seçki məntəqəsində qanun pozuntularına yol verildiyini iddia etmiş, həmin seçki məntəqəsi üzrə nəticələrin ləğv edilməsini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (Seçki Məcəlləsi) 112-ci və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələblərinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən nəzərdən keçirilmiş, bu barədə müvafiq rəy verilmiş və Mərkəzi Seçki Komissiyasının iclasında baxılmışdır.

Seçki Məcəlləsinin 112-1.12-ci maddəsinə əsasən şikayət aidiyyət qaydalarının pozulması ilə daxil olmuşdursa, onda həmin müraciətin aidiyyəti üzrə göndərilməsinə dair qərar qəbul edilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1, 2, 4, 6, 7 və 8-ci bəndlərinə əsasən **qərara alır:**

1. 2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində Ağcabədi rayonu Aşağı Qiyamadınlı kənd sakini Balayev Adışirin Cavad oğlunun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 25 dekabr 2019-cu il tarixli 12 saylı müraciəti aidiyyəti üzrə araşdırılması üçün 82 saylı Ağcabədi seçki dairəsinin dairə seçki komissiyasına göndərilsin.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*26.12.2019*

---

**Qərar № 23/116**

### 2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 26 dekabr 2019-cu il tarixli 19 saylı müraciətə baxılmasına dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 79 saylı İmişli seçki dairəsinin Yuxarı Qaralar kəndindən bələdiyyə üzvlüyünə namizəd Həsənov Şəmil Zamin oğlu 25 dekabr 2019-cu il tarixdə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) teleqramla müraciət edərək Yuxarı Qaralar bələdiyyəsi üzrə 79 saylı İmişli seçki dairəsinin 27, 28 və 29 saylı seçki məntəqələrində qanun pozuntularına yol verildiyini iddia etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (Seçki Məcəlləsi) 112-ci və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələblərinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən nəzərdən keçirilmiş, bu barədə müvafiq rəy verilmiş və Mərkəzi Seçki Komissiyasının iclasında baxılmışdır.

Seçki Məcəlləsinin 112-1.12-ci maddəsinə əsasən şikayət aidiyyət qaydalarının pozulması ilə daxil olmuşdursa, onda həmin müraciətin aidiyyəti üzrə göndərilməsinə dair qərar qəbul edilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1, 2, 4, 6, 7 və 8-ci bəndlərinə əsasən **qərara alır:**

1. 2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 79 saylı İmişli seçki dairəsinin Yuxarı Qaralar kəndindən bələdiyyə üzvlüyünə namizəd Həsənov Şəmil Zamin oğlunun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 25 dekabr 2019-cu il tarixli 19 saylı müraciəti araşdırılması üçün aidiyyəti üzrə həmin seçki dairəsinin dairə seçki komissiyasına göndərilsin.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*26.12.2019*

---

**Qərar № 23/117**

### 2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 26 dekabr 2019-cu il tarixli 13 saylı müraciətə baxılmasına dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 107 saylı Qazax seçki dairəsindən Birinci Şıxlı bələdiyyəsi üzvlüyünə namizəd Məmmədov Telman Nizaməddin oğlu 25 dekabr 2019-cu ildə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) teleqramla müraciət edərək 107 saylı Qazax seçki dairəsinin Birinci Şıxlı bələdiyyəsi üzrə 25 və 26 saylı seçki məntəqələrində səsvermənin nəticələrinə dair yekun protokollarında səs saylarının düzgün göstərilməməsini iddia edərək nəticələrə yenidən baxılmasını xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (Seçki Məcəlləsi) 112-ci və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələblərinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən nəzərdən keçirilmiş, bu barədə müvafiq rəy verilmiş və Mərkəzi Seçki Komissiyasının iclasında baxılmışdır.

Seçki Məcəlləsinin 112-1.12-ci maddəsinə əsasən şikayət aidiyyət qaydalarının pozulması ilə daxil olmuşdursa, onda həmin müraciətin aidiyyəti üzrə göndərilməsinə dair qərar qəbul edilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1, 2, 4, 6, 7 və 8-ci bəndlərinə əsasən **qərara alır:**

1. 2019-cu il dekabrın 23-də keçirilən bələdiyyə seçkilərində 107 saylı Qazax seçki dairəsindən Birinci Şıxlı bələdiyyəsi üzvlüyünə namizəd Məmmədov Telman Nizaməddin oğlunun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 25 dekabr 2019-cu il tarixli 13 saylı müraciəti araşdırılması üçün aidiyyəti üzrə həmin seçki dairəsinin dairə seçki komissiyasına göndərilsin.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*26.12.2019*

# Qarabağ münaqişəsinin həlli yalnız beynəlxalq hüquqa əsaslanmalıdır

Əvvəli 1-ci səh.

Rəsmi Bakı hələ də hesab edir ki, Dağlıq Qarabağ münaqişəsinin dinc vasitələrlə həlli ən optimal tənzimləmə yolu olaraq qalmalıdır. Dövlət rəhbərliyi işğalçı ölkəni təcrid etməyə yönəlik siyasətini uğurla davam etdirməklə bərabər, ölkəmizin ərazi bütövlüyünə beynəlxalq dəstəyi təmin edir, eyni zamanda işğalçı tərəflə müxtəlif səviyyələrdə danışıqlar aparır. Beynəlxalq təşkilatlarda Ermənistanın təcavüzkar siyasətinin ifşa edilməsi də diplomatiyamızın diqqət mərkəzindədir.

Münaqişənin tənzimlənməsi naminə uzun illərdir davam edən danışıqların gedişində hələ ki, irəliləyiş yoxdur. ATƏT-in Minsk qrupu timsalında beynəlxalq vasitəçilər hadisələrin gedişini yalnız müşahidə etməklə kifayətlənir, beynəlxalq hüquq normalarına uyğun hansısa təşəbbüs irəli sürmək və işğalçı ölkəni sülhə məcbur etmək barədə düşünmürlər. Belə olan halda təcavüzkar daha da azğınlaşır, zəbt etdiyi əraziləri ilhaq etmək niyyətində oduğunu açıq-aşkar biruzə verir. Ermənistanın baş naziri Nikol Paşinyanın “Qarabağ Ermənistandır və nöqtə” bəyanatı rəsmi Yerevanın münaqişəni nizama salmaqda maraqlı olmadığına dəlalət edir.

Düşmənin ifrat səviyyəyə çatmış sırtıqlığı, təbii ki, cavabsız qalmazdı. Prezident İlham Əliyev cari ilin oktyabrında Rusiyaya işgüzar səfəri çərçivəsində Soçi şəhərində “Valday” beynəlxalq diskussiya klubunun XVI illik iclasının plenar sessiyasında çıxış edərkən Azərbaycan tərəfinin münaqişənin tənzimlənməsinə dəyişməz baxışını bir daha nəzərə çarpdırmışdır: Dağlıq Qarabağ münaqişəsi Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, BMT-nin Nizamnaməsi, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri və Helsinki Yekun Aktı çərçivəsində həll olunmalıdır! Dövlət başçısı Ermənistandakı hakim rejimin problemi həll etmək əvəzinə qondarma məfhumlar icad etməsinə kəskin reaksiya vermişdir: “Ermənistanın baş naziri son vaxtlar tez-tez təkrarlayır ki, münaqişənin həlli Azərbaycan xalqı, Ermənistan xalqı və Dağlıq Qarabağ xalqı üçün məqbul olmalıdır. İndi deməliyəm ki, “Dağlıq Qarabağ xalqı” məfhumu mövcud deyil. Dağlıq Qarabağın əhalisi var, münaqişə başlayana qədər bu, bərabər hüquqlara malik olan Azərbaycan və erməni əhalisindən ibarət idi. Azərbaycan üçün hansı həll variantının məqbul olmasına gəldikdə isə, o, Azərbaycanın bütün dünya tərəfindən tanınmış ərazi bütövlüyünün bərpa olunması, qaçqınların və məcburi köçkünlərin öz doğma torpaqlarına, o cümlədən Dağlıq Qarabağa qayıtmasından ibarətdir”.

Dövlət başçısı Ermənistanın işğal olunmuş torpaqlarımızı ilhaq etmək planına da toxunmuşdur: “Ermənistan baş nazirinin təəccüb doğuran bəyanatına toxunmaq istərdim. Bu bəyanat təkcə Azərbaycanda təəccüblə qarşılanmayıb, ona Rusiya Federasiyası tərəfindən də “Valday” forumu çərçivəsində müvafiq cavab verilib. Beləliklə, bəyanat sözbəsöz belədir: “Qarabağ Ermənistandır və nöqtə”. Birincisi, bu, yumşaq desək, yalandır. Dünya tərəfindən həm Aran,



həm də Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsi kimi tanınıb. Ermənistanın özü də bu qanunsuz qurumu tanımır. Qarabağ tarixi, əzəli Azərbaycan torpağıdır. Beləliklə, Qarabağ Azərbaycandır və nida işarəsi”.

Güclü havadarlarının qoltuğunda özünü cəzasız hiss edən Ermənistan rejiminin həyasızlığı o həddə çatıb ki, bu ölkədə dünyanın rədd etdiyi nasizm təbliğatı rəvac tapır. Üstəlik, erməni diasporu bir sıra ölkələrdə, xüsusilə Rusiyada nasist əlaltılarını qəhrəmanlaşdırmaq üçün dəridən-qabıqdan çıxır. Söhbət Ermənistan rəhbərliyinin və diasporun insanlığa qarşı saysız-hesabsız cinayətlər törətmiş Njde ləqəbli cinayətkar general Qaregin Yegişeviç Ter-Arutyunyanı təmizə çıxarmaq cəhdindən gedir. Hərçənd Njdenin nifrətamiz fəaliyyəti hamıya, elə ermənilərin özlərinə də məlumdur. Erməni millətçilik ideologiyasının banisi olan bu “qəhrəman” müxtəlif millətlərdən olan günahsız insanları qanına qəltan etməkdə ad çıxarmışdır. Njdenin rəhbərlik etdiyi erməni faşistləri İkinci Dünya müharibəsi illərində Ukrayna və Polşada, hitlerçilərin əsir düşərgələrində on minlərlə adamı qətlə yetirmiş, nasist ideologiyasının hədəf götürdüyü millətlərin nümayəndələrinə qarşı dəhşətli cinayətlər törətmişlər.

Rusiya Federasiyasının Müdafiə naziri Sergey Şoyqunun sədrliyi ilə Müdafiə Nazirliyinin baş redaksiya heyəti tərəfindən nəşr edilmiş “1941-1945-ci illər Böyük Vətən müharibəsi” ensiklopediyasında qeyd olunur ki, Njde müharibə dövründə Bolqarıstan ərazisində 30-dan çox erməni agentini səfərbər etmişdi. O, agentləri təxribat əməlləri törətmək məqsədilə sovet ordusunun arxasına göndərmişdi. Njde 1944-cü ildə Bolqarıstan ərazisinə daxil olan sovet qoşunlarının əlinə keçmişdir. Qaniçən erməni faşisti törətdiyi cinayətlərə görə həbs olunub 25 il müddətinə azadlıqdan məhrum edilmişdir. Sonralar erməni millətçilərinin ona bəraət almaq cəhdləri rədd edilmiş və “qəhrəman” 1955-ci ildə Rusiyanın Vladimir şəhərindəki həbsxanasında ölmüşdür.

Ermənistan rejimi isə Njde kimi qaniçənə xüsusi diqqət yetirir. Yerevanda meydanların birinə və metro stansiyasına onun adı verilmişdir. “Njdeizm” adı altında irqçilik ideologiyası Ermənistanda orta və ali məktəb proqramlarına daxil edilmişdir və gənc nəsil bu ruhda tərbiyə olunur. 2016-cı ildə Yerevanda Ermənistanın ovaxtkı prezidenti Serj Sarkisyanın iştirakı ilə Njdenin heykəli açılmışdır. Rusiyadakı erməni icması hər il Njdenin Vladimirdəki qəbrini nümayişkaranə şəkildə ziyarət edir, erməni faşistini yad edir. Bu azmış kimi, 2012-ci ildə Rusiyanın Krasnodar diyarının Armavir şəhərində erməni kilsəsinin ərazisində Njdenin xatirə lövhəsi qoyulmuşdu. Şəhər ictimaiyyəti uzun sürən səylərdən sonra bu yaxınlarda Njdenin xatirə lövhəsinin sökülməsinə nail olmuşdur. Amma faşist əlaltısının Yerevandakı heykəli hələ də yerində qalır.

Rusiya rəsmiləri Yerevanda Njdeyə heykəl qoyulmasını Ermənistanın daxili işi hesab edirlər, halbuki nasistlərin qəhrəmanlaşdırılması beynəlxalq birliyi ciddi narahat edən məsələlərdəndir. 2015-ci ilin martında BMT Baş Assambleyası “Nasizmin qəhrəmanlaşdırılması, irqçilik, irqi ayrı-seçkilik, ksenofobiya və onunla bağlı olan dözümsüzlüyün təşviqinə xidmət edən neonasizm və onun digər növlərinə qarşı mübarizə” adlı qətnamə qəbul etmişdir. Özü də Rusiyanın təşəbbüsü ilə. Ona görə də rəsmi Moskvanın Yerevanda Njde kimi nasist quyruğuna heykəl ucaldılmasına münasibəti ən azı təəccüb doğurur.

Belə bir vəziyyətə Azərbaycan rəhbərliyinin müdaxilə etməsi lazım gəlmişdir. Prezident İlham Əliyev oktyabrın 11-də Türkmənistanın paytaxtı Aşqabadda MDB Dövlət Başçıları Şurasının iclası zamanı çıxış edərkən Ermənistanda nasizmin qəhrəmanlaşdırıldığını nəzərə çarpdırmış, MDB məkanında faşistlərin məşhurlaşdırılmasına yer olmadığını vurğulamışdır. Dövlət başçısı faşist əlaltısı Njdenin insanlığa qarşı törətdiyi cinayətlər barədə bir sıra faktları sadalayaraq qeyd etmişdir ki, “Ermənistanda əvvəlki hakimiyyət Yerevanın mərkəzində faşist cəlladı və satqın, Qaregin Njde ləqəbi ilə alman faşistlərinə xidmət etmiş Qaregin Ter-Arutyunyana heykəl qoyub. MDB ölkələrindən olan müharibə veteranlarının böyük bir qrupu Ermənistanın əvvəlki rəhbərliyinin bu həyasız addımına qarşı dəfələrlə etirazını bildirib. Təəssüf ki, Ermənistanın yeni hakimiyyəti bu heykəli götürməyib. Hesab edirəm ki, MDB məkanında faşizmin qəhrəmanlıq kimi qələmə verilməsinə yer yoxdur”.

MDB-nin Aşqabad sammitində iştirak edən Ermənistanın baş naziri Nikol Paşinyan cəllad Njdeni təmizə çıxarmağa cəhd göstərmiş, erməni faşistini repressiya qurbanı kimi təqdim etmişdi. Cənab İlham Əliyev Ermənistan liderinin səsləndirdiyi cəfəng fikirlərə sərt reaksiya vermişdir: “Nasist əlaltıları və cinayətkarları ilə repressiyaya məruz qalmış dustaqları müqayisə etmək qətiyyən yolverilməzdir... Buna görə də hesab edirəm ki, özünü demokratik seçilmiş təqdim edən yeni hakimiyyət ilk növbədə bu ləkədən, bu rüsvayçılıqdan təmizlənməli və həmin heykəli sökməlidir”.

Göründüyü kimi, təcavüzkar ölkə həyasızlıqda hədd-hüdud tanımır. Belə bir şəraitdə Ermənistanda hökmranlıq edən “demokratik” rejimdən münaqişənin tənzimlənməsinə sağlam yanaşma gözləmək çətin görünür. Ona görə də təcavüzkarın qızmış başını mütəmadi olaraq soyutmaq lazım gəlir. Azərbaycan əsgəri elə bu cür də hərəkət edir. Ordumuz 2016-cı ildə Aprel döyüşləri zamanı düşmənə həddini göstərmişdir. Düşmənə 2018-ci ilin mayında daha bir cəza verilmişdir. Silahlı Qüvvələrimiz Naxçıvan Muxtar Respublikasının 11 min hektardan artıq ərazisini və Şərur rayonunun Günnüt kəndini düşməndən azad edərək dövlət sərhədi boyunca əlverişli mövqeləri nəzarət altına almışdır.

Bu cür addımların atılması ilə təcavüzkar nəhayət başa düşməlidir ki, problemi həll etməyin başqa bir yolu da var: hər bir müstəqil dövlət kimi Azərbaycanın da suverenliyini və ərazi bütövlüyünü bütün mümkün vasitələrlə bərpa etmək hüququ var. Prezident İlham Əliyevin vurğuladığı kimi, “Bizim ən böyük kompromisimiz sülh danışıqlarına sadiq qalmağımızdır. Lakin biz bu imkanlardan istifadə etməklə yeni şərait yaratmalıyıq. Hərbi potensialın möhkəmləndirilməsi avtomatik olaraq müharibənin yenidən başlanmasına gətirib çıxarmır. Bu, ən son variantdır. Biz buna hazır olmalıyıq. Hər bir ölkə, o cümlədən müharibə vəziyyətində olan, ərazisi işğal edilmiş ölkə buna hazır olmalıdır”.

***Allahverdi MEHDİYEV,***
***“Azərbaycan”***

# İlham Əliyev Azərbaycanı dünyanın idman paytaxtına çevirib

Əvvəli 1-ci səh.

*Məhz mənəvi dəyərlərimizə bağlı və böyük intellektual potensiala malik olan gənclər bizim gələcəyimizi, müstəqil Azərbaycanın uğurlu gələcəyini təmin edəcəklər”.*

2019-cu ildə ölkəmizdə təşkil edilən nüfuzlu turnirlər sırasında “Formula-1” yarışlarını da xüsusilə qeyd etmək lazımdır. Yüz milyonlarla izləyici kütləsinə malik olan “Formula-1” Azərbaycan Qranprisinin həyəcanı sayca 4-cü dəfə Azərbaycanda yaşandı. Planetin bir nömrəli avtomobil yarışında sürət həvəskarları dünyanın ən məşhur pilotları Luis Hamiltonun, Maks Ferstappenin və digərlərinin Bakı Şəhər Halqasında gərgin və maraqlı mübarizəsinin şahidi oldular. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, Azərbaycan dövlətinin yüksək təşkilatçılığı və dəstəyi ilə dördüncü dəfə baş tutan bu yarış dünyanın böyük marağına səbəb oldu: *“Formula-1” yarışına gəldikdə, deyə bilərəm ki, bu yarışın ölkəmiz üçün çox böyük faydası var. Birincisi, “Formula-1” yarışını keçirən şəhərlər inkişaf etmiş ölkələrin ya paytaxt şəhərləri, ya da ki, böyük şəhərləridir. Onların arasında Bakı şəhərinin mövcudluğu bizim üçün böyük hadisədir. İkincisi, “Formula-1” yarışı ölkəmizə böyük iqtisadi dividendlər gətirir, necə ki, bütün başqa şəhərlərə. Əgər kimsə deyirsə, bu, bizə ziyan vurur, o ya bilmir, ya da ki, qəsdən işləri təhrif etmək istəyir. Əgər, bu, bizə ziyan vurursa, onda yaxşı, bizimlə bərabər bu yarışı keçirən 20-yə yaxın şəhərə də ziyan vurur, onlar da ziyana işləyirlər? Əlbəttə ki, yox. “Formula-1” yarışının multiplikativ effekti çox böyükdür. Xaricdən gələn minlərlə qonaq burada pul xərcləyir. Bunun iqtisadi cəhətdən çox böyük səmərəsi var. Birinci “Formula-1”-dən sonra Azərbaycana kütləvi turist axını başlamışdır. Mən bu tarixləri dəqiq xatırlayıram. Çünki hər ay, yaxud da ki, hər rüb mənə turistlərin gəlişi ilə bağlı məlumat verilib. Beləliklə, birinci yarış keçiriləndən sonra turistlərin sayı 24 faiz artmışdır. Ondan sonrakı il daha 22 faiz, ondan sonrakı il isə daha 5 faiz. Nəhayət, bu il artıq on bir ayda 11 faiz artmışdır. Tarixdə ilk dəfədir ki, Azərbaycana 3 milyondan çox turist səfər etmişdir”.*

Dünya ictimaiyyətinin qəlbini möhtəşəm idman tədbirlərinə ən yüksək səviyyədə evsahibliyilə fəth etməyi bacaran Azərbaycan hazırda bu sahədə beynəlxalq arenada ən güclü rəqib ölkələrdən biri adını daşımaqdadır. Bu il UEFA Avropa Liqasının və Çempionlar Liqasının final oyunları ilə bağlı Bakı və Madriddə baş tutan görüşlər futbolun vətəni sayılan Avropaya və bütün dünyaya indi çox fərqli reallıqları göstərməkdədir.

Bunlar ondan ibarətdir ki, Azərbaycan yüz milyonlarla insanı özünə ecazkar surətdə bağlayan futbol kimi kütləvi oyunların təşkilində çoxdan liderlərlə eyni cərgədə addımlaya bilir və bir çox hallarda onları geridə qoymağı da bacarır. Özü də bunu biz yox, Bakı və Madriddə final matçlarını izləyən on minlərlə azarkeş, idman mütəxəssisləri deyir. Dünyanın futbol ictimaiyyəti açıq bəyan etmişdi ki, Bakı final qarşılaşmasının təşkili baxımından nəinki Madridə meydan oxudu, hətta onu böyük fərqlə keçə bildi. Dövlət başçısı bununla bağlı qeyd edib: *“Bu il Bakıda daha bir əlamətdar idman yarışı keçirilib. Futbol üzrə Avropa Liqasının final oyunu ilk dəfə olaraq Azərbaycanda, Bakı Olimpiya Stadionunda keçirilibdir. Bütün təşkilati məsələlər ən yüksək səviyyədə öz həllini tapıb, bunu da mən xüsusilə qeyd etmək istəyirəm. Çünki minlərlə xarici tamaşaçı, xarici qonaq gəlmişdir. Minlərlə qonağın bir gün, iki gün ərzində gəlməsi əlbəttə ki, bizim üçün müəyyən problemlər yarada bilərdi, ictimai nəqliyyatla, təhlükəsizliklə bağlı. Həmçinin hava limanında təyyarələrin, o cümlədən çarter təyyarələrin enişi ilə bağlı müəyyən problemlər ola bilərdi. Ancaq bütün müvafiq qurumlar, Təşkilat Komitəsi çox səmərəli işləyiblər. Ümumi rəyə əsasən, təşkilati məsələlərə görə Bakı Avroliqa final yarışı nümunə kimi göstərilir. Mən indi başqa şəhərlərdə buna oxşar yarışların keçirilməsi ilə bağlı bir söz demək istəmirəm, ancaq bizə gələn məlumata görə, hətta Çempionlar Liqasının final oyunları bəzi şəhərlərdə bu səviyyədə keçirilmir. Bizdə olan nizam-intizam, qayda-qanun, təşkilati məsələlər, könüllülərin fəaliyyəti, bütün aidiyyəti qurumların birgə fəaliyyəti bunu təmin edibdir”.*

Prezident İlham Əliyevin ümummilli inkişafa xidmət edən siyasi xəttinin konturları həm də idmanın infrastrukturunun möhkəmləndirilməsi, müasirləşdirilməsi və idmanın inkişafını şərtləndirən digər tədbirlərlə müşayiət olunur. Bütövlükdə cəmiyyətdə idmançılara müsbət münasibət və böyük hörmət var. Bu gün paytaxtda və bölgələrdə müasir standartlara cavab verən 45 olimpiya idman mərkəzinin fəaliyyət göstərməsi gənclərə, yeniyetmələrə, eyni zamanda, idmançılara yaradılan şəraitin parlaq nümunəsidir.

Prezident İlham Əliyevin dediyi kimi, iki idman mərkəzi açılışa hazırdır və daha iki mərkəzin tikintisi davam etdirilir, ancaq kənd yerlərində də buna xüsusi şərait yaradılmalıdır: *“... Hazırda bizim ancaq bölgələrdə 45 Olimpiya İdman Mərkəzimiz var. Bu il bir mərkəz Beyləqan şəhərində mənim iştirakımla açılıbdır. İki Olimpiya İdman Mərkəzi açılışa hazırdır - Yardımlı və Tərtər rayonlarında. İki Olimpiya Mərkəzinin tikintisi davam etdirilir - Goranboy və Neftçala şəhərlərində. Yevlax şəhərində Olimpiya Mərkəzinin layihələndirmə işləri başa çatıb və əminəm ki, yaxın zamanlarda onun inşası başlanacaq. Beləliklə, biz demək olar ki, hər bir rayonda müasir idman kompleksi istifadəyə verərək idmançılar üçün şərait yaratdıq... İndi bizim böyük şəhərlərdə idman komplekslərimiz var, ancaq kənd yerində bu, yoxdur. Düzdür, bəzi kəndlər şəhərlərə yaxın yerləşir və orada yaşayan uşaqlar, yeniyetmələr idman komplekslərinə gedə bilirlər. Ancaq bəzi ucqar kəndlər var. Ona görə kənd idmanının inkişafı üçün xüsusi proqram tərtib edilməlidir, buna diqqət verilməlidir. Ucqar kəndlərdə yaşayan uşaqlar bəzi hallarda bilmirlər nə ilə məşğul olsunlar. Orada o bölgəyə uyğun olan formada idman qurğuları tikilməlidir, yarışlar keçirilməlidir, rayon yarışları. Nə üçün bizdə rayon yarışları keçirilmir? Hesab edirəm ki, bu, böyük boşluqdur, böyük qüsurdur. Rayon idman yarışları keçirilsin. Bu həm idmanın inkişafına xeyir verər, həm də idmanın kütləviliyini təmin edər. Ona görə idmanla məşğul olan bütün qurumlara mənim tapşırığım bundan ibarətdir”.*

Şübhə yoxdur ki, idman ölkəmizdə gələcəkdə daha da inkişaf edəcək və idmançılarımız Azərbaycana yeni-yeni uğurlar qazandıracaq. Çünki dövlət başçısı İlham Əliyevin ölkədə bədən tərbiyəsi və idmanın inkişafı sahəsində gördüyü genişmiqyaslı tədbirlər Azərbaycanı dünyaya idman ənənələri olan ölkə kimi də tanıtdırıb. Bu istiqamətdə görülən işlərin daha da genişləndirilməsi uğurlarımızı artırmaqdadır.

***Elçin CƏFƏROV,***
***“Azərbaycan”***

**Qərar № 23/118**

## 2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 25 dekabr 2019-cu il tarixli 14 saylı müraciətə baxılmasına dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 81 saylı Beyləqan seçki dairəsindən Şəfəq bələdiyyəsi üzrə qeydə alınmış namizəd Balakişiyev Tural Salman oğlu 25 dekabr 2019-cu il tarixdə Mərkəzi Seçki Komissiyasına teleqramla müraciət edərək səsvermə günü həmin dairənin 10 saylı seçki məntəqəsində seçkilərin düzgün aparılmadığını, vətəndaşların seçki hüquqlarının pozulduğunu iddia etmiş və seçkilərin yenidən keçirilməsini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (Seçki Məcəlləsi) 112-ci və 112-1-ci maddələrinə və “Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat”ın tələblərinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən nəzərdən keçirilmiş, bu barədə müvafiq rəy verilmiş və Mərkəzi Seçki Komissiyasının iclasında baxılmışdır.

Seçki Məcəlləsinin 112-1.12-ci maddəsinə əsasən şikayət aidiyyət qaydalarının pozulması ilə daxil olmuşdursa, onda həmin müraciətin aidiyyəti üzrə göndərilməsinə dair qərar qəbul edilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və “Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat”ın 1, 2, 4, 6, 7 və 8-ci bəndlərinə əsasən **qərara alır:**

1. 2019-cu il dekabrın 23-də keçirilən bələdiyyə seçkilərində 81 saylı Beyləqan seçki dairəsindən Şəfəq bələdiyyəsi üzrə qeydə alınmış namizəd Balakişiyev Tural Salman oğlunun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 25 dekabr 2019-cu il tarixli 14 saylı müraciəti aidiyyəti üzrə araşdırılması üçün həmin seçki dairəsinin dairə seçki komissiyasına göndərilsin.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*26.12.2019*

**Qərar № 23/119**

## 2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 25 dekabr 2019-cu il tarixli 16 saylı müraciətə baxılmasına dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 80 saylı İmişli-Beyləqan seçki dairəsindən Qaralar bələdiyyəsi üzrə qeydə alınmış namizədlər Xəlilov Qabil İnşallah oğlu və Hümbətov Mehman Adış oğlu 25 dekabr 2019-cu il tarixdə Mərkəzi Seçki Komissiyasına ərizə ilə müraciət edərək səsvermə günü Cavadxanlı kəndində 14 saylı seçki məntəqəsində seçkinin düzgün aparılmadığını iddia etmiş, vətəndaşların seçki hüquqlarının pozulduğunu bildirmiş, seçkilərin yenidən keçirilməsini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (Seçki Məcəlləsi) 112-ci və 112-1-ci maddələrinə və “Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat”ın tələblərinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən nəzərdən keçirilmiş, bu barədə müvafiq rəy verilmiş və Mərkəzi Seçki Komissiyasının iclasında baxılmışdır.

Seçki Məcəlləsinin 112-1.12-ci maddəsinə əsasən şikayət aidiyyət qaydalarının pozulması ilə daxil olmuşdursa, onda həmin müraciətin aidiyyəti üzrə göndərilməsinə dair qərar qəbul edilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və “Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat”ın 1, 2, 4, 6, 7 və 8-ci bəndlərinə əsasən qərara alır:

1. 2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 80 saylı İmişli-Beyləqan seçki dairəsindən Qaralar bələdiyyəsi üzrə qeydə alınmış namizədlər Xəlilov Qabil İnşallah oğlu və Hümbətov Mehman Adış oğlunun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 25 dekabr 2019-cu il tarixli 16 saylı müraciəti aidiyyəti üzrə araşdırılması üçün həmin seçki dairəsinin dairə seçki komissiyasına göndərilsin.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*26.12.2019*

**Qərar № 23/120**

## 2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 25 dekabr 2019-cu il tarixli 17 saylı müraciətə baxılmasına dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 79 saylı İmişli seçki dairəsindən Yalavac bələdiyyəsi üzrə qeydə alınmış namizədlər Məmmədov Hümbət Qoçu oğlu və Cəfərov Habil Əkbər oğlu 25 dekabr 2019-cu ildə teleqramla Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) müraciət edərək adı çəkilən seçki dairəsinin 40 və 41 saylı seçki məntəqələri məntəqə seçki komissiyaları tərəfindən qeydə alınmış namizədlərə və müşahidəçilərə səsvermənin nəticələri haqqında məntəqə seçki komissiyası protokolunun surətinin verilməsindən imtina etdiklərini, habelə həmin seçki məntəqələrində seçkilərin nəticələrinin saxtalaşdırıldığını iddia etmiş, bununla bağlı qanunauyğun tədbirlərin görülməsini xahiş etmişlər.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (Seçki Məcəlləsi) 112-ci və 112-1-ci maddələrinə və “Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat”ın tələblərinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən nəzərdən keçirilmiş, bu barədə müvafiq rəy verilmiş və Mərkəzi Seçki Komissiyasının iclasında baxılmışdır.

Həmin məcəllənin 112-1.12-ci maddəsinə görə müraciət aidiyyət qaydalarının pozulması ilə daxil olmuşdursa, onda həmin müraciətin aidiyyəti üzrə göndərilməsinə dair qərar qəbul edilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və “Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat”ın 1, 2, 4, 6, 7 və 8-ci bəndlərinə əsasən **qərara alır:**

1. 79 saylı İmişli seçki dairəsindən Yalavac bələdiyyəsi üzrə qeydə alınmış namizədlər Məmmədov Hümbət Qoçu oğlu və Cəfərov Habil Əkbər oğlunun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 25 dekabr 2019-cu il tarixli 17 saylı müraciət aidiyyəti üzrə araşdırılması üçün həmin seçki dairəsinin dairə seçki komissiyasına göndərilsin.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*26.12.2019*

**Qərar № 23/121**

## 2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 24 dekabr 2019-cu il tarixli 18 saylı müraciətə baxılmasına dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində Şahmarov Əbülfət Ataş oğlu 67 saylı Cəlilabad şəhər seçki dairəsində seçkilərin nəticələrinin saxtalaşdırılmasına dair 25 dekabr 2019-cu ildə teleqramla Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) müraciət edərək həmin seçki dairəsinin 14 saylı seçki məntəqəsində saxtakarlığa yol verildiyini iddia etmiş, bununla bağlı müvafiq tədbirlərin görülməsini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (Seçki Məcəlləsi) 112-ci və 112-1-ci maddələrinə və “Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat”ın tələblərinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən nəzərdən keçirilmiş, bu barədə müvafiq rəy verilmiş və Mərkəzi Seçki Komissiyasının iclasında baxılmışdır.

Seçki Məcəlləsinin 112-1.12-ci maddəsinə əsasən şikayət aidiyyət qaydalarının pozulması ilə daxil olmuşdursa, onda həmin müraciətin aidiyyəti üzrə göndərilməsinə dair qərar qəbul edilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və “Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat”ın 1, 2, 4, 6, 7 və 8-ci bəndlərinə əsasən **qərara alır:**

1. Şahmarov Əbülfət Ataş oğlunun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 24 dekabr 2019-cu il tarixli 17 saylı müraciəti araşdırılması üçün aidiyyəti üzrə 67 saylı Cəlilabad şəhər seçki dairəsinin dairə seçki komissiyasına göndərilsin.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*26.12.2019*

# Türkiyənin Ticarət naziri Ulu Öndər Heydər Əliyevin məzarını və Şəhidlər xiyabanını ziyarət edib





Ölkəmizdə səfərdə olan Türkiyənin Ticarət naziri Ruhsar Pekcanın rəhbərlik etdiyi nümayəndə heyəti dekabrın 26-da Fəxri xiyabanda xalqımızın Ümummilli Lideri, müasir müstəqil dövlətimizin memarı və qurucusu Heydər Əliyevin xatirəsini yad edib, məzarı önünə əklil qoyub.

AZƏRTAC xəbər verir ki, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər güllər düzülüb.

Sonra Şəhidlər xiyabanına gedən türkiyəli nazir ölkəmizin azadlığı və suverenliyi uğrunda mübarizədə canlarından keçmiş qəhrəman vətən övladlarının xatirəsini yad edib, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyub.

# İqtisadiyyat naziri Türkiyə nümayəndə heyəti ilə görüşüb

## Azərbaycan-Türkiyə işgüzar görüşü keçirilib

Dekabrın 26-da İqtisadiyyat naziri Mikayıl Cabbarov ölkəmizdə səfərdə olan Türkiyənin Ticarət naziri Ruhsar Pekcanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.



AZƏRTAC xəbər verir ki, görüşdə M.Cabbarov hər iki ölkənin dövlət başçılarının səmimi münasibətlərinin Azərbaycan-Türkiyə əməkdaşlığının inkişafını şərtləndirən əsas amillərdən olduğunu və qarşılıqlı hörmətə, dostluğa, qardaşlığa əsaslanan əlaqələrimizin yüksələn xətlə inkişaf etdiyini vurğulayıb. Nazir qeyd edib ki, Türkiyə və Azərbaycan region və dünya üçün böyük əhəmiyyət daşıyan enerji və nəqliyyat layihələrini uğurla həyata keçirir. O, Azərbaycanda həyata keçirilən davamlı islahatlar, əlverişli biznes və investisiya mühiti barədə qonaqlara ətraflı məlumat verib, iqtisadi-ticarət əməkdaşlığının genişləndirilməsi istiqamətlərini diqqətə çatdırıb.



Azərbaycana səfərindən məmnunluğunu ifadə edən Türkiyənin Ticarət naziri R.Pekcan iki ölkə arasında əlaqələrin yüksək səviyyədə olduğunu vurğulayıb və iqtisadi əməkdaşlığın inkişafı perspektivləri barədə fikirlərini bölüşüb. O, ölkəsinin Azərbaycanla qarşılıqlı ticarət dövriyyəsinin artırılmasında maraqlı olduğunu, Naxçıvan Muxtar Respublikasında Türkiyənin ticarət müşavirinin fəaliyyətə başlamasının ticarət əlaqələrinin genişlənməsinə töhfə verəcəyini bildirib.



Görüşdə, həmçinin iqtisadiyyatın müxtəlif sahələrində, o cümlədən ticarət, nəqliyyat-tranzit, gömrük, turizm, təhsil və digər sahələrdə əməkdaşlığın inkişafı, nou-hauya əsaslanan bilik mübadiləsinin həyata keçirilməsi və qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə edilib.

Həmin gün İqtisadiyyat Nazirliyinin dəstəyi, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) təşkilatçılığı ilə Azərbaycan-Türkiyə işgüzar görüşü keçirilib. Tədbirdə hər iki tərəfdən rəsmi şəxslərlə yanaşı, sənaye, kənd təsərrüfatı, nəqliyyat, tikinti, ticarət, turizm və digər sahələrdə fəaliyyət göstərən iş adamları iştirak ediblər.

Tədbirdə çıxış edən İqtisadiyyat naziri M.Cabbarov diqqətə çatdırıb ki, işgüzar görüşdə iki ölkənin müxtəlif sahələrdə fəaliyyət göstərən iş adamlarının təmsil olunması qarşılıqlı əməkdaşlığa böyük marağı ifadə edir. Prezident İlham Əliyevin qardaş Türkiyə ilə iqtisadi-ticarət əlaqələrinə böyük önəm verdiyini vurğulayan nazir iki ölkə arasında ticarət dövriyyəsinin 15 milyard dollara çatdırılmasının hədəf kimi müəyyənləşdirildiyini diqqətə çatdırıb. Bildirilib ki, ölkələrimiz arasında ticarət dövriyyəsinin artırılması üçün böyük imkanlar var və bu istiqamətdə tədbirlər davam etdirilir.

İkitərəfli əməkdaşlıqda ticarət sahəsinin əhəmiyyətini vurğulayan İqtisadiyyat naziri qeyd edib ki, Azərbaycan və Türkiyə arasında ticarət dövriyyəsinin artım tendensiyası davam edir. Bununla yanaşı, həyata keçirilən tədbirlər ticarət dövriyyəsinin daha da artmasına, strukturunun şaxələndirilməsinə geniş imkanlar yaradacaq. İki qardaş ölkə arasında iqtisadiyyatın bir çox sahələrində, o cümlədən investisiya, enerji, sənaye, nəqliyyat, İKT, kənd təsərrüfatı, ticarət, təhsil və sair sahələrdə əməkdaşlıq imkanlarının geniş olduğunu diqqətə çatdıran M.Cabbarov iş adamlarını bu imkanlardan yararlanmağa dəvət edib.

Bildirilib ki, 2020-ci ilin fevralında Azərbaycan və Türkiyə iş adamlarının iştirakı ilə ölkəmizin sərmayə imkanlarının təqdimatının keçirilməsi nəzərdə tutulur ki, bu da ticarət əlaqələrinin inkişafında önəmli rol oynayacaq.

Türkiyənin Ticarət naziri R.Pekcan iqtisadi-ticarət tərəfdaşlığının inkişafı üçün geniş potensial olduğunu vurğulayıb, bugünkü görüşün, aparılan müzakirələrin biznes dairələri arasında əlaqələrin genişləndirilməsində əhəmiyyətini qeyd edib. Türkiyəli nazir sahibkarları daha fəal əməkdaşlığa, qarşılıqlı sərmayə qoyuluşlarını artırmağa dəvət edib.

Görüşdə iştirak edən Türkiyənin Xarici İqtisadi Əlaqələr Qurumunun (DEİK) sədri Nail Olpak ölkələrimiz arasında iqtisadi əlaqələrin inkişafı perspektivləri barədə fikirlərini bölüşüb.

Tədbir çərçivəsində sahibkarlar biznes əməkdaşlığının genişləndirilməsi məsələlərini müzakirə ediblər.

# Şəhid ailələrinə və Qarabağ müharibəsi əlillərinə daha 36 mənzil təqdim edilib

Dekabrın 26-da Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Bakının Qaradağ rayonunda və Abşeron rayonunun Məmmədli kəndində yeni yaşayış binalarından alınmış 36 mənzil şəhid ailələrinə və ölkəmizin ərazi bütövlüyünün, müstəqilliyinin və Konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi olan vətəndaşlara təqdim edilib.

AZƏRTAC xəbər verir ki, Abşeron rayonunda mənzillərin təqdim edilməsi tədbirində Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini Anar Kərimov Prezident İlham Əliyevin sosial cəhətdən həssas qruplardan olan vətəndaşlara xüsusi qayğısı nəticəsində həmin vətəndaşların sosial müdafiəsi tədbirlərinin ildən-ilə gücləndirildiyini vurğulayıb. Bildirib ki, ölkəmizin ərazi bütövlüyünün, müstəqilliyinin və Konstitusiya quruluşunun müdafiəsi uğrunda döyüşlərdə şəhid olmuş insanların ailələrinin, bu döyüşlərdə əlil olmuş şəxslərin mənzillə təminatı proqramı da uğurla davam etdirilir.

Nazir müavini qeyd edib ki, ötən il bu kateqoriyadan olan vətəndaşlara nəzərdə tutulduğundan 3 dəfə çox olmaqla 626 mənzil verilmişdisə, 2019-cu ildə bundan 50 faizədək çox olmaqla 934 mənzil və fərdi ev verilməsi nəzərdə tutulub, onlardan artıq böyük əksəriyyəti təqdim edilib. Ümumilikdə indiyədək nazirlik tərəfindən şəhid ailələrinə və müharibə əlillərinə verilən mənzil və fərdi evlərin sayı artıq 7400-ə yaxındır.

A.Kərimov, eyni zamanda, bu il nazirlik tərəfindən 600 avtomobilin ölkəmizin ərazi bütövlüyünün, müstəqilliyinin və Konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlil olmuş vətəndaşlara verildiyini, qeyd olunan vətəndaşların indiyədək 6573 minik avtomobili ilə təmin edildiklərini deyib.



Nazirlik tərəfindən Abşeron rayonunda mənzillə təmin olunan şəhid ailələrindən biri də Azərbaycanın Milli Qəhrəmanı Cavanşir Rəhimovun ailəsidir. Milli Qəhrəmanın ailəsinə üçotaqlı mənzil təqdim edilib.

Yeni mənzillərlə təmin olunan şəhid ailələri və müharibə əlilləri onların rifah halının yaxşılaşdırılmasına göstərilən yüksək qayğıya, müasir tələblərə cavab verən yeni mənzillərlə təmin edildiklərinə görə Prezident İlham Əliyevə dərin minnətdarlıqlarını ifadə ediblər.

# Azərbaycan gəncliyi gələcəyin etibarlı təminatçısıdır

*Gənclik bir millətin yaşaması, inkişafı üçün təməl daşıdır. Gənclik güc-qüvvə, enerji deməkdir. Gənclik ümiddir, inamdır!*
*Hər bir xalq özünün xoşbəxt gələcəyə olan ümidlərini, ilk növbədə, gənc nəsillə bağlayır. Ona görə də bir millətin, dövlətin mövcudluğu, inkişafı və yaşamı üçün onun sağlam gəncliyinin olması vacib şərtdir.*



Bu gün müstəqil Azərbaycanda gənclərin cəmiyyətin aparıcı qüvvəyə çevrilməsi və sağlam gəncliyin yetişdirilməsi istiqamətində davamlı olaraq uğurlu dövlət siyasəti həyata keçirilir. Sağlam gəncliyin yetişdirilməsi dövlətin qarşısında duran əsas vəzifələrdən biridir. Bu məqsədlə həm qanunvericilik bazası təkmilləşdirilir, həm də davamlı islahatlar həyata keçirilir.

Bütün bunların nəticəsidir ki, Azərbaycan gəncliyi ictimai həyatın bütün bölmələrində aktiv fəaliyyəti ilə seçilir, siyasi, iqtisadi, humantiar, sosial tədbirlərin həyata keçirilməsində mühüm rol oynayır. Son illərdə bilavasitə gənclərlə bağlı xeyli sayda normativ sənədin qəbul olunması ölkəmizdə gənclərlə iş sahəsində, gənclərin sosial-iqtisadi inkişafına yönəldilmiş mükəmməl qanunvericilik bazasının formalaşdırılmasından xəbər verir.

Əgər diqqət etsək görərik ki, dünyada elmi yeniliklər, informasiya və kommunikasiya texnologiyalarının sürətli inkişafı və qloballaşma prosesləri gənclərin həyat və düşüncə tərzinə də ciddi təsir göstərir. Elmin, texnologiyanın sürətli inkişafı Azərbaycan dövlətinin də gənclərlə bağlı zamanın tələblərinə uyğun siyasət yürütməsini zəruri edib. Azərbaycan Prezidenti cənab İlham Əliyevin sərəncamları ilə təsdiq edilən "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası" və "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramı məhz gənclərin intellektual, fiziki və mənəvi inkişafını, ölkənin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında fəal iştirakını təmin edir. Bununla yanaşı, Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun yaradılması və bu fondun həyata keçirdiyi layihələr, gənclər evləri şəbəkəsinin fəaliyyəti, Azərbaycan Tələbə Kartının ərsəyə gəlməsi, bilikli, peşəkar, istedadlı gənclərin dəstəklənməsi üçün Prezident mükafatının təsis edilməsi, təqaüdlərin artırılması bir daha dövlət başçısının ölkə gəncliyinə göstərdiyi qayğının bariz təcəssümüdür.

Elə bu il dövlət başçısının imzaladığı sərəncamlar gəncliyimizin flaqmanı, gələcək cəmiyyətin aparıcı qüvvəsini təşkil edəcək tələbə və doktorantları da əhatə etdi, onların diqqətdən kənarda qalmamaları dövlət qayğısının nümunəsi oldu. Prezidentin fərman və sərəncamları ilə ali təhsil müəssisələrində təhsil alan tələbələrin təqaüdü, Prezident təqaüdü, doktorantlara, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrində təhsil alan tələbələrə verilən təqaüdlər artırıldı.

Məhz bu proseslər fonunda ölkədə gənclərin sərbəst fəaliyyəti, liderlik və özünü ifadə etmə prinsipi əsasında gələcək karyeraları üçün ən yaxşı imkanlar yaradılıb. Yeni mərhələdə isə dövlət başçısı tərəfindən gerçəkləşdirilən gənclər siyasəti ən müxtəlif sahələri əhatə etməklə geniş spektrlidir.

Prezident İlham Əliyevin gənclərə xitabən: *"Mənim gənclərə xüsusi münasibətim var, mənim ürəyim sizinlədir. Siz bütün işlərdə mənə arxalana bilərsiniz. Mən də sizə arxalanıram"* deməsi Azərbaycan gəncliyinə olan böyük inamı bir daha nümayiş etdirir.

Ölkəmizdə gənclərin məşğulluğunun təmin olunması da diqqət mərkəzində saxlanılır. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu tərəfindən gənclərin istedad və bacarıqlarının üzə çıxarılması istiqamətində həyata keçirilən layihələr yetişməkdə olan nəslin gələcəyinin etibarlı təminatçısına çevrilib. Həmçinin Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın təşəbbüsü ilə xaricdə və ölkəmizdə reallaşan layihələr Azərbaycanın uğurlarının təbliğində, gənclərimizin fəallığının artırılmasında və onların fəaliyyətlərinin əlaqələndirilməsində mühüm rol oynayır.

Bundan əlavə olaraq gənclərin aparıcı qüvvəyə çevrilməsi istiqamətində müxtəlif qrant layihələri həyata keçirilir. Bunun nəticəsidir ki, Azərbaycanda hazırda 130-dan artıq gənclər təşkilatları fəaliyyət göstərir. Bu siyasət artıq öz bəhrəsini verməkdədir.

Davamlı olaraq gənclərə dəstək olan Prezident İlham Əliyevin hər il fevralın 2-də Gənclər Günü münasibətilə ölkə gəncləri ilə görüşü, heç vaxt unutmayacağımız tövsiyələri biz gənclərə stimil verir.

Ölkə Prezidentinin həyata keçirdiyi siyasət Azərbaycan gəncliyinə milli-dini dözümlülük, sülhsevərlik, humanizm kimi ali dəyərlər aşılayır. Gənclərin sağlamlığının qorunması və möhkəmləndirilməsi qayğısına qalınır, sağlam həyat tərzi təbliğ edilir. Gənc alim və tədqiqatçıların fəaliyyəti dəstəklənir, gənclər elmə həvəsləndirilir. Onların bilik və bacarıqlarının inkişafına kömək göstərilir. Müxtəlif startap ideyalarına malik gənclərin sahibkarlıq və məşğulluq imkanlarının artırılmasına meydan verilir.

Bütün bu amillər biz tələbələri gələcəyə böyük inamla baxmağı sövq edir. Dövlət başçısının gənclərə hərtərəfli dəstəyi tələbələri daha da ruhlandırır və bizlər yüksək səviyyədə təhsil alır, vətənpərvər ruhda yetişir və şəraitdən asılı olmayaraq hər zaman vətənin müdafiəsinə hazır oluruq. Dövlət başçısı da vurğulamışdır ki, bilikli, savadlı, vətənə bağlı müasir gənclik Azərbaycanın dayanıqlı uğurunun təminatçısıdır. Gənclər biliklərlə yanaşı, vətənə bağlı olmalıdırlar, vətəni və dövlət maraqlarını hər şeydən üstün tutmalıdırlar.

Təhsil aldığım Azərbaycan Diplomatik Akademiyası da tələbələrdə biliyin, savadın, peşəkarlığın və intellektin artmasında, vətənpərvərlik ruhunun daha da yüksəlməsində, eləcə də onların gələcək həyatında əvəzsiz rol oynayır. ADA-nın Hüquq fakültəsinin tələbəsi olaraq deyə bilərəm ki, universitetimiz bizə gələcəyimizi sağlam təməllər əsasında qurmaqda daim yol göstərir. Məhz bu dəstək nəticəsində bizim elmə olan marağımız gündən-günə artır. Yeri gəlmişkən qeyd edim ki, bu ilin sentyabr ayında universitetimizdə "ADA Hüquq Cəmiyyəti" tələbə təşkilatı təsis etmişik. Cəmiyyət tələbələrin hüququn müxtəlif sahələri barədə biliklərini artırmaq və onların tələbə həyatına öz töhfəsini vermək üçün müxtəlif tədbirlər təşkil edir. Həmin tədbirlər sırasına müxtəlif yerli və xarici hüquqşünasların seminarları, hüquqi debatlar, akademik ekskursiyalar və məhkəmə simulyasiyaları daxildir.

Bu gün dünyanın nüfuzlu universitetləri qloballaşmanın tələblərinə uyğun olaraq islahatlar aparır, modernləşməyə doğru kurs götürür. Tələbələrə hərtərəfli diqqət və qayğı göstərilir, gənclərin elm və təhsil sahəsində fəal iştirakının təmin olunması, beynəlxalq aləmdə tanınan və qəbul edilən nailiyyətlər əldə etməsi üçün bütün şərait yaradılır.

Universitetin missiyası qlobal perspektivli gələcək liderlər və məsuliyyətli vətəndaşlar formalaşdırmaq, interaktiv üsul və tələbəyə xüsusi yanaşma tətbiq etməklə komanda işi, analitik və kritik düşüncə, təşəbbüskarlıq və sair bu kimi keyfiyyətləri tələbələrdə davamlı şəkildə inkişaf etdirmək, təhsildə elm və tədqiqatın yüksəlməsinə şərait yaratmaqdır. Əminliklə deyə bilərəm ki, yüksək ixtisaslı mütəxəssislər hazırlayan, ölkəmizin daim yüksələn xətlə inkişafına dəyərli töhfələr verən ADA bundan sonra da öz missiyasını uğurla həyata keçirəcək.

Artıq 2019-cu ili də uğurla başa vurmaqdayıq. Ötən bir il ərzində ölkəmizin həyatında baş verən mühüm hadisələrə nəzər yetirsək görərik ki, bu il Azərbaycan gəncliyinin özünəinam hissini, daha həvəslə oxumaq, əzmlə çalışmaq bacarığını artıran il oldu. Çünki Prezident İlham Əliyevin həyata keçirdiyi kadr islahatları və hər zaman inandığı, güvəndiyi gəncləri yüksək vəzifələrə təyin etməsi ölkənin avanqard qüvvəsi kimi biz gəncləri çox ruhlandırdı.

Bu gün ölkəmizdə gənc, yetənəkli, müasir düşüncəli gənclərə üsünlük verilir, onlar qanunvericilik və yerli özünüidarəetmə orqanlarında daha geniş formada təmsil olunurlar. Dövlət başçısı gənc peşəkar kadrlara özlərini göstərmələri üçün real imkanlar yaradır. Bu gün sosial həyatın bütün sferalarına nəzər salsaq, orada gənclərin əksəriyyət təşkil etdiyinin şahidi olarıq. Əlbəttə, bunlar Prezident İlham Əliyevin gənc kadrların irəli çəkilməsi ilə bağlı qarşıya qoyduğu vəzifənin reallaşmasının nəticəsidir.

Həyata keçirdiyi kadr islahatlarını dəyərləndirərkən dövlət başçısı demişdir ki, *"təcrübə qazanmış kadrlar daha da səmərəli öz işlərini qururlar, eyni zamanda, gənclərə də böyük meydan verilir. Bu, təbiidir, çünki gələcəkdə ölkəmizi bugünkü gənclər idarə edəcəklər. Onlar gərək həm təcrübə toplasınlar, peşəkar olsunlar, eyni zamanda, vətənə bağlı olsunlar. Ona görə gənclərə vətənpərvərlik hissləri aşılamaq hər birimizin borcudur ki, onlar gələcəkdə vətənə bağlı olsunlar və hər hansı bir xarici təsirdən azad olsunlar"*.

Göründüyü kimi, ölkə rəhbəri kadr siyasəti barədə mühafizəkar təfəkkürü aradan qaldırır və gənc nəslə şans verir, onlar üçün fəaliyyət meydanı yaradır. Prezident hər zaman güvəndiyi gənclər ordusuna etibar edir. Yüksək savad və qabiliyyətə malik gənc kadrlara mühüm dövlət vəzifələri həvalə olunur. Gənclərin önə çəkilməsi, müxtəlif layihələrə cəlb olunması dövlət başçısının hökumət və özəl qurumlara da əsas tövsiyələrindəndir. Dövlət başçısı deyir ki, gənclərin həm potensialı, həm fəallığı, həm də məsələlərə yeni baxışları cəmiyyət üçün çox lazımdır.

*Bu gün müstəqil Azərbaycan Prezidenti cənab İlham Əliyevin liderliyi ilə özünün ən yüksək inkişaf dövrünü yaşayır. Bu dövrdə gənclərin potensial kadr kimi yüksək vəzifələrə təyin edilməsi biz tələbələrə gələcəyə nikbinliklə baxmağa, ölkəmizin uğurlu inkişafına töhfə vermək istiqamətində daha mükəmməl biliyə yiyələnməyimiz üçün stimul verir. Formalaşan milli düşüncə biz gəncləri xoş əməllərə, Azərbaycanın qüdrətini daha da gücləndirmək yolunda dövlət başçısının gördüyü işlərə yaxından dəstək verməyə çağırır.*

***Ayxan DADAŞOV,***
***ADA Universitetinin Hüquq fakültəsinin 2-ci kurs tələbəsi, Prezident təqaüdçüsü***

# İlahiyyat İnstitutunda tələbə seminarı təşkil olunub

Azərbaycan İlahiyyat İnstitutunda (AİI) ali təhsil müəssisəsinin II kurs tələbəsi Fərid Qasımzadənin təqdimatında "Tələbələrin inkişafında hədəf və məsuliyyətin önəmi" mövzusunda seminar təşkil olunub.



AİI rektoru Ceyhun Məmmədov seminarda çıxış edərək bildirib ki, belə tədbirlərin təşkil olunması istedadlı və bacarıqlı tələbələrin üzə çıxarılması, onların bilik səviyyələrinin, bacarıq imkanlarının nümayiş etdirilməsi baxımından xüsusi əhəmiyyət daşıyır. Rektor qeyd edib ki, AİI-nin belə layihələri təşkil etməkdə məqsədi tələbələrin elmi fəaliyyətə marağını artırmaq, bu yöndə onların fəallığına nail olmaq və tələbə mərkəzli təhsil müəssisəsi yaratmaqdır.

İnstitut rəhbəri bu tipli seminarların tələbələrin nitq mədəniyyətinin formalaşdırılmasında, ictimai əhəmiyyətli fikirlərinin zənginləşdirilməsində xüsusi rol oynadığını vurğulayıb. İnstitutda müxtəlif mövzularda seminarlar, "dəyirmi masa"lar, treninqlər və görüşlər keçirilməsində məqsəd gənclərin dünyagörüşünün, intellektual səviyyəsinin, mənəvi dünyasının zənginləşdirilməsi, elmi axtarışlara sövq edilməsidir.

C.Məmmədov daha sonra ölkəmizdə gənclərə göstərilən diqqət və qayğıdan, etimaddan bəhs edib. AİI rektoru Ümummilli Lider Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin daim gənclərə dəstək olduğunu vurğulayıb.

AİI-nin II kurs tələbəsi Fərid Qasımzadə "Tələbələrin inkişafında hədəf və məsuliyyətin önəmi" mövzusunda məruzə edib. Həmyaşıdlarına müraciət edərək, məsuliyyətli olacaqları təqdirdə onların hədəfə də asan çatacaqlarını qeyd edib.

İslam dinində məsuliyyət anlayışından bəhs edən F.Qasımzadə daha sonra bildirib ki, insan nə qədər bilikli, məlumatlı, savadlı olarsa, lakin məsuliyyət hiss etməzsə, hədəfə çatmaqda çətinliklərlə rastlaşar. O vurğulayıb ki, təhsil, təcrübə və karyera yollarında irəliləmək üçün məsuliyyət hiss etməli və hədəf düzgün seçilməlidir.

Tədbir mövzu ətrafında müzakirələrlə davam edib.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***




# EKTİS-də 430 mindən artıq fermer qeydiyyatdan keçib

"İndiyədək pambığa görə fermerlərə yalnız məhsul subsidiyası verilirdi. 2020-ci ildən isə pambığa görə həm əkin, həm məhsul subsidiyası veriləcək. Yəni fermer hər hektardan orta hesabla 30 sentner məhsul götürərsə, dövlətdən 220 manat əkin subsidiyası, 300 manat isə məhsul subsidiyası alacaq. Pambıqçılığa dövlət dəstəyinin gücləndirilməsi bu sahənin inkişafını daha da təmin etmiş olacaq".

Bu fikirləri Kənd Təsərrüfatı nazirinin müavini İlham Quliyev Füzuli və Beyləqanda Elektron Kənd Təsərrüfatı İnformasiya Sisteminin (EKTİS) tətbiqi və payızlıq əkinlərin bəyan edilməsinə həsr olunmuş görüşlərdə deyib. Bildirilib ki, gələn ildən aqrar subsidiyaların elektron hökumət üzərindən verilməsi kənd təsərrüfatına dövlət dəstəyinin göstərilməsində şəffaflığı və ünvanlılığı daha da artıracaq: "Fermerlərimiz EKTİS-də qeydiyyatdan keçib, özlərinə şəxsi kabinet yaratmalıdır. Bundan sonra şəxsi kabinetinə daxil olaraq əkinlərini bəyan etməlidir. EKTİS-in tətbiqindən sonra artıq kağız sənəd dövriyyəsi aradan qalxmış olacaq. Fermer hər il əkinini elektron sistemdə bəyan etməklə subsidiya alacaq. Hazırda bəyan prosesi sürətlə davam edir, payızlıq əkini bəyan edən fermerlərimizin sayının sürətlə artması göstərir ki, vətəndaşlar yeni sistemin tətbiqini müsbət qarşılayırlar".

İ.Quliyevin sözlərinə görə, artıq 430 mindən artıq fermer EKTİS-də qeydiyyatdan keçərək özlərinə şəxsi kabinet yaradıblar: "Payızlıq əkinləri bəyan edən fermerlərin sayı isə 270 min nəfəri keçib. Bu rəqəm hər saat artır. Əkinlərin bəyan edilməsi prosesinin ən optimal vaxtda başa çatacağını gözləyirik. Prosesi sürətləndirmək üçün Dövlət Aqrar İnkişaf və "ASAN xidmət" mərkəzlərində xüsusi xidmət pəncərələri yaradılıb. Bundan əlavə, kəndlərdə səyyar xidmətlər həyata keçirilir, bölgələrdə maarifləndirmə işləri aparılır".

Nazir müavini Kənd Təsərrüfatı Nazirliyinin EKTİS-in tətbiqinə məsul qurumlarının rəhbərlərindən ibarət nümayəndə heyətinin 51 rayonda bu cür görüşlər keçirdiyini deyib: "Noyabrın 29-dan başlayaraq 51 rayonda görüşlər keçirmişik. Hesab edirəm ki, bölgələrə səfərlərimiz, fermerlərlə görüşlər EKTİS-in tətbiqi prosesini sürətləndirməyə kifayət qədər təsir göstərib".

# Heyvanların süni mayalandırılmasının daha səmərəli təşkili müzakirə olunub

Respublika Süni Mayalanma Mərkəzində Dövlət Toxum Fondunun təşkilatçılığı ilə qərb bölgəsində heyvandarlıq sahəsində prioritetlərin müəyyənləşdirilməsi, damazlıq-seleksiya işlərinin yaxşılaşdırılması, yerlərdə heyvanların süni mayalandırılmasının daha səmərəli təşkili məqsədilə görüş keçirilib.



Görüşdə Dövlət Toxum Fondunun sədr müavini Elton Əbdurəhmanov, fondun şöbə müdiri Mədinə Əliyeva, Kənd Təsərrüfatı Nazirliyinin şöbə müdiri Esmira Lətifova, Süni Mayalanma Mərkəzinin müdiri Ramiq Abbasov, Samux, Göygöl, Qazax, Ağstafa, Daşkəsən, Tovuz, Gədəbəy Dövlət Aqrar İnkişaf mərkəzlərinin nümayəndələri və mütəxəssislər iştirak ediblər.

Tədbirdə çıxış edən E.Lətifova əhalinin heyvandarlıq məhsulları ilə təminatının daha da yaxşılaşdırılması, yüksək məhsuldar genetik potensialı olan heyvanların baş sayının artırılması və bu sahəyə marağın gücləndirilməsi üçün həyata keçirilən tədbirlər barədə məlumat verib.

E.Əbdurəhmanov isə bildirib ki, fond ilə Süni Mayalanma Mərkəzinin birgə əməkdaşlığı çərçivəsində "ToxumArt" mağazalarında heyvan toxumlarının satışı təşkil olunub. Onun sözlərinə görə, süni mayalandırma üzrə mütəxəssislər "ToxumArt" mağazalarında toxumlarla yanaşı, süni mayalandırmada istifadə olunan digər zəruri ləvazimatları da əldə edə bilirlər.

Görüşdə qərb bölgəsində yerləşən rayonlarda süni mayalandırmada istifadə olunan zəruri ləvazimatların satış həcminin artırılması, satış strategiyası və digər tədbirlərin təşkili üçün müvafiq işlərin görülməsi mövzusunda müzakirələr aparılıb, mütəxəssislərin təklifləri qeydə alınıb.




# Arzudan arzu doğar

**İkitərəfli, dördzolaqlı rahat Ələt - Astara magistral yolu ilə cənuba doğru gedirik. Körpülər, keçidlər bir-bir arxada qalır. Bu rahat yol sərnişinləri paytaxtdan Azərbaycanın cənub qapısı sayılan Astaraya 2 saat yarıma çatdırır. Köhnə yolla bu məsafəni 5-6 saata qət etmək mümkün idi.**

Heydər Əliyevin sözüdür: "İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir". Bəli, təkcə cənubda deyil, ölkənin şimal, qərb istiqamətlərinə dünya standartları səviyyəsində çəkilən asfalt yollar, habelə kənd və qəsəbə yollarının yenidən qurulması sürətli inkişafın nəticəsidir. Bu inkişaf iqtisadiyyat, quruculuq, təhsil, səhiyyə, mədəniyyət, sosial həyat və digər sahələrin də ayrı-ayrı problemlərinin həllinə zəmin yaratdı.

2004-cü il fevral ayının 11-də Prezident İlham Əliyev tərəfindən regionların sosial-iqtisadi inkişafına dair I Dövlət Proqramı imzalandı. Beləliklə, respublikamızda yeni quruculuq işləri başlandı. Neftdən gələn gəlirlərin böyük bir hissəsi quruculuq işlərinə yönəldildi. Cənub bölgəsinin ən qədim və böyük rayonlarından olan Masallıda da yeni layihələrə start verildi. İllərlə üst-üstə qalanmış problemlər öz həllini tapdı, insanların həyat tərzi, güzəranı yaxşılaşdı.

Masallı şəhəri dağların ətəyində yerləşir. Şərq istiqamətindən şəhərə giriş Ulu Öndərin adını daşıyan Heydər Əliyev prospektindən başlayır. Rayon mərkəzinin digər - şimal tərəfdəki giriş və əks istiqamətdəki çıxışına - Seybətin dairəsinə kimi uzanan prospektin ətrafındakı abadlıq inkişafın, tərəqqinin nəticəsidir. İlk olaraq qürurla dalğalanan üçrəngli bayrağımız, habelə onun adına yaradılmış muzeylə rastlaşırsan. Sonra yeni tikilmiş ictimai binalar, yaşayış evləri, müasir tipli sosial obyektlər, ticarət şəbəkələri, yaşıllıqlar göz oxşayır. Olimpiya idman kompleksi, "ASAN xidmət", Dövlət Aqrar İnkişaf Mərkəzi, 100 mənzillik beşmərtəbəli yaşayış evi və digər onlarca tikililər də prospektə xüsusi bir görkəm verir.

Masallı Olimpiya İdman Kompleksi 2007-ci ildə istifadəyə verilib. 5 minə yaxın gənc və yeniyetmə burada idmanın müxtəlif növləri ilə məşğul olur. Onlardan Mircavad Nəbiyev bu il güləş üzrə yeniyetmələr arasında keçirilən Avropa Olimpiya Oyunlarında uğurla çıxış edərək 3-cü yeri tutmuşdur. Müxtəlif illərdə kompleksin yetirmələrindən Hikmət Abuşov cüdo üzrə Avropa və respublika çempionatında, Təbriz Hacızadə və Qoşqar Səfərli boks üzrə yarışlarda çempion olmuşlar. Sərbəst güləş üzrə Avropa və Dünya birinciliyinin iştirakçısı Sevinc Əhədova 2017-ci ildə Türkiyədə keçirilən "Zəfər" turnirində gümüş medal qazanmış, 2018-ci ildə Avropa çempionatında 5-ci yeri tutmuşdur.

Masallı Regional "ASAN xidmət" Mərkəzi 2016-cı ilin sentyabrından fəaliyyət göstərir. Ötən dövr ərzində Masallı, Lənkəran, Astara, Lerik, Cəlilabad, Yardımlı və Biləsuvar rayonlarından olan 644,3 min nəfərdən çox vətəndaşa xidmət göstərilmişdir.

Biləsuvar rayonunun Bağbanlar kənd sakini Eldar Qəhrəmanov deyir ki, təzə tikdirdiyi evə təbii qaz və su xətlərinin çəkilişi və həmin xidmətlərin mərkəzi orqanlarından texniki şərtlərin hazırlanması ilə əlaqədar "ASAN xidmət"ə müraciət edəndə bütün sənədləri qısa bir zamanda hazırlanmışdır. Cəlilabad rayonunun Muğan kənd sakini Çingiz Cəfərov "ASAN xidmət"də sürücülük vəsiqəsini çox qısa müddətdə dəyişdirmişdir.

Regionlardakı sənaye məhəllələri əhalinin bu və ya digər məhsullara olan tələbatının ödənilməsi, yeni iş yerlərinin açılması zərurətindən yaradılır. İndi belə məhəllələrin məhsulları xarici ölkələrin alıcıları tərəfindən də rəğbətlə qarşılanır. Masallı rayonu ərazisindəki sənaye məhəlləsi də mahiyyət etibarilə mühüm əhəmiyyət kəsb edir. Hazırda burada 10 sahibkar fəaliyyət göstərir və 50 nəfər işçi çalışır. Onlar 8 adda məhsul istehsalı ilə məşğuldurlar. Hər bir sexdə təbii qaz, isti və soyuq su olmaqla bütün lazımi şərait yaradılmışdır.

Masallıda regionların sosial-iqtisadi inkişafı dövlət proqramları çərçivəsində həyata keçirilən işlər bunlarla məhdudlaşmır. Yenidən qurulan Heydər Əliyev Mərkəzi, yaxınlığında orijinal üslubda ucaldılan Tarix-Diyarşünaslıq Muzeyi, Uşaq incəsənət məktəbi, əsaslı təmir edilən çoxmərtəbəli yaşayış evləri və s. şəhərin görkəminə xüsusi gözəllik verir. Parklardakı işıqlandırma sistemi şəhərin gecələrini nura qərq edir. Rayon mərkəzinin içməli su probleminin həll edilməsi, kanalizasiya sisteminin yenidən qurulması da əhali tərəfindən böyük rəğbətlə qarşılanır. Rayon Ağsaqqallar Şurasının sədri Ələşrəf Nuruyev deyir ki, Masallı heç vaxt belə abad, yaşayış üçün rahat olmamışdır: "Şəhərin su xəttinin daimi, kanalizasiya sisteminin yararlı olması insanların çoxdankı arzusu idi".

Rayonda aqrar sahənin inkişafı da diqqət mərkəzindədir. Dövlət başçısı İlham Əliyevin imzaladığı sərəncamlar, göstərdiyi diqqət və qayğı kənd təsərrüfatının inkişafı üçün geniş imkanlar açmışdır. Masallı rayonu üçün ənənəvi əkin sahələri, o cümlədən çəltik, çay, sitrus meyvələri, tərəvəz və digər bitkilər yetişdirilməsi genişləndirilmişdir. Belə ki, 2019-cu ildə 7 min 496 hektar buğda sahəsindən 17 min 492 ton, 2 min 786 hektar arpa sahəsindən 5 min 968 ton məhsul yığılmışdır. Bundan başqa, yazlıq əkinlərdən 305 hektar noxud, 105 hektar paxla, 70 hektar mərci, 66,5 hektar lərgə, 844,5 hektar kartof, 1747 hektar tərəvəz, 45,5 hektar günəbaxan, 22 hektar zəfəran, 217 hektar çəltik, 35 hektar tütün, 98,1 hektar yonca, 417 hektarda digər bitkilər əkilmişdir. Həmin sahələrdən də nəzərdə tutulduğundan xeyli çox məhsul əldə edilmişdir. Rayon ərazisində 21 hektar üzüm, 17 hektar feyxoa, 29 hektar müxtəlif növ meyvə bağları mövcuddur. Sığdaş kəndi ərazisində 0,5 hektar sahədə yeni narıngi, Güllütəpə ərazisində 3,2 hektar fındıq bağları salınmışdır.

Ənənəvi kənd təsərrüfatı sahələrinin inkişafı ön plana keçirilmişdir. Cari ildə 35 hektar tütün əkilmiş sahədən 785 min kiloqram yaş tütün yarpağı toplanmış və 54 min 800 kiloqram quru tütün yarpağı təhvil verilmişdir. Rayonda becərilən digər ənənəvi bitki çəltikdir. Onun əkildiyi sahələrin hər hektarından orta hesabla 36 sentner məhsul yığılmışdır. Digər ənənəvi sahə olan baramaçılıqda da nəticələr sevindiricidir. Cari ildə rayonda 125 qutu ipəkqurdu toxumundan 5 min 318 kiloqramdan çox yaş barama istehsal edilərək "Azər-İpək" ASC-yə təhvil verilmişdir.

Kənd Təsərrüfatı Nazirliyi yanında "Aqrar Kredit və İnkişaf Agentliyi"nin AMAL layihəsi çərçivəsində Ərkivan, Hişkədərə, Kolatan, Miyənkü, Tüklə və Sığdaş kəndləri ərazisində yeni çay plantasiyaları salınmışdır.

"Arzudan arzu doğur" deyiblər. Masallı rayonunun sakinləri də arzunun reallaşması, gerçəkləşməsi üçün zəhmət tələb olunduğunu yaxşı bilir və bunu əməli işdə sübut edirlər.

***Seyran CAVADOV, "Azərbaycan"***

# Azərbaycanda müasir südçülük kompleksi və qoyunçuluq təsərrüfatı yaradılır

Aqrar Elm və İnnovasiya Mərkəzinin Heyvandarlıq Elmi-Tədqiqat İnstitutunda "İribuynuzlu heyvandarlıqda baş sayının artırılmasında innovativ üsullar" mövzusunda elmi-praktiki konfrans keçirilib.

Konfransda Kənd Təsərrüfatı Nazirliyinin, Aqrar Elm və İnnovasiya Mərkəzinin, Azərbaycan Dövlət Aqrar Universitetinin, Dövlət Aqrar İnkişaf mərkəzlərinin (DAİM), yerli və beynəlxalq şirkətlərin, iri heyvandarlıq komplekslərinin, fermer təsərrüfatlarının nümayəndələri, o cümlədən fermerlər, zootexniklər və baytar həkimlər, aqrar sahədə təhsil alan tələbələr iştirak ediblər.

Əvvəlcə tədbirin keçirildiyi institutun direktoru Mahir Hacıyev başçılıq etdiyi qurumda aparılan işlər, yaradılan müasir laboratoriyalar və qarşıda duran hədəflərdən danışıb, heyvandarlığın mövcud problemləri fonunda keçirilən konfrans, seminar və təlimlərin əhəmiyyətini vurğulayıb. "Azərbaycanda ilk olaraq Heyvandarlıq Elmi-Tədqiqat İnstitutunun bazasında 100 başlıq tam müasir standartlara cavab verəcək südçülük kompleksi, 1000 başlıq isə qoyunçuluq təsərrüfatı tikilir. 2020-ci ilin sonunda bunlar təhvil veriləcək və yeni cinslərin seleksiyası istiqamətində işlər aparılacaq" deyə M.Hacıyev bildirib.

Aqrar Elm və İnnovasiya Mərkəzinin direktoru İmran Cümşüdov isə kənd təsərrüfatında mövcud qlobal problemlərdən söz açıb: "Mövcud təbii resurslarımıza qənaət etməliyik, səmərəli innovativ sistemlərə keçməliyik. Eyni zamanda, başqa ölkələrin qabaqcıl təcrübələrini ölkəmizə gətirərək onları tətbiq etməliyik. Bu gün aqrar elmin qarşısında duran əsas vəzifə budur. Elmi-tədqiqat mövzuları seçilərkən ilk növbədə qlobal meyillər, qlobal çağırışlar, tələblər, milli ehtiyaclar nəzərə alınmalıdır. Doğru tədqiqat işləri savadlı kadrların gərgin əməyi sayəsində mümkün ola bilər. Bu gün iribuynuzlu heyvandarlıqda baş sayının artırılması yalnız innovativ üsullarla mümkündür" deyə İ.Cümşüdov qeyd edib.

Kənd Təsərrüfatı Nazirliyinin Heyvandarlığın təşkili və monitorinqi şöbəsinin müdiri Esmira Lətifova heyvandarlıq sahəsindəki mövcud problemləri vurğulayıb: "Bir sıra işbazlar tərəfindən Ukrayna, Qazaxıstan və digər MDB ölkələrindən bizim yerli heyvanlardan az məhsuldar heyvanlar gətirilir və dövlət vəsaiti az məhsuldar heyvanlara sərf edilir. Biz bu vəsaiti başqa işlərə sərf edə bilərik. Bu gün damazlıq xarakterli əhəmiyyətli layihələrdən söhbət gedir, bu layihələri öz gücümüzə söykənərək ortaya qoya bilərik. Heyvanların cins tərkibinin yaxşılaşdırılmasında yeni innovativ xarici təcrübələrin tətbiqi vacibdir. Eyni zamanda, mövcud otlaq və örüş sahələrinin azalması damazlıq işinin daha təkmil formada təşkilini tələb edir. Bu məqsədə nail olmaqla gələcəkdə ixrac imkanları da yarana bilər".

Azərbaycan Dövlət Aqrar Universitetinin rektoru, professor İbrahim Cəfərov çıxışında aqrar sahə üzrə kadr hazırlığından, universitetdə tələbələr üçün yaradılan şərait, qurulan müasir tədris otaqları, laboratoriyalar, həyata keçirilən yerli və beynəlxalq layihələr, habelə mübadilə və təqaüd proqramlarından danışıb. O, kadr potensialının formalaşması üçün müəllimlərlə yanaşı, böyük şirkətlərin, eləcə də bu sahədə uğur qazanmış fermerlərin tələbələrlə mütəmadi görüşlər keçirmələrinin zəruriliyini vurğulayıb.

Konfransda həmçinin "Gilan Daily Farms" MMC Südçülük Kompleksinin rəhbəri Vüsal Abbasov "Cinsiyyəti təyin edilmiş toxumun Holşteyn-Friz cinsli düyələrdə istifadəsinin göstəriciləri" mövzusunda təqdimatla çıxış edib və iştirakçıları maraqlandıran sualları cavablandırıb, Türkiyənin Qars Qafqaz Universitetinin professorları Cihan Kaçar "İnəklərdə sabit zamanlı süni mayalanma prokolları" adlı məruzəsini, Yavuz Öztürkler isə "Südlük istiqamətli inəklərdə süni mayalanma müvəffəqiyyətini artıran strategiyalar" mövzusunda məruzə ilə çıxış ediblər.

Sonra Fransanın "EVOLUTION International" şirkəti idarə heyətinin sədri Siril Jos şirkətin fəaliyyət istiqamətləri və ona daxil olan kooperasiyaların işi haqqında məlumat verib, gələcəkdə iki ölkə arasında heyvandarlıq sahəsində əməkdaşlığın və təcrübə mübadiləsinin qurulacağını diqqətə çatdırıb.

# Aqrar sektor getdikcə daha çox gəlirli sahəyə çevrilir

**Ölkəmizdə qeyri-neft sektorunun inkişafı dövlət siyasətinin prioritet istiqamətlərindən olaraq qalır. Bu yöndə kənd təsərrüfatının inkişafı istiqamətində həyata keçirilən islahatlar müsbət nəticələr verir. Ölkə iqtisadiyyatında böyük pay sahibi olan kənd təsərrüfatının inkişafına göstərilən bu dövlət qayğısı nəticəsində regionlarda həm işsizlik aradan qaldırılır, həm də əhalinin sosial vəziyyəti yaxşılaşır.**



Ölkəmizdə aqrar sektorun inkişafında Qazax rayonunun da payı var. Rayonda boş qalmış torpaqların əkin dövriyyəsinə daxil edilməsi və bu zaman intensiv texnologiyalara üstünlük verilməsi sayəsində məhsul istehsalı nəzərəçarpacaq dərəcədə artmışdır. Bunu illər üzrə rəqəmlərdə də aydın görmək olar. Məsələn, əgər 2016-cı ildə rayon üzrə 16520,6 hektarda əkin aparılmışdısa, 2019-cu ildə həmin rəqəm 21476,3 hektara çatmışdır. 2020-ci ildə isə bu göstəricinin 21594 hektara çatdırılması nəzərdə tutulur.

Dövlət tərəfindən güzəştli qiymətlərlə gübrə, lazım olan texnika ilə təminat, eləcə də hər hektara görə subsidiyaların verilməsi sadə kənd adamlarında taxılçılığa marağı xeyli artırmışdır. Bunun nəticəsidir ki, əgər 2016-cı ildə rayonda 7820 hektar taxıl əkilmişdisə, cari il 12 min 555 hektarda taxıl yetişdirilmişdir. Əkilən taxılın 8 min 305 hektarı buğda, 4 min 250 hektarı arpa olmuşdur. Taxılçılar zəmilərdən 42 min 330 ton məhsul toplamışlar. Gələn il isə ümumilikdə 12600 hektar sahədə taxıl yetişdirilməsi nəzərdə tutulur.

Qazaxda baramaçılıq da sürətlə inkişaf edir. Artıq 4 ildir ki, rayonda barama istehsalı dinamik artır. Əgər rayon üzrə 2016-cı ildə 1502, 2017-ci ildə 4623, 2018-ci ildə 6260 kiloqram yaş barama istehsal olunmuşdusa, cari il bu sahədə daha böyük uğur qazanılmışdır. Belə ki, rayon kümçülərinin gərgin əməyi nəticəsində 7667,5 kiloqram yaş barama tədarük olunmuşdur.

Rayonda iqtisadi cəhətdən gəlirli sahələrdən olan tütünçülüyün inkişafı da diqqət mərkəzində saxlanılır. 2016-cı ildə cəmi 10 hektarda tütün əkən qazaxlılar 2017-ci ildə bu rəqəmi 50 hektara çatdırmışlar. Həyata keçirdikləri aqrotexniki tədbirlər nəticəsində tütünçülər 80 tondan çox məhsul götürmüşlər. 2018-ci idə isə tütünçülər əkin sahələrini daha 10 hektar genişləndirərək 60 hektara çatdırmışlar. Həmin il sahələrdən toplanmış 98 tona yaxın qurudulmuş tütün "İlham-M" MMC-yə təhvil verilmişdir. Cari ildə də tütünçülərin uğurları kiçik olmamışdır. Belə ki, rayonun Kəmərli, Qaymaqlı, Aslanbəyli, Birinci və İkinci Şıxlı, Yuxarı Salahlı, Orta Salahlı, Aşağı Salahlı, Kosalar, Cəfərli, Hüseynbəyli, Çaylı, Daş Salahlı, Dəmirçilər, Alpout və Fərəhli kəndlərində ümumilikdə 65 hektar tütün əkilmiş və emal müəssisələrinə 108,7 tondan çox qurudulmuş tütün təhvil verilmişdir.

Rayonda ənənəvi kənd təsərrüfatı sahələrindən olan kartofçuluğun inkişafına da qayğı göstərilir. Bu istiqamətdə həyata keçirilən tədbirlər sayəsində hər il sahələrdən bol məhsul götürülür. Təkcə son 3 ildə əkin sahələrinin həcmi 234 hektar artırılaraq 1320 hektara çatdırılmış və nəticədə 40 min ton kartof tədarük edilmişdir.

Təbiidir ki, bol su bol məhsul deməkdir. Bunu nəzərə alan rayon rəhbərliyi sözügedən istiqamətdə hər il tədbirlər həyata keçirir. Cari ildə də nəzərdə tutulan işlər vaxtında yerinə yetirilmişdir. Gələn il əkin sahələrinin vaxtında suvarılması üçün indidən təmizlik işlərinə başlanılmışdır.

***Sabir ƏLİYEV, "Azərbaycan"***

# Toxum və ting istehsalçılarına subsidiyanın verilməsi prosesi yekunlaşıb

Nazirlər Kabinetinin 25 iyun 2007-ci il tarixli qərarı ilə təsdiq edilmiş "Toxumçuluq və tinglik təsərrüfatlarından satılan 1-ci və 2-ci reproduksiyalı toxumlara və tinglərə görə dövlət büdcəsindən təsərrüfatlara subsidiyanın ödənilməsi barədə Qaydalar"a əsasən, toxum və ting istehsalçılarına sertifikatlı toxum və tingə görə subsidiyanın verilməsi prosesi sona çatıb.

Bununla əlaqədar Kənd Təsərrüfatı Nazirliyinin müvafiq əmri ilə yaradılmış Ekspert Şurasında rayon/şəhər komissiyalarından daxil olmuş müraciətlərə baxılıb. Ekspert Şurasının qərarı ilə taxıl toxumu (buğda, arpa) istehsalçılarına 6 milyon 83 min 744, kartof toxumu istehsalçılarına 920 min 550, yonca toxumu istehsalçılarına 161 min 265, meyvə tingi istehsalçılarına 88 min 800, qarğıdalı toxumu istehsalçılarına 48 min, noxud toxumu istehsalçılarına 16 min, çay tingi istehsalçılarına 70 min 755, tərəvəz toxumu istehsalçılarına 23 min 857, pambıq toxumu istehsalçılarına 12 min 132, ümumilikdə 7 milyon 425 min 103 manat vəsait ödənilməsi barədə qərar qəbul edilib.





# Mədəniyyət





● Teatr xadimləri

**Ulduz olmaq xəstəliyinə tutulanlar barəsində sənət xiridarları, hətta adi tamaşaçılar belə yetərincə haqlı tənqidi fikirlər səsləndiriblər. Zaman-zaman istedadı olmayan, lakin özünü "ulduz" görənlərin nə sənəti, nə də sənətkarlıqları yaddaşlara yazılıb. Çünki onlar ömürlərini sənət yolunda şam kimi əritməyiblər. Əriməyən şam isə nə şölə saçar, nə də ətrafına pərvanələr toplaşar.**




# Bir ocağın iki közü

## Xalq artistləri Ələsgər Şərifov və səsi "Bulaq"dan süzülən Məhluqə Sadıqova sənət yollarında əriyən şam ömrü yaşadılar

Haqqında söz açmaq istədiyimiz sənətkarlar isə sənət yollarında ömürlərini şam kimi əridib, damcı-damcı damızdırıblar sənətsevərlərin yaddaşına.

Azərbaycan teatrının tanınmış rejissorlarından biri haqqında söz açmaq istərkən ömür yolunda qarşımıza daha bir sevimli xalq sənətkarı çıxdı: Məhluqə Sadıqova. Onları xoşbəxt cütlük də adlandırıblar. Çünki Məhluqə xanım kimi xalq sevgisi qazanmış, Azərbaycan radiosunun "Bulaq" verilişi ilə səsi evlərə və könüllərə süzülən bir insanla ömür yolunu qoşa addımlamaq xoşbəxtlik idi...

### Teatr Texnikumunun ilk tələbələrindən biri

Qısa tanışlıq: Ələsgər Məmmədtağı oğlu Şərifov 25 dekabr 1909-cu ildə Şamaxıda dünyaya göz açıb. Altı yaşında ailəsi Bakıya köçüb və Ələsgər burada orta məktəbə gedib. Bakı teatrının ən görkəmli simalarından biri, aktyor və rejissor, təşkilatçı Abbasmirzə Şərifzadə Ələsgərin əmisi oğlu idi. Əlbəttə, onun qəlbində səhnə sənətinə maraq oyanmasında Abbasmirzə Şərifzadə mühüm rol oynayıb. Ələsgər Şərifov əvvəlcə texnikumda Elektromexanika fakültəsinin axşam şöbəsinə daxil olub. Eyni zamanda 1923-cü ildə açılan Teatr Texnikumunun ilk tələbələri sırasında təhsil alıb. O illərdə Mustafa Mərdanovun, Mirseyfəddin Kirmanşahlının rəhbərlik etdiyi klubda fəaliyyət göstərən dram dərnəyində istedadlı olduğunu təsdiqləyib. H.Cavidin "İblis", C.Cabbarlının "Aydın", "Sevil", "Oqtay Eloğlu", Şillerin "Qaçaqlar" və s. kimi məşhur tamaşaların baş rollarını oynayıb.

Akademik Dram Teatrında göstərilən tamaşalarda epizodik rollarda səhnəyə çıxan Ələsgər Şərifov 1926-cı ildə texnikumun buraxılış kursunda imtahanları vaxtından əvvəl verib Moskvaya ali təhsil almağa gedib. Təəssüf ki, həmin il orada oxumaq ona nəsib olmayıb. Bu arzusuna iki il sonra çatıb. Moskvada Teatr Sənəti İnstitutunda təhsil alıb.

Ali təhsilli rejissor kimi Bakıya qayıdan Ə.Şərifov Akademik Milli Dram Teatrının yaradıcı heyətinə qəbul olunub. Bir müddətdən sonra respublikamızın rayonlarında əhaliyə mədəni xidmətin səviyyəsini yüksəltmək məqsədilə Bakıda Kolxoz-sovxoz Teatrı yaradılıb və bədii rəhbərliyi Ələsgər Şərifova tapşırılıb. Gənc rejissor kimi... Üzeyir bəy Hacıbəylinin "Arşın mal alan", "O olmasın, bu olsun", Sabit Rəhmanın "Varlı gəlin", Cəfər Cabbarlının "Almaz", "Sevil", "Yaşar" pyeslərinə burada quruluşlar verib.

### Əsərlərinə quruluş verdiyi müəlliflər çox, repertuarı zəngin idi

Akademik Teatrda Rza Darablı, Rza Təhmasib, İsmayıl Hidayətzadə ilə birgə Hüseyn Cavidin "Şeyx Sənan" faciəsinə 1932-ci ildə rejissorluq edib müəyyən təcrübə toplayıb. Bundan iki il sonra Milli Dram Teatrına rejissor vəzifəsinə işə qəbul edilib. O, Qurban Musayevin "Qızıl çeşmə"sini 1935-ci ildə burada ilk müstəqil işi kimi səhnəyə qoyub. Teatrda çalışdığı illərdə onun rejissor kimi quruluş verdiyi tamaşalar xarakterinə görə müxtəlif olub. Klassik müəlliflərlə yanaşı, o, müasir ədəbi nəslin də yaradıcılığına diqqət ayırıb. Ona görə də dram əsərlərinə quruluş verdiyi müəlliflər çox, repertuarı da zəngin idi. Əbdürrəhim bəy Haqverdiyevin "Pəri cadu", İmran Qasımovun "Arzu", Məmmədhüseyn Təhmasibin "Bahar", "Aslan yatağı", Cəfər Cabbarlının "Oqtay Eloğlu", "Sevil", "Od gəlini", Abdulla Şaiqin "Nüşabə", Mirzə Fətəli Axundzadənin "Lənkəran xanının vəziri", Hüseyn Cavidin "Səyavuş" və s. tamaşalarına verdiyi quruluş böyük bir aktyor nəslinin yetişməsində mühüm əhəmiyyət daşıyıb.

Onun taleyinə sənət korifeyləri ilə birgə çalışmaq şərəfi də yazılıb. Uzun illər Milli Dram Teatrının baş rejissoru olmuş Adil İsgəndərovla birgə R.Rzanın "Vəfa", M.S.Ordubadinin "Dumanlı Təbriz", H.Cavidin "Şeyx Sənan", C.Məcnunbəyovun "İliç buxtası", Tofiq Kazımovla isə serb dramaturqu Branislav Nuşiçin "Nazirin xanımı" və s. əsərlərinə səhnə ömrü yaşadıb.

### Xoşbəxt ailənin sənət yanğısı

Rejissor kimi tanınan və tamaşaları sevilən Ələsgər Şərifov həm də film qəhrəmanı idi. O, "Səbuhi" filmində görkəmli Azərbaycan şairi Mirzə Şəfi Vazehin roluna çəkilib.

Ələsgər Şərifovun ömür-gün yoldaşı pespublikanın Xalq artisti, Azərbaycan radiosunun "Bulaq" folklor verilişindən sevilən Məhluqə xanım Sadıqova idi. Ceyhun, Yalçın və Natəvan adlı üç övladın bəxş olunduğu bu ailəni xoşbəxtlər sırasında görüblər. Bu ailədə dünyaya göz açan balalar da mədəniyyət və incəsənətə bağlılıqlarında ata-analarına bənzəyiblər. Ceyhun Şərifov bir neçə il AzTV-in idman şərhçisi kimi fəaliyyət göstərib. Bu həmin Ceyhundur ki, məşhur "Ögey ana" filmində İsmayılın dostu Dadaş obrazını məharətlə və yaddaqalan yaradıb.

1960-cı ildə Adil Babayevin "Cəfər Cabbarlı qəhrəmanları arasında" kompozisiyasının rejissorlarından biri də Ələsgər Şərifov olub. Teatr sənətində göstərdiyi xidmətlərinə görə o, 1943-cü ildə Azərbaycan Respublikasının Əməkdar, 1960-cı ildə isə Xalq artisti fəxri adlarına layiq görülüb.

Bu da bir ömür salnaməsinin sonuncu, final pərdəsi - 1982-ci il sentyabrın 9-u: Xalq artistinin ürəkdən-candan bağlandığı, ayrıla bilmədiyi səhnə və sevimli tamaşaçılarına vida nəğməsinin çalındığı, son mənzilə ünvanlı yolun başlandığı gün...

***Məhəmməd NƏRİMANOĞLU, "Azərbaycan"***

● Xeyriyyəçi qadınlarımız

**1914-cü ildə valideynlərini itirmiş uşaqlara, yoxsul ailələrə və qaçqınlara yardım məqsədilə Bakı Müsəlman Qadın Xeyriyyə Cəmiyyəti yaradıldı. Cəmiyyətin təsisçisi fəal maarifçi Rəhilə Hacıbababəyova idi. Bakı Müsəlman Qadın Xeyriyyə Cəmiyyətinin idarə heyətinin sədri M.S.Tağıyeva, sədrin müavini Rəhilə Hacıbababəyova, katibi Əminə Ağayeva, xəzinədarı Pəri Topçubaşova oldu.**

# Xeyirxahlıq...



Xeyriyyəçiliklə yanaşı, müsəlman qadınları arasında savadlılığı və maarifçiliyi yaymaq, şagirdlərə maddi yardım göstərmək cəmiyyətin başlıca məqsədinə çevrildi. Nizamnaməsi hakimiyyət orqanları tərəfindən təsdiq edildikdən sonra, 1914-cü il noyabrın 21-də Bakı Müsəlman Qadın Xeyriyyə Cəmiyyəti məşhur neft milyonçusu Murtuza Muxtarovun həyat yoldaşı Liza xanım Muxtarovanın (Tuqanova) sədrliyi ilə fəaliyyətini davam etdirdi.

Cəmiyyət tərəfindən tez-tez müxtəlif tədbirlər həyata keçirilir, xəstə və yaralı əsgərlər, yetim və yoxsul uşaqlar köməksiz buraxılmırdı. Bakı Müsəlman Qadın Xeyriyyə Cəmiyyəti Birinci Dünya müharibəsində əsir düşmüş yaralı türk əsgərlərinə də yardım göstərirdi.

### Qızların təhsilinə ana qayğısı

Həmin illərdə maarifçilik sahəsində məqsədyönlü işlərin həyata keçirilməsinə böyük ehtiyac duyulurdu. Məktəblərin sayı az idi. Savadsızlıq cəmiyyətdə ətalətin yaranmasına rəvac verirdi. Bu səbəbdən də oxumağa, savad almağa meyil göstərənlərin sayı çox deyildi. Oğlan uşaqlarının da məktəbə, təhsilə cəlb edilmədiyi bir dövrdə qız övladlarının maariflənməsinə xüsusilə laqeyd yanaşılırdı.

Bakı Müsəlman Qadın Xeyriyyə Cəmiyyəti qızların oxuması, təhsil alması istiqamətində fəaliyyətə başladı. Cəmiyyətin maarifçilik sahəsində ən mühüm xidmətlərindən biri Bakıda yoxsul qızlar üçün peşə məktəbi açması oldu. 1917-ci ilin oktyabrından fəaliyyət göstərən məktəbdə 4 ümumtəhsil sinif və 6 peşə bölməsi yaradıldı. Burada türk dili, hesab, əl işi, biçmə və tikiş üzrə dərslər keçilirdi.

1918-ci ilin martında erməni daşnakları Bakıda soyqırım törətdilər. O dəhşətli günlərdə məktəbin fəaliyyətini davam etdirmək mümkün olmadı. Ancaq cəmiyyətin həyata keçirdiyi digər xeyirxah əməllər kimi, qızlar üçün peşə məktəbi də unudulmadı...

1919-cu ilin əvvəllərində Bakı Müsəlman Qadın Xeyriyyə Cəmiyyəti məktəbi bərpa etdi. Təhsil müəssisəsinin daha səmərəli fəaliyyət göstərməsi məqsədilə Azərbaycan Xalq Cümhuriyyəti hökuməti cəmiyyətə 30 min manat vəsait ayırdı. Məktəb azərbaycanlı qızların savadlanmasında, onlara milli-mənəvi dəyərlərin aşılanmasında, ailədə və cəmiyyətdə öz hüquqlarını anlamasında böyük rol oynadı.

1920-ci ildə, aprel ayında bolşeviklərin işğalından sonra Bakı Müsəlman Qadın Xeyriyyə Cəmiyyəti fəaliyyətini dayandırdı.

### Cəmiyyətin fəal uzvləri

Bakı Müsəlman Qadın Xeyriyyə Cəmiyyətinin təsisçisi olmuş Rəhilə xanım İbrahim bəy qızı Hacıbababəyova (Hacıbababəyzadə) 1882-ci ilin avqustunda Tiflisdə dünyaya göz açmışdı. Bu şəhərdə Müqəddəs Nina məktəbini bitirmişdi. Müəllimlik fəaliyyətinə 1902-ci ildə Bakıdakı İsgəndəriyyə Qadın Müsəlman Məktəbində başlamışdı. 1910-cu ildə Rəhilə xanımın təşəbbüsü ilə azərbaycanlı qızlar üçün ikiillik məktəb açıldı. Bu təhsil ocağı 1914-cü ildə ibtidai məktəbə çevrildi. Rəhilə xanım həmin məktəbin direktoru oldu.

Rəhilə xanım Hacıbababəyova 1925-ci ildə Azərbaycan SSR Maarifçilər Həmkarlar İttifaqı mərkəzi şurasının üzvü seçildi. 1927-ci ildə 5-ci Ümumittifaq Sovetləri və Azərbaycan qadın fəhlələri və kəndliləri qurultayının nümayəndəsi oldu. Rəhilə xanım Hacıbababəyova 1954-cü ildə Bakıda dünyasını dəyişdi.

Bakı Müsəlman Qadın Xeyriyyə Cəmiyyətinin fəaliyyətində mühüm rol oynayan Liza xanım Muxtarova (Tuqanova) hələ 1908-ci ildə ictimai xadim Həsən bəy Zərdabinin həyat yoldaşı Hənifə xanım Məlikovanın təşəbbüsü ilə yaradılmış Azərbaycanda birinci Qadın Xeyriyyə Cəmiyyətinin ilk fəxri sədri olmuşdu. Onun xeyriyyəçilik işləri barədə o dövrün qəzetlərində də yazılar dərc olunurdu. O, vərəmlə mübarizə cəmiyyətinin fəal üzvü olmaqla yanaşı, "Nicat" Maarif Cəmiyyətində fəal iş aparır, xüsusi uşaq xəstəxanasının yaradılmasında iştirak edirdi.

Birinci Dünya müharibəsinin əvvəllərində Müsəlman Qadın Xeyriyyə Cəmiyyətinə rəhbərlik edən Liza xanım bu qurumun sıralarında Sara Vəzirova, Pəri Topçubaşova, Rəhilə Qaziyeva və başqalarını birləşdirdi. Xeyriyyəçi qadınlar kasıb ailələrdən olan qızlara qəyyumluq edirdilər. Fəaliyyətində maarifçilik işləri xüsusi yer tutan Liza xanım Muxtarova (Tuqanova) özünün Persidski küçəsindəki (indiki M.Muxtarov küçəsi) möhtəşəm sarayında yetim müsəlman qızlar üçün pansion təşkil etdirdi. Cəmiyyətin həyata keçirəcəyi bütün işlər, zəruri məsələlər onun evində müzakirə olunurdu. Liza xanımın təşəbbüsü ilə qız məktəbində tamaşalar təşkil edilirdi.

Bolşeviklər Azərbaycanı işğal etdikdən sonra Liza xanım Muxtarova (Tuqanova) ölkəni tərk etməli oldu. Qürbətdə məşəqqətli günlər keçirən bu xeyriyyəçi xanımın 1950-ci illərdə Parisdə vəfat etdiyi barədə məlumat olsa da, məzar yeri bilinmir.

***Zöhrə FƏRƏCOVA, "Azərbaycan"***

● Sənət dünyası

# Rəssamların "sözü", fotomüxbirin "gözü" ilə...

**Rəssamların yaratdığı hər tablo bir romanın mövzusunu verir əsl qələm sahibinə. Sərgiyə adətən müxtəlif yaşda olanlar və dünyagörüşlülər gəlir. Ziyarətçi var ki, bir əsərə "dünyanın sığdığının" şahidinə çevrilir...**

Rənglər "fırçanın dilində danışır" - "dil açırsa", demək rəssam istədiyinə nail olub. Bir tablonun qarşısında saatlarla dayanıb xəyallanan tamaşaçı sıradan biri ola bilməz. Həmin rəsmin onda yaratdığı fikir bir romanlıqdır ki, o, düşüncələrində artıq əsərin süjetini qurur.

Sərgi salonlarının birində çəkilmiş bu tabloların da hərəsində "bir dünya" əks olunub: orada insan xarakterləri açılmaqla yanaşı, həm də təbiət fəsillənir, düşüncə öz rənglərində diktə edir. Bu həm rəssamın, həm də fotomüxbirin uğur salnaməsidir...

***Fərman BAĞIROV (foto), "Azərbaycan"***



● Ana təbiəti qoruyaq

# Ölkə ərazisinin 4 faizi milli qoruqlar və parklardır

## "Çıraqqala" və "Şabran şəhəri", "Qədim Şəmkir şəhəri" və "Orta Əsr Ağsu şəhəri" Dövlət Tarix-Mədəniyyət Qoruğu elan edilib

**Canlıların yaşaması üçün əvəzsiz sərvət yetirən təbiət ana qədər doğmadır. Dünyanın harasında olursan ol, doğma yurdun, vətənin həsrətini daim çəkirsən. Məhz buna görə də təbiəti ana qədər sevmək və qorumaq hər kəsin vətəndaşlıq borcuna çevrilməlidir. Ölkəmizə gələn əcnəbiləri təbii resursları ilə heyran qoyan və hətta onları əbədi turistə çevirən Azərbaycan təbiəti həm də mövcud 11 iqlim qurşağından 9-nun sahibidir.**





"Tarix-mədəniyyət qoruqlarının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 22 oktyabr 2019-cu il tarixli sərəncamı da təbiətin öz təbiiliyi, tariximizin yaşadıcısı olan maddi-mədəniyyətin, eləcə də etnoqrafiyasından soraq verən ərazilərin göz bəbəyi kimi qorunması baxımından çox böyük əhəmiyyətə malikdir. Sərəncama əsasən, "Çıraqqala" və "Şabran şəhəri" tarixi qoruqlarının ərazisi "Çıraqqala-Şabran" Dövlət Tarix-Mədəniyyət Qoruğu, Şəmkir rayonunun tarixi ərazisi "Qədim Şəmkir şəhəri" Dövlət Tarix-Mədəniyyət Qoruğu, Ağsu rayonunun tarixi ərazisi isə "Orta Əsr Ağsu şəhəri" Dövlət Tarix-Mədəniyyət Qoruğu elan edilib.

Mədəniyyət Nazirliyinə adıçəkilən sərəncamla "Nizami Gəncəvi məqbərəsi" kompleksinin Gəncə Dövlət Tarix-Mədəniyyət Qoruğunun tərkibində fəaliyyətinin və "Çıraqqala-Şabran", "Qədim Şəmkir şəhəri" və "Orta Əsr Ağsu şəhəri" Dövlət Tarix-Mədəniyyət qoruqlarının idarə olunmasını təmin etməsi ilə bağlı tapşırıqlar verilib.

Sərəncamda vurğulandığı kimi, Azərbaycanın qədim və orta əsrlər tarixi Şərq və Qərb mədəniyyətləri arasında körpü rolunu oynayaraq yüzillər boyu bəşər sivilizasiyasının inkişafına dəyərli töhfələr vermiş İpək yolu ilə sıx şəkildə əlaqəlidir. Qədim şəhər yerləri, karvansaralar, körpülər, qoruyucu qalaların qalıqları və memarlıq abidələri ilə zəngin Azərbaycan ərazisi bu gün də İpək yolunun parlaq izlərini daşımaqdadır.

Xatırlatmaq yerinə düşər ki, ölkəmizin təbii landşaftlarının qorunmasına xüsusi təbiət mühafizəsi rejimi vasitəsilə nəzarət edilir. 1925-1930-cu illərdə Azərbaycanın ilk qoruqları - Göygöl, Zaqatala və Qızılağac, 1936-cı ildə Hirkan, 1958-ci ildə isə Türyançay yaradılıb. 1959-cu ildə ümumi sahəsi 46,8 min hektar olan daha 8 qoruq bu siyahıya əlavə edilib. Daha dəqiq desək, 1930-cu ildən 1990-cı ilə kimi dövlət qoruqlarının sayı 3-dən 15-ə çatdırılıb. 2004-cü ildə isə artıq ümumi sahəsi 194.898 min hektar (ölkə ərazisinin 2.28 faizi qədər) olan 13 qoruq, 4 milli park və 17 yasaqlıq mövcud idi.

Böyük Qafqaz sıra dağlarının cənub ətəklərinin orta hissəsində, Zaqatala və Balakən rayonlarının ərazisində 1929-cu ildə yaradılan Zaqatala Dövlət Təbiət Qoruğunda 900-dən artıq bitki növü yayılıb. Hətta bu meşələrdə yaşı 200-250 il olan, hündürlüyü 30 metrə çatan fıstıq ağaclarına rast gəlmək mümkündür.

1958-ci ildə Ağdaş və Yevlax rayonları ərazisində, dəniz səthindən 400-650 metr hündürdə təşkil olunan Türyançay, eləcə də Pirqulu, həmçinin Şirvan Dövlət Təbiət Qoruğunda 30 növ məməlilər, 9 növ sürünənlər, 64 növ quşlar mövcuddur. Bir neçə növ bitkilər (qaracöhrə), heyvanlar (qonur ayı, vaşaq, köpkər), quşlar (tetra) "Qırmızı kitab"a salınıblar.

Ağstafa rayonunda, Kür çayının sol sahilində 1978-ci ildə təşkil olunan Qarayazı, Laçın ilə Ermənistanın Gorus rayonu sərhədində yerləşən Qaragöl Dövlət Təbiət Qoruğunu da bu siyahıya əlavə etməliyik.

1987-ci ildə Qax rayonunun ərazisində yaradılan İlisu Dövlət Təbiət Qoruğunda 500 növ bitki var. 2004-cü ildə Samux rayonu ərazisində yaradılmış Eldar Şamı Dövlət Təbiət Qoruğu mühafizə və elmi-tədqiqat idarəsi statusuna malikdir. Qoruğun yaradılmasının başlıca məqsədi dünyada yeganə vətəni olan Eldar şamı meşəliyinin təbii vəziyyətini qoruyub saxlamaqdır.

Xatırlatmağa dəyər ki, 2003-cü ildən başlayaraq Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən akademik Həsən Əliyev adına Ordubad, Şirvan, Ağgöl, Hirkan, Altıağac, Abşeron, Şahdağ, Göygöl milli parkları da yaradılıb. 2009-cu ildə Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə Ordubad Milli Parkının ərazisi, Şahbuz, Culfa, Ordubad rayonlarının torpaqları hesabına Şahbuz Dövlət Təbiət Qoruğu genişləndirilib. Eyni sərəncamla o, akademik Həsən Əliyev adına Zəngəzur Milli Parkı adlandırılıb.

Abşeron Dövlət Təbiət Yasaqlığının bazasında yaradılan milli park yarımadanın cənub-şərq qurtaracağında - Şah Dili ərazisindədir. Parkda 50-dən artıq quş və heyvan, 25-ə qədər bitki növü mövcuddur. Abşeron Milli Parkının Xəzər dənizi ərazisində dünyada nadir hesab olunan Xəzər suitisinə rast gəlinir. Xəzər suitisi pərayaqlıların yeganə nümayəndəsidir ki, dünya okeanının ən kiçik suitisi kimi "Ginnesin rekordlar kitabı"na daxil edilib.

Respublikamızın şimal-şərqində, Xızı və Siyəzən rayonlarının ərazisindəki Altıağac Milli Parkı 1990-cı ildə Altıağac Dövlət Təbiət Qoruğu və ona həmsərhəd olan dövlət meşə fondu torpaqlarının bazasında yaradılıb. Milli park Şamaxıdan altı ağac məsafəsində yerləşdiyindən, ona və kəndlərin birinə Altıağac adı verilib. Xatırladaq ki, bir ağac məsafəsi təqribən 5-6 km-ə bərabərdir.

Şahdağ Milli Parkı da ölkəmizdə turizmin inkişafında xüsusi əhəmiyyət kəsb edən füsunkar guşələrdən biridir...

***M.NƏRİMANOĞLU, Ağaəli MƏMMƏDOV (foto), "Azərbaycan"***

# Əfsanə qadın









## Zəriflərin dünyası

**“Həm Fidan xanımın, həm də mənim 45 ilə yaxın sənət yolumuz var. Bu illər ərzində sənətdə irəliləmək, uğur qazanmaq, şöhrətə çatmaq heç də asan olmayıb. Bu zirvəyə qalxmağımız illərlə çəkilən zəhmətimizin, gecə-gündüz çalışmağımızın bəhrəsidir... Həyatımızda çox hadisələr baş verib, valideynlərimizi gənc yaşımızda itirmişik, xəstəliklər olub, gözlənilməyən hadisələrlə qarşılaşmışıq... Amma bütün bunlara rəğmən çalışmışıq ki, sevdiyimiz sənətin layiqli təmsilçiləri olaq. Hər zaman ölkəmizi sənətimizlə tanıdaq, vətənimizə qalibiyyət sevinci bəxş edək. Saysız mükafatlara, diplomlara, fəxri adlara layiq görülmüşük, amma getdiyimiz hər yerdə bizimlə qarşılaşan insanların rəğbəti, oxuduğumuz əsərlərdən zövq aldıqlarını bildirmələri, sevgi göstərmələri bu dünyada qazandığımız ən gözəl mükafatdır. Gurultulu alqışlar qazanmışıq, oxuduğumuz səhnə gül-çiçəklərə qərq olub, bütün bunlar ürəyimizi fərəhləndirib, amma gözlərimiz hər zaman tamaşaçılar arasında anamızı, atamızı axtarıb, tapmayanda isə təəssüf ki, bu sevincimiz qüssə ilə əvəzlənib...”**



### Qasımovlar ailəsində bir bülbül böyüyürdü...

*O, sənəti, şanı, şöhrəti, zərafəti, örnək həyatı ilə sağlığında əfsanəviləşən qadındır. Hər kəsə nəsib olmayan xoşbəxt bir taleyə sahibdir, minlərin, milyonların sevgisinin, sayğısının ünvanıdır...*

*O, səhnə üçün doğulmuşdu...*

*Hələ məktəb yaşlarından insanların qəlbində Lalə, Səidə, Hicran kimi obrazlarla taxt qurmuşdu. “Mən ki gözəl deyildim”, “Liftçi qız”, “Həyat bizi sınayır” filmlərində ona həvalə olunan rolların öhdəsindən böyük məharətlə gəlmişdi...*

*Amma kino aktrisası olmaq arzusunda deyildi...*

*Və buna görə də kino sahəsindən uzaqlaşmışdı. Sonralar isə kino ustadları onun haqqında deyirdilər ki, bəlkə də biz bu qızcığazın simasında böyük bir kino aktrisamızı itirdik...*

*O isə yenə də həyatını səhnə ilə bağladı, amma musiqi sahəsində...*

*3 yaşındaykən məşhur bəstəkarların əsərlərini ifa etməyə cəhd göstərirdi. Artıq o zamandan hər kəs bilirdi ki, Qasımovlar ailəsində oxuyan kiçik bir bülbül var və səhərdən axşamacan susmadan cəh-cəh vurur...*

*Deyirlər musiqi ürəyin səsidir. Onun da ürəyinin döyüntüsü, qəlbinin ritmidir musiqi.*

*Möcüzəvi səsinin ahəngi, şaqraqlığı saflıqdan, təbiilikdən, mənəvi zənginlikdən, şirin ana laylasından, ecazkar azan sədalarından axıb gəlir...*

*Oxuduğu əsərlərin dünyanı heyran qoymasının, bu qədər sehrli olmasının səbəbi də bəlkə budur...*

*Özü isə xatırlayır ki, anası Tükəzban xanım hər zaman Allaha yalvarırmış ki, iki qız balasına gözəl səs nəsib etsin: “Nə bilmək olar, bəlkə də o zaman Allah anamın səsini eşitmişdi...”*

*Dünya şöhrətli opera müğənnisi, Azərbaycanın Xalq artisti, Dövlət mükafatı laureatı, “Şöhrət” və “Şərəf” ordenli professor Xuraman Qasımova “Zəriflərin dünyası”nda ömür təranələrini dilləndirir. Uğurunun başlanğıcına, uşaqlığından, gəncliyindən yol alıb sənət zirvəsinə doğru uzanan möhtəşəm həyat səhifələrini vərəqləyir...*

### Bu səs bizə ulu babamız - Qafqazın Şeyxülislamı Əbdüssəlam Axundzadədən keçib...



- Bakıda ziyalı ailədə dünyaya gəlmişəm. 3 övlad olmuşuq, qardaşım Əlibəy, bacım Fidan və mən. Göz açdığımız bu ailə bizə gözəl tərbiyə, böyük-kiçik yeri bilməyi, bir-birimizə hörmət etməyi, insanları sevməyi, gözəlliyə qiymət verməyi öyrədib. Hər üçümüzün musiqiyə olan sevgisini də atamla anam bizə aşılayıb. Onu da deyim ki, ailəmizdə musiqiyə olan maraq, o cümlədən səs genimizlə gəlib. Atamın ulu babasının - Qafqazın Şeyxülislamı Əbdüssalam Axundzadənin çox məlahətli səsi varmış. O səs əvvəlcə atamıza, ondan da irsən biz bacılara keçib.

Əbdüssalam Axundzadə Azərbaycanın tanınmış şəxsiyyətlərindən biri olub. XIX əsrin ikinci yarısında Azərbaycan tarixi, elmi, maarifçiliyi, dini və ictimai-siyasi həyatında böyük rolu olub. 1894-cü ildən Tiflisdə yerləşən müsəlman dini mədrəsəsinin rəhbəri olaraq Qafqazın Şeyxülislamı vəzifəsinədək yüksəlib.

Ə.Axundzadənin bacısı oğlu - bizim babamız Əlibəy Qasımov Qori Müəllimlər Seminariyasının məzunu olub. Oranı uğurla bitirdikdən sonra vətənə dönür və burada pedaqoji fəaliyyətə başlayır. Bir neçə



dili mükəmməl bilən babam məşhur dünya yazıçılarının əsərlərini rus dilindən Azərbaycan dilinə tərcümə edib. Məsələn, R.Covanyolun “Spartak”, C.Londonun, L.Tolstoyun bir sıra əsərlərini dilimizə çevirib. “Hacı Murad” əsərinin tərcüməsi ilə bağlı böyük qrafla babam məktublaşıblar. Nəticədə Tolstoy babamı Moskvada “Yasnaya Polyana”da yerləşən evinə dəvət edir. Babam 1900 və 1907-ci illərdə Tolstoyun həftələrlə qonağı olur. Danışırlar ki, babamın Tolstoya bəxş etdiyi hədiyyələr indiyə qədər orada saxlanılır. Onların da içində ən dəyərlisi “Quran” kitabıdır. Evimizdə bu iki dostun yazışmaları, həmçinin Tolstoyun imzaladığı foto qorunur.

1920-ci ildə Bakı Dövlət Universitetinin açılmasında da babamın böyük rolu olub. O, həmin universitetdə rus dili kafedrasına rəhbərlik edib və bir müddət rektor müavini vəzifəsində də çalışıb.

Təəssüf ki, babam çox yaşamayıb və cəmi 54 yaşında dünyasını dəyişib. Amma düşünürəm ki, yaşasaydı belə, yəqin 37-ci il repressiyasının qurbanlarından birinə çevriləcəkdi. Çünki vətənini, millətini, dinini bu qədər sevən bir ziyalı rejimin dəmir repressiyasından yayına bilməzdi...

### Müharibə xarabalıqlarından yüksələn melodiya və iki qardaşın qovuşması...

- Anam Tükəzban xanım Tibb Universitetini mikrobiologiya ixtisası üzrə bitirmişdi. Atam Əkrəm Qasımov isə İndustrial İnstitutunu (indiki ADNA) mühəndis-energetik ixtisası üzrə başa vurmuşdu. Atamgillə anamgilin ailəsi İçəri şəhərdə, eyni məhəllədə illərlə mehriban qonşu olub. Bu qonşuluq sonradan qohumluğa çevrilib. Valideynlərim bir-birilərini sevmiş, 1941-ci il mayın 15-də evlənmişdilər.

Təəssüf ki, az sonra müharibə başlamış və hamı kimi atam da böyük qardaşı ilə bərabər könüllü olaraq cəbhəyə yola düşmüşdülər. Ənvər əmimin də (tanınmış memar və dövlət xadimi Ənvər Qasımzadə), atamın da böyük döyüş uğurları olub və medallar qazanıb, yüksək rütbələrə layiq görülüblər. Böyüklərimiz danışırdı ki,



iki oğlunu birdən cəbhəyə göndərən Töhfə nənəm oğulları müharibədən geri dönənə qədər isti yorğan-döşəkdə yox, palaz sərib quru yerdə yatırmış...

Artıq müharibənin üçüncü ili imiş və Dnepropetrovsk yaxınlığında qızğın döyüşlər gedirmiş. Sovet ordusu əraziləri almanlardan azad edə-edə irəliləyirmiş. Bu ərəfədə atam dağılmış bir binaya girəndə görür ki, bura klubdur və üzərində daş, torpaq yığını olan bir piano var. O, pianonun üzərində olan daşı, torpağı təmizləyir, qapağını açaraq yavaş-yavaş çalmağa başlayır...

Həmin anlarda isə şəhərdə nəzarət həyata keçirən içlərində əmimin də olduğu sovet hərbçiləri yaxınlıqdan keçirmişlər. Birdən o, dağıntılar arasından yüksələn ecazkar bir melodiya eşidir və deyir ki, yalnız mənim qardaşım pianoda bu cür gözəl ifa edə bilər. İstəyirəm o şəxsi görüm, beləliklə müxtəlif yerlərdə döyüşən iki qardaş 3 ildən sonra bu cür qəribə və xoş təsadüf nəticəsində görüşürlər...

Hətta yazıçı Simonov adlarını çəkməsə də, atamla əmimin, iki qardaşın müharibədə təsadüfən görüşünü təsvir edib...

1943-cü ildə atam müharibədən geri çağırılmış və ona Moskvada məsul iş tapşırılmışdı. Atam kimi savadlı mütəxəssislərə o vaxtlar arxa cəbhədə də böyük ehtiyac vardı. Ənvər əmim isə Terek sahillərindən Berlinə qədər döyüş yolu keçir, ordenlərlə, medallarla təltif edilir.

Müharibədən sonra atamgil yenidən Bakıda, İçəri şəhərdə yaşayırlar...

### Atam cürət edib dahi Üzeyir bəyin qarşısında Koroğlunun ariyasını oxuyur...

- Biz müharibədən sonra dünyaya gələn yeni nəsil hesab olunuruq. O illərin çətinliklərində yaşamaq elə də asan deyildi, lakin buna baxmayaraq qələbə çaldığımız üçün insanlar çox xoşbəxt idilər. Artıq yeni quruluş başlamış, bütün respublikalarda bərpa işləri gedirdi. Elə məhz həmin vaxtlarda da Azərbaycan mədəniyyətinin və incəsənətinin ulduzu parlamağa başladı və qızıl dövr yarandı...

Xatırlayıram, o zaman elə bir ailə yox idi ki, orada hansısa bir musiqi aləti ilə məşğul olunmasın. Bizim evimizdə də iki royal var idi. Atam həmin royallarda ifa edərək



xalq mahnılarımızı, rus romanslarını oxuyurdu. Hələ cavanlığından onun səsini eşidən hər kəs heyranlığını bildirərmiş. Bir dəfə ailəvi yaxınımız olan maestro Niyazi qəflətən atamı iş yerindən götürərək konservatoriyaya gətirir. O, Üzeyir bəyin otağının qapısını açaraq deyir ki, “əmi, bu cavan oğlanın səsini dinləməyinizi xahiş edirəm”. Onda atam cürət edib dahi Üzeyir bəyin qarşısında Koroğlunun ariyasını oxuyur. İfanı çox bəyənən Hacıbəyli atamı 3-cü kurs tələbəsi kimi qeyd edir və deyir ki, “belə səslərə ehtiyacımız var və siz buranın tələbəsi olmalısınız”. Atam bir müddət iş yerində bildirmədən dərslərdə gizlin iştirak edir, amma sonra məcbur olaraq təhsilini yarımçıq qoymalı olur. Çünki vəzifəli şəxsin bu addımı atmasına rəhbərlik icazə verməzdi... O, 28 yaşı olmasına baxmayaraq, Dövlət Plan Komitəsi sədrinin I köməkçisi vəzifəsində çalışırdı.

### Uğurlarımızı valideynlərimiz görə bilmədi...

- Valideynlərim mədəniyyətə, incəsənətə bağlı insanlardı. O illər həyat nə qədər çətin, mürəkkəb olsa da, zamanlarını zəngin keçirərdilər, musiqi, ədəbiyyat gecələrində iştirak edərdilər. O illərdə Azərbaycanın qaymaqları sayılan ziyalılar, rəssamlar, şairlər ailəmizin dostları kimi evimizə tez-tez gələrdilər. Görkəmli bəstəkarlarımız Fikrət Əmirov, Cahangir Cahangirov, Telman Hacıyev, Tofiq Quliyev qonağımız olardılar. Hətta elə olub ki, Tofiq Quliyevin bir çox əsərləri bizim evdə yazılıb və onun ilk ifaçısı 3-4 yaşlı kiçik qızcığaz, Xuraman olub. Maestro Niyazi isə demək olar ki, ailəmizin üzvü idi...

Həmişə teatrlara gedirdik, elə bir premyera, konsert olmazdı ki, valideynlərimiz bizi aparmasın... Belə bir mühitdə böyüyür, formalaşırdıq... İndi o anları xatırlayanda həm sevinir, həm də kədərlənirik...

Hər zaman Fidan xanıma da, mənə də deyirlər ki, nə qədər gülsəniz, sevinsəniz də, gözləriniz hər zaman kədərlidir. Ola bilərmi ki, bizim gözlərimiz kədərli olmasın?!

Uşaqlıq dövründə həyatımızda nə qədər parlaq səhifələr olsa da, valideynlərimizi itirməyimiz o səhifələrə kölgə salır. Biz hələ çox gənc idik, doğru-dürüst ayaqlarımız üzərində dura bilməmişdik. Anam 58, atam isə 60 yaşında bizlərə vida etdi. Çox uzun sürən xəstəlikləri də olmadı, elə qəfildən aramızdan ayrıldılar. Görünür buna müharibə dövründə keçirdikləri ruhi sarsıntılar da səbəb olmuşdu...

Sadəcə Fidan xanımı “Koroğlu” tamaşasında Nigar obrazında görə bildilər. Bəli, onlar sənətə meylimizi, musiqiyə sevgimizi uşaqlıqdan hiss edirdilər, bilirdilər istedadımız var, amma heyf ki, səhnədə böyük uğurlarımızı, xalqın rəğbətini, sevgisini qazanan, vətənimizə qələbələrlə dönən dövrümüzü görə, sevinə bilmədilər, halbuki həmişə bunun arzusunda idilər...

### Fidan xanımın timsalında Azərbaycan səhnəsində yeni ulduz parlayırdı...

- Bacım Fidanla qardaşım Əlibəy Bülbül adına orta ixtisas məktəbində təhsil alıblar. Fidan yeddi yaşından məktəbə gedib və skripka alətində çalmağı öyrənib. Əlibəy isə piano sinfini bitirib. Yeri gəlmişkən, qardaşım konservatoriyanın fortepiano bölməsinə daxil oldu. Amma birinci kursu başa vurduqdan sonra birdən-birə fikrini dəyişdi və fiziologiya mütəxəssisi olmaq istədi. Amma əminəm ki, Əlibəy musiqinin arxasınca getsəydi, çox məşhur musiqi xadimi ola bilərdi.

Fidan isə konservatoriyada həm skripka, həm də ikinci ixtisas olaraq vokal üzrə dərs aldı. O, P.İ.Çaykovski adına konservatoriyanın aspiranturasını da uğurla bitirdi. Əslində, Fidanın vokalçı kimi istedadını anam hiss etmişdi... O, hər hansı bir ariyanı, melodiyanı oxuyanda anam onun səs tembrinə fikir vermiş və elə buna görə də 16 yaşında onu maestro Niyazinin yanına aparmışdı. Maestro onu dinləyəndən sonra demişdi ki, Fidanın çox gözəl təbii və formalaşmış səsi var...

Fidan hələ ilk dəfə səhnədə 1972-ci ildə konservotoriyanın 50 illiyinə həsr olunan təntənəli gecədə Niyazinin rəhbərlik etdiyi simfonik orkestrin müşayiəti ilə Asəf Zeynallının “Ölkəm” əsərini səsləndirəndən sonra belə fikir yarandı ki, Azərbaycan səhnəsində yeni ulduz parlamağa başlayıb...



Bacımın xasiyyəti də tamam başqa idi. O, Puşkinin “Yevgeni Onegin” əsərindəki Tatyana kimi idi. Sakit, öz işi, dərsləri ilə ciddi məşğul olan bir qız... Elə bəlkə də buna görədir ki, Fidan xanım belə mükəmməl, əlçatmaz sənətçi oldu. Hətta bu gün də o, mənim üçün əlçatmaz sənətçi sayılır. Mən onun qarşısında hər zaman baş əyirəm. Çünki dünyaya elə bir sənətçi gələcəkmi, gəlməyəcəkmi bilmirəm...

### Mən ki kino aktrisası olmaq istəmirdim...

- Mən qarşımda bu cür örnəklər görərək böyüyürdüm. Onu da deyim ki, məktəbli yaşlarımdan müxtəlif dərnəklərə gedir, idmanla, gimnastika ilə məşğul olurdum, balet, xarici dillər öyrənirdim... Eyni zamanda dərslərimi də yaxşı oxuyurdum. Hər sahəyə zaman ayıra bilirdim, çox fəal, enerjili, həvəsli idim...

Hətta məktəb illərində kino sahəsində də fəaliyyət göstərdim. Amma bu, bir təsadüf idi. O illərdə kinorejissorlarımız institutları, ali məktəbləri qrup-qrup, sinif-sinif gəzir, həmin rollara ifaçı axtarırdılar. Təbii ki, mən o yaşlarımda professional aktrisa ola bilməzdim. Amma bizim məktəbdən məni seçdilər. Sonra sınaq çəkilişləri oldu və kinorejissorlar məni bəyəndilər. İlk dəfə “Liftçi qız”da baş rola çəkiləndə lap uşaq idim, cəmi 13 yaşım vardı. Daha sonra “Mən ki gözəl deyildim”, “Həyat bizi sınayır” filmlərində rol aldım və hər üçü uğurlu oldu. Hətta iki filmə görə



Ümumittifaq Kinofestivallarında birinci dərəcəli diplomlara layiq görüldüm.

Amma mən kino aktrisası olmağa hazırlaşmırdım...

### “Arşın mal alan” ilk dəfə vala yazılanda Asyanın rolunu ifa etmək mənə tapşırıldı...

- Musiqi idi mənin dünyam. 3 yaşımdan oxuyurdum. “Cücələrim” ansamblında xorun solisti idim, onun tərkibində bütün sovet respublikalarında olmuşdum. Hələ uşaqlıqdan xeyli fərqlənmə diplomlarım var idi...

Musiqiyə olan tükənməz istəyim məni konservatoriyaya yönəltdi. Qadınlardan ilk opera müğənnimiz Şövkət Məmmədovanın iki il tələbəsi olmuşam. O, rəhmətə getdikdən sonra isə İda Aronovna Lvoviçdən dərs almışam. İlk qastrol səfərim isə 1977-ci ildə Avstriyaya olub.

Ümumiyyətlə, biz bacılar oxumağa başlayandan sonra qısa bir zamanda populyarlaşdıq. Fidan xanımla müsabiqələrdə iştirak etdik. Xeyli sayda diplomlara layiq görüldük. Bizi respublikamızdan kənarda da tanıyır, müxtəlif ölkələrə dəvət edirdilər. Moskvanın özündə, müttəfiq respublikalarda dəfələrlə konsertlər vermişdik. Fidan xanımla Moskvada konsertimiz olanda afişalarda həmişə yazırdılar: “Zvezdı Sovetskoqo iskusstvo”...

O illərlə bağlı o qədər gözəl xatirələrimiz var ki...

1972-ci ildə İrandan Rza Pəhləvi şahın xanımı Fərəh Pəhləvi Azərbaycana, Bakıya gəlmişdi. Fərəh xanım şəhərimizi gəzərkən deyir ki, “Arşın mal alan” əsərinin valını almaq istəyirəm”. Demə, bu əsər hələ vala yazılmayıbmış. Amma onu müşayiət edənlər arasında olan maestro Niyazi heç kəs pərt olmasın deyə özünü itirmədən dərhal cavab verir ki, “bilirsiniz, dinləyicilər bu musiqini o qədər sevirlər ki, bütün valları alıblar və buna görə də siz onu heç bir satış yerində tapa bilməzsiniz. Lakin darıxmayın, siz vətəninizə çatmadan bu val sizə çatacaq...”

Beləliklə, bu əsər üç variantda - fars, rus və Azərbaycan dilində vala yazılır. Dahi Niyazinin rəhbərliyi ilə mən 16 yaşımda Asyanın, Fidan Gülçöhrənin, Rəşid Behbudov, Lütfiyar İmanov Əsgərin rollarını səsləndirdik.

Təəssüflə qeyd edim ki, həmin dövrdə çoxsaylı yaddaqalan opera ifalarımız olsa da, onlardan heç biri yazılmayıb. Sadəcə Fidan xanımın ifasında “Koroğlu” operası yazılı lentdə var ki, onu da o zaman Leninqrad televiziyası çəkib bizə ərməğan edib.

### Görəsən, bir daha oxuya biləcəyəmmi?!

- 90-cı illərin əvvəllərində bir çox sahələrdə olduğu kimi, musiqidə də durğunluq yaranmışdı. Musiqiçilərimizin çoxu Azərbaycanı tərk edirdilər, xaricdə sığınacaq və iş yeri axtarırdılar. Səhhətimdə yaranan problemlərlə əlaqədar biz də bir müddət burada olmadıq, Türkiyədə idik, o cümlədən Amerikada da müalicə alırdım. O illər düşünürdüm ki, görəsən, bir daha oxuya biləcəyəmmi?! Axı həyatım səhnəyə bağlı idi, özümü onsuz təsəvvür edə bilmirdim. Hətta həkimlər sonradan mənə dedilər ki, əməliyyat zamanı “narkoz” altında özümdən ixtiyarsız Puççininin hansısa əsərini oxumuşam...

Həmin dövrdə xalqımızın dəstəyi, pərəstişkarlarımın yüzlərlə məktubu məndə həyat eşqini sönməyə qoymadı... Şükürlər olsun ki, mən yenə də səhnəyə qayıtdım, hətta o zaman tamaşaçılarımın bu tükənməz rəğbətinə rəğmən “Xoş gəldin Xuraman” adlı solo konsert də verdim...

1993-cü ildə Ulu Öndər Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra ölkədə yavaş-yavaş stabillik yarandı. Heydər Əliyevin mədəniyyətə, incəsənətə, sənətkarlara münasibəti, qayğısı bir başqa idi. Ulu Öndər hər kəsi bir-bir tanıyır, fəaliyyətləri ilə maraqlanırdı.



### Vətən sizi gözləyir...

Biz, Ulu Öndərlə 1996-cı ildə keçirilən solo konsertimizdə görüşdük. Daha sonra Heydər Əliyev bizimlə şəxsi görüşdü, xeyli söhbət etdik. O, Bakıdan ayrılmağımızın səbəbini də soruşdu. Dedim ki, vətənimizdən ayrılmamışıq, ürəyimiz daim buradadır, səhhətim düzələn kimi yenə qayıdacağıq...

Heydər Əliyev söylədi ki, “bilin, vətəniniz hər zaman sizi gözləyir, siz Azərbaycana lazımsınız, istəyirəm sənətinizi burada inkişaf elətdirəsiniz, Türkiyədə olduğu kimi, gənc vokalçılarımızı yetişdirəsiniz”. Onda İstanbul Universitetinin nəzdində olan konservatoriyada professor idik. Ulu Öndər həm də şəxsi vokal məktəbimiz olmasını arzuladığını qeyd etdi və elə həmin görüşdə bizə bununla bağlı müraciət məktubu da yazdırıb imzaladı... Lakin bu günə qədər bu arzumuz həyata keçməyib...

Daha sonra biz Ulu Öndərin də istədiyi kimi vətənimizə döndük...

Amma bir müddət əvvələ qayıdaraq bir mühüm məqama da aydınlıq gətirim ki, xəstə olduğum müddətdə və vətənə döndükdən sonra illərlə çalışdığım, uğurlara imza atdığım Opera və Balet Teatrından doğma münasibət görmədim. Fidana da, mənə də elə bir şərait yaratdılar ki, istər-istəməz oradan uzaqlaşmalı olduq.

Yalnız 8 il sonra Ulu Öndər bu məsələdən xəbərdar oldu. Beləliklə, biz yenidən həmin teatra qayıdıb fəaliyyətimizi davam etdirdik. Amma 2005-ci ildə yenidən haqsızlıqla qarşılaşdıq, hələ təqaüd yaşına çatmadan teatrdan kənarlaşdırıldıq...

O zamandan bir daha opera səhnəsində olmadıq...

1994-cü ildən etibarən Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasında solo oxuma kafedrasının müdiriyəm. Fidanla bu sənətin sirlərini gənclərə öyrədirik. Təəssüf ki, ailəmizdə davamçılarımız yoxdur, amma tələbələrimizi də övladlarımız və davamçılarımız sayırıq...

Hər zaman çalışırıq, konsertlər veririk, dövlət tədbirlərində iştirak edirik, xarici səfərlərdə oluruq...

### Ulu Öndərin qiyməti

- Hər zaman xalqımız, dövlətimiz tərəfindən yüksək qiymətləndirilmişik...

2002-ci ildə Fidanla birlikdə 25 illik fəliyyətimizlə bağlı indiki Heydər Əliyev Sarayında konsert verdik. Ulu Öndər Azərbaycan mədəniyyəti və bizim fəaliyyətimiz haqda çox möhtəşəm çıxış etdi. Düşünürəm ki, illərlə səhnəyə çıxmasaq belə, onun bizə verdiyi bu qiymət ömrümüzün sonuna qədər bəsdir...

Təəssüf ki, 2003-cü ildə Ümummilli Liderimiz vəfat etdi və bu bizim üçün də böyük itki idi, dərindən sarsılmışdıq. Heydər Əliyev bizi balacalığımızdan tanıyırdı, evimizdə qonaq olmuşdu və özü də hər zaman bu barədə deyirdi...

Bir il yas saxladıq və səhnəyə çıxmadıq, 2004-cü ildə isə sevdiyi əsərlərdən ibarət “İthaf” adlı konserti Ulu Öndərə həsr etdik...

Daim Birinci vitse-prezident Mehriban xanım Əliyevanın da diqqəti üzərimizdə olub. Hələ Mədəniyyətin Dostları Fondunu yaradanda çoxsaylı konsertlərimizi məhz Mehriban xanım təşkil etmişdi. 1998-ci ildə “Sevil” tamaşasında Sevil roluna dəvət almağım da məhz Birinci vitse-prezidentin şəxsi təşəbbüsü idi.

Fidan xanıma da, mənə də “Şərəf” ordenini cənab İlham Əliyev təqdim edib. Fidan xanım 70 illiyi ilə əlaqədar Prezidentimiz tərəfindən yüksək mükafata, “İstiqlal” ordeninə layiq görülüb...



Bu ilin martında cənab İlham Əliyev və Mehriban xanım Əliyevanın mədəniyyət xadimləri ilə görüşündə Prezident söylədi ki, kimin hansı problemi varsa desin, həmin problemi həll etməyə hazıram. İllərdir səhnədəyik, alqış payımız da, mükafatlarımız da, dövlət tərəfindən layiqincə göstərilən diqqət və qayğımız da yetərincədir... Sənətkarın bu həyatda daha artıq nəyə ehtiyacı ola bilər ki...

Ona görə də söz alıb Prezidenti və xanımını evimə qonaq çağırdım. İlham Əliyev və Mehriban xanım dəvətimizi qəbul etdilər. Çox arzulayıram ki, Ulu Öndərimizin 2002-ci ildə bizə bağışladığı evdə bu əziz qonaqlarımı qəbul edim, Heydər Əliyev və ailəsinə həsr olunmuş foto qalereyamızla tanış olsunlar...

### Son səhnədən Şuşaya üz tutan tamaşaçı arzuları...



**Təqvim 2003-cü il, məkan Opera və Balet Teatrının səhnəsidir...**

**Göy guruldayır, şimşək çaxır, uzaqdan Natəvanın ruhu görünür... “Şuşanı alın geri, Ahım odlar yeri-göyü. Şuşanı alın geri, Şuşanı xilas edin. Şuşanı xilas edin”, - deyə hayqıran Xuraman Qasımova bu səhnədə son obrazına - Vasif Adıgözəlovun “Natəvan” operasında Xurşidbanu Natəvana həyat verir. Üzərindən 16 il keçməyinə baxmayaraq tamaşaçılar həmin ifanın sehrindən bu gün də çıxmayıblar: “Natəvanı həmin səhnədə izləyənlər indi də deyirlər ki, əgər o gün “Şuşanı xilas edin” deyərək Qarabağa yol alsaydınız, bütün zal durub sizin arxanızca gedərdi...**

**Əminəm ki, biz Şuşanın, Qarabağın xilasını görəcəyik. Allahdan ən böyük istəyim odur ki, həmin qismi yenidən Şuşada ifa etməyi mənə nəsib etsin...”**

**Şanlı-şöhrətli, fəxarət dolu bir ömrə xatirələr cığırıyla bir daha qayıtmaq istədik...**

**Amma bütün bu yazdıqlarımız zəngin ömrün sadəcə dəryada damcı misalıdır...**

**Onun musiqi dünyası sonsuzdur... Musiqi onun həyatının ahəngi, ömrünün mənasıdır. O, səhnəmizin ulduzu, xalqımızın sevimli sənətkarıdır. O, Sevildir, Nigardır, Tatyanadır, milyonların sənətçisidir. Ömrünü Azərbaycan musiqisinin inkişafına, zirvələrə ucalmasına həsr edib. Dahi Üzeyir bəydən, Qara Qarayevdən, maestro Niyazidən və bir çox görkəmli şəxslərdən ötürülərək gələn bu müqəddəs ənənənin layiqli davamçısıdır...**

**Musiqi dünyanız hər zaman şaqraq, uğurlarınız bol olsun, fəxarət ünvanımız Xuraman xanım!**

*Yasəmən MUSAYEVA,*
*“Azərbaycan”*



# TURİZM



● Gəzməli, görməli yerlərimiz

**Bir çox dünya ölkələrində turizm həvəskarları ən yaxşı istirahət üçün qızmar yaz-yay aylarını qəbul etsələr də, payız-qış mövsümünün üstünlüklərindən faydalanmaq üçün səyahətə çıxmaq istəyənlər də az deyil. Əslində hər fəslin öz dəyəri, öz istirahət imkanları var. O da ola Azərbaycan kimi ölkə. İlin bütün fəsillərində burada istirahət, gəzinti və müalicə üçün gözəl təbii şərait var. Ölkəmizdə qış turizmi 2011-ci ildən inkişaf etdirilməyə başlayıb.**



# Qış turizminin qızğın dövrü başlayır

Xüsusilə Qəbələ rayonunda Tufandağ, Qusar rayonunda Şahdağ turizm mərkəzləri istifadəyə verildikdən sonra bu sahəyə maraq daha da artırılıb. Qış turizminə dair uşaq və böyüklər üçün aktiv əyləncə mərkəzləri yaradılıb, indi xizək sürmək, buz meydançasında sürüşmək üçün başqa ölkələrə getməyə ehtiyac yoxdur. Respublikamızda belə ünvanların sayı çoxdur. Onlardan biri də Azərbaycanın tarixində ilk dağ-xizək kurortu kimi tanınan "Şahdağ" Qış-Yay Turizm İstirahət Kompleksidir. Qusar rayonunun mərkəzindən 32, paytaxtdan isə 210 kilometr məsafədə yerləşən bu kompleksdə fəslin bu çağında möcüzəli mənzərələr yaşanır. Kimi kanatlarla yerlə-göy arasında gəzintidə, kimi xizəksürmə yarışlarında, kimi ailəsi və yaxınları ilə piyada gəzintisində, kimi də bu romantik aləmi sadəcə seyr etməyindədir. Dəniz səviyyəsindən 1.300-3.200 metr hündürlükdə yerləşən bu kompleksdə xizək idmanı ilə məşğul olmaq, yaxşı xizək sürmək üçün təlimlər keçirilir, yol-marşrut xətləri və təhlükəsizlik qaydalarına diqqət yetirmək və s. barədə məlumatlar verilir.

Buradakı turistlərin, eləcə də meşələrlə örtülü dağların və dərələrin qoynunda yerləşən, "Qarabulaq", "Qayıbulaq", "Şahdağ", "Şahbulaq", "Qusar bulaq", "Star Qusar" və digər istirahət mərkəzlərinə gələn səyahət həvəskarlarının, xüsusən də Rusiya Federasiyasından olanların çoxluğundan belə qənaətə gəlirsən ki, qış aylarında ölkəmizə ən çox turist Qusara gəlir. Qusarın ağappaq qara bürünmüş dağ və dərələri buraya yolu düşənləri sanki ovsunlayır, onları təkrar bu füsunkar yerlərə qayıtmağa məcbur edir. Turistlər arasında ilk diqqətimi çəkənlərdən biri də saçı-saqqalı ağarmış, təqaüd yaşında olan İqor Əsgərov oldu. Elə ilk tanışlıqdan, bir az çətinliklə də olsa, - mən də azərbaycanəsilliyəm, atam azərbaycanlı, anam rus olub. Biləcəridə yaşamışıq. Atam dəmiryolçu idi. Biləcəridə 300 nömrəli orta məktəbi bitirdikdən sona Rusiyada hərbi xidmətdə oldum. Axı azərbaycanlılar polisdə işləməyi sevirlər, mən də Moskvada Polis Akademiyasında oxudum və müxtəlif məsul vəzifələrdə çalışdım. İndi təqaüddəyəm. İldə iki dəfə - yayda dəniz kənarına Novxanıya, Bilgəhə, qışda isə Qusara gəlirəm.

Bu ara söhbətinə ani fasilə verən müsahibim danışığımıza maraqla qulaq asan həyat yoldaşını göstərərək - tatardır, adı Olqadır, yanındakı oğlum Maksim, o gəlinim, bu da nəvəm Ruslandır. Dünyanın hansı ölkəsində kiminlə tanış olmuşamsa, özümü azərbaycanlı kimi təqdim etmişəm. İşimlə əlaqədar çox ölkələri gəzmişəm, Bakını yaxşı tanıdığım üçün deyirəm, bunu qeyd etməmək mümkün deyil, şəhər tamamilə dəyişib, dünyanın gözəl məkanlarından biri olub. İstər yayda Xəzər ətrafında, istərsə də rayonlarda, xüsusən də Qusarda, Qəbələdə və Balakəndə yaradılan qış turizm kompleksləri sovet dönəmində dünyanın brend qış istirahət mərkəzləri hesab edilən Norveç, İsveç, Danimarka, İtaliya kimi ölkələrə nümunədir. Dünyanın elə ölkələri var ki, oralarda qış fəsli, ümumiyyətlə, olmur. Adamlar illərlə qara həsrət qalırlar. Lakin Azərbaycanda qış turizmi üçün lazımi şərait var. Bunu Qusardakı, Qəbələdəki infrastruktur sübut edir. Mən həmin ərazilərdə olmuşam və görmüşəm ki, hər şey yüksək səviyyədədir. İnanın, bunlar məni bir azərbaycanlı kimi çox sevindirir...

Müsahibimin dediyi kimi, qışda ölkəmizdə səfalı təbiəti, eləcə də tarixi memarlıq və təbiət abidələri ilə turistləri cəlb edən məkanlardan biri də Qusarın qonşuluğundakı Qubadır. Qış turizmi dağ-xizək xidmətlərinə tələbatın artması, eləcə də təmiz havası və Bakıya yaxınlığı ilə seçilən Qubanı əsas istirahət zonalarından birinə çevirib. Son illər bu rayonda hotellərin də sayı artmışdır. "Guba Olympic Complex", "Shane Hotel Quba", "Shahdag Hotel Guba", "Cənnət Bağı Hotel", "Qala Qonaq Evi", "Xınalıq Qonaq Evi", "Retro Hotel Quba", "Terrace Hotel Guba"da, "Quba Rixos Hotel" kimi istirahət mərkəzləri nəinki respublikamızın ayrı-ayrı bölgələrindən, eləcə də xarici ölkələrdən buraya qış istirahətinə gələnlərin məmnunluqla üz tutduqları məkanlardır. Qubada olarkən yalnız turizm obyektlərində deyil, yerli sakinlərə məxsus evlərdə də istirahət etməyə gələnlərin çoxluğunun şahidi olduq.

Şimal bölgəsinin qış turizm obyektlərindən söhbət düşəndə ölkəmizin şimal-şərqində əsrarəngiz təbiətə, böyük qış turizm resurslarına malik Balakən rayonunun da adını çəkmək yerinə düşər. Rayon Katexçay şəlaləsi, İmambulaq, Arılıq, Qaraçay-Razvedka, Mazımqara, Mirovoya voda, Şərif kəndində Bağman bulağı və s. kimi gəzməli, görməli yerlərlə zəngindir. Balakənin meşə örtüyü ölkənin meşə ehtiyatlarının 5 faizini təşkil edir. Qış aylarında qarla örtülü bu meşə zolaqları əsrarəngiz gözəlliyi ilə göz oxşayır. Maraqlısı odur ki, dünyada Şuşadan başqa heç yerdə bitməyən Xarı bülbül adlı məşhur gül Balakən rayonunda bitir. Rayonun zəngin faunası qış aylarında ov ovlamaq üçün çox əlverişlidir. Rayonun dağ və düzənlik meşələrində qonur ayı, dağ keçisi, canavar, çaqqal, tülkü, qaban, dovşan, cüyür və s. heyvanlar yaşayır. Balakən üçün əsasən rütubətli subtropik və dağ-tundra iqlimi səciyyəvidir. Yanvar ayında orta temperatur - 1,5-7,8 dərəcə təşkil edir. İllik yağıntının miqdarı 600 mm-dən 1400 mm-ə qədər olur. Balakənin Katex şəlaləsi, Qubek-Su dönən, "Mirovoya voda", Arılıq, Qaraçay, Siltik, Geoloji kəşfiyyat, Mazımçay, Darvazbinə, Göyəmtala, Qanıx, Qabaqçöl, Bağman bulaq, Kubçar bulaq, Aviasiya mərkəzi, İmam bulağı, İtitala, Gərəkli - Zepel bulaq - Pəri qalası, Cicixana və s. Qış turizmi marşrutları hər zaman turistləri özünə cəlb edir.

Qış turizminin qızğın dövrü dekabr-yanvar-fevral ayları hesab olunur. Dövlət Sərhəd Xidmətindən aldığımız məlumata görə, 2019-cu ilin yanvar-fevral aylarında Azərbaycana dünyanın 152 ölkəsindən 364,2 min və ya 2018-ci ilin yanvar-fevral ayları ilə müqayisədə 3,3 faiz çox əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlib.

***Rəhman SALMANLI, "Azərbaycan"***

● Müasir infrastruktur

# Turistlərin sayı ildən-ilə artır

**Son illərdə ölkəmizdə turizmin inkişafı istiqamətində böyük layihələr icra olunub, müasir infrastruktur yaradılıb. Turizm sənayesinin sürətli inkişafını təmin etmək məqsədilə fərman və sərəncamlar imzalanıb, dövlət proqramları qəbul olunub, mühüm layihələr həyata keçirilib. Bu sahə ilə bağlı Azərbaycanın inkişaf strategiyası ümumilikdə iqtisadiyyatın gücləndirilməsində böyük əhəmiyyət kəsb edir.**

Turistlərin Azərbaycanda daha yaxşı vaxt keçirmələri, problemlərlə qarşılaşmamaları üçün mühüm işlər görülür. Son illər turizm sahəsində, ilbəil ölkəyə gələn turistlərin sayı artmaqda davam edir. 2019-cu ilin yanvar-sentyabr aylarında Azərbaycana dünyanın 191 ölkəsindən 2,4 milyon xarici qonaq gəlib ki, bu da keçən ilin eyni dövrü ilə müqayisədə 9,6 faiz çoxdur. Bu göstəricilər turizm sahəsində dinamik inkişafın olduğunu söyləməyə əsas verir.

"Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi"ndə qeyd edildiyi kimi, mövcud imkan və potensialdan səmərəli istifadə etməklə Azərbaycanın 2025-ci ilədək həm regionda, həm də digər dünya ölkələri arasında cəlbedici turizm məkanlarından birinə çevrilməsi başlıca hədəflərdən biridir. 2025-ci ildən sonrakı dövr üzrə perspektiv isə Azərbaycanı dünyada turistlərin ən çox üstünlük verdikləri turizm məkanından birinə çevirmək, mövcud turizm ehtiyatlarından səmərəli istifadə göstəricilərinin maksimuma çatdırılmasını təmin etməkdir.

Qeyd etdiyimiz kimi, bu gün turizm sənayesi dünyanın ən dinamik və populyar hesab olunan sahələrindəndir. Ümumdünya Turizm Təşkilatının proqnozlarına əsasən, beynəlxalq turizm sənayesinin davamlı inkişafı nəticəsində xarici turistlərin sayı ildə orta hesabla 43 milyon nəfər artmaqla, 2030-cu ilədək 1,8 milyard nəfərə çatacaq. Yeni yaranmış turizm mərkəzlərində xarici turistlərin sayı ənənəvi turizm mərkəzləri ilə müqayisədə 2 dəfə çox olacaq.

Azərbaycanda da bu sahə üzrə müsbət dinamika güclənməkdədir. Ölkəmiz 2023-cü ilə qədər 4 milyona yaxın turist qəbuluna hazırlaşır. Bu məqsədlə ildə turist axınını 10 faiz artırmaq niyyətindədir.

Bu ilin sentyabrında Azərbaycana səfər edən avstraliyalı jurnalist və bloger Kassandra Çarlikin Avstraliyanın populyar "www.theurbanlist.com" saytında yer verilmiş maraqlı bir məqaləsi bu baxımdan diqqəti cəlb edir.





Müəllif respublikamızın paytaxtı Bakının görməli yerlərindən bəhs edir, İçəri şəhər, Qız Qalası, Şirvanşahlar Sarayı, Heydər Əliyev Mərkəzi, Alov Qüllələri, Azərbaycan Milli Xalça Muzeyi kimi tarixi və müasir memarlıq abidələri, həmçinin öz görkəmi ilə Parisi xatırladan binalar və tarixi küçələr haqqında ətraflı məlumat verir. Məqalədə, həmçinin UNESKO-nun Mədəni İrs siyahısına daxil edilmiş Qobustan Milli Parkı və palçıq vulkanlarından bəhs olunur.

Kassandra Çarlik Atəşgah məbədinin və Yanar Dağın da turistlər üçün ən maraqlı, görməli yerlər sırasında olduğunu diqqətə çatdırır. Müəllif Azərbaycanın möhtəşəm beynəlxalq tədbirlərin, "Eurovision" musiqi müsabiqəsinin və "Formula-1" idman yarışının təşkil edildiyi mərkəzə çevrildiyini xüsusi qeyd edir. Məqalədə ölkəmizin qədim və zəngin mətbəxini qeyd edən müəllif milli kulinariyamızın ləziz nümunələrindən olan dolma, qutab, kabab, plov, müxtəlif şirniyyat növləri barədə ətraflı məlumat verir, ölkəmizdə çay süfrəsinin özünəməxsusluğu ilə diqqəti cəlb etdiyini vurğulayır.

Məqaləyə Bakının görməli yerləri, Azərbaycanın milli mətbəx nümunələri və şirniyyatlarının çoxsaylı fotoları da əlavə olunub.

Avstraliyalı jurnalist Kassandra Çarlik öz yurddaşlarına məsləhət görür ki, Odlar yurdu Azərbaycanı ziyarət etsinlər. Məqalədən bir daha bəlli olur ki, xalqımızın tarixən qonaqpərvər xüsusiyyəti ilə seçilməsi, son illər ərzində turizm sahəsində uğurla həyata keçirilən dövlət siyasəti, reallaşdırılan müvafiq layihələr bu müstəvidə Azərbaycana marağın daha da yüksəlməsinə gətirib çıxarıb. Ölkəmizə səfər edənlər buradan heyranlıqla ayrılırlar. Azərbaycan bu gün dünyanın diqqətini həm də böyük turizm potensialına malik bir ölkə kimi cəlb edir.

***Zöhrə FƏRƏCOVA, "Azərbaycan"***

● Xəbər

# Xəzərdə dəniz turlarının təşkili gözlənilir

**Azərbaycanda gəmi turizminin inkişafı ilə əlaqədar iki il bundan öncə, 2017-ci il dekabrın 27-də "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC ilə "Moskva Çay Gəmiçiliyi" ASC arasında Xəzər dənizində xüsusi sərnişin gəmisi vasitəsilə birgə dəniz turlarının təşkil edilməsi haqqında memorandum imzalanıb.**

Dövlət Turizm Agentliyinin Mətbuat xidmətinin rəhbəri Kənan Quluzadənin mətbuata açıqlamasında bildirilir ki, bu memoranduma əsasən, Qara dəniz limanlarından başlayaraq Rusiyanın daxili sularından keçməklə Həştərxan limanına, o cümlədən Bakıya kruiz səfərlərin təşkil edilməsi nəzərdə tutulub. Azərbaycanla yanaşı, digər Xəzəryanı dövlətlər də bu layihəyə dəstək olurlar. Layihəyə əsasən, 2020-ci ildən Rusiyanın "Pyotr Velikiy" gəmisinin Xəzər dənizində xidmət göstərməyə başlaması gözlənilir. Gəmi Rusiyanın Həştərxan vilayətində hazırlanıb və artıq sudadır.

K.Quluzadənin sözlərinə görə, "Pyotr Velikiy" gəmisinin təxminən 95 kayutası var və 300-dən çox sərnişin qəbul etmək imkanına malikdir.

***"Azərbaycan"***

● Tarixi məkan

# Qobustan qoruğu beynəlxalq əlaqələrini genişləndirir



**Turistlərin böyük maraq göstərdikləri Qobustan Milli Tarix-Bədii Qoruğunun əməkdaşlarından ibarət nümayəndə heyəti İspaniyada səfərdə olmuşdur.**

Nümayəndə heyəti UNESKO-nun Ümumdünya İrs siyahısına daxil edilmiş Levant qayaüstü incəsənət ənənəsinin xarakterik abidələrinin təmsil olunduğu La Valltorta Muzeyi və Al Barrakin Rio Martin Milli Parkında işgüzar görüşlər keçirib. Görüşlər zamanı qayaüstü incəsənətin öyrənilməsi, qorunması və təbliği sahələrində əməkdaşlıq məsələləri müzakirə edilib.

La Valltorta Muzeyinin direktoru Pilar Vidal Monferrerlə açıq havada qayaüstü incəsənət abidələrinin qorunması, konservasiya və restavrasiyası, həmçinin qoruqların idarə olunması və inzibati məsələlər barədə müzakirələr aparılıb.

Səfər çərçivəsində ölkəmizi təmsil edən nümayəndə heyəti ilə PRAT-CARP Avropa Qayaüstü İncəsənət Təşkilatı, habelə İspaniyanın müvafiq qoruq və muzeyləri arasında təcrübə mübadiləsi və qarşılıqlı turizm əlaqələrinin genişləndirməsinə dair müqavilələr imzalanıb.

● Beynəlxalq əlaqələr

# Sürətli inkişaf, real iş

## Turistlərin rahatlığı üçün geniş imkanlar yaradılır

**Azərbaycanda və xarici ölkələrdə keçirilən beynəlxalq tədbirlərdə ildən-ilə inkişaf edən turizm də yer alıb. Ölkəmizdə həyata keçirilən iqtisadi islahatlar, dövlət proqramları çərçivəsində regionların davamlı inkişafı, infrastruktur yenilikləri, quruculuq və abadlıq işləri bu qədim diyarın gəzməli, görməli, istirahət etməli, müalicə almalı ünvanlarının sayını daha da artırıb.**

Bakının Xəzərətrafı ərazilərində, ölkəmizin cənub bölgəsi Lənkəranda, qədim Naxçıvanda, Quba-Qusar, Qax-Balakən, Şamaxı-Şəki-Qəbələ, Gəncə-Gədəbəy və digər yerlərdə onlarla dünya standartlarına uyğun turizm mərkəzləri, mehmanxana və mehmanxana tipli obyektlər yerli və xarici turistlərin xidmətindədir. Bütün bunlar əcnəbi turizm həvəskarlarının ölkəmizə səfər etmək marağını daha da artırıb. Təsadüfi deyil ki, cari ilin yanvar-noyabr aylarında Azərbaycanı dünyanın 192 ölkəsindən 2923,8 mindən çox turist ziyarət edib. Bir sıra xarici ölkələrdə Azərbaycan diasporunun və respublika Turizm Agentlikləri Assosiasiyasının təşkilatçılığı ilə tədbirlər keçirilir, sərgilər düzənlənir, turizm büroları və turizm həvəskarları arasında qarşılıqlı əlaqələr qurulur, bu sahədə diqqətçəkən, maraq doğuran məqamlar gündəmə gətirilir. Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində turizmin Azərbaycan iqtisadiyyatının aparıcı sahələrindən birinə çevrildiyi, respublikamızda hökm sürən sabitlik, təhlükəsizlik, tolerantlıq ənənələri, multikulturalizm dəyərləri, qədim və zəngin mədəniyyəti, tarixi abidələri, ləzzətli mətbəxi diqqətə çatdırılır. Turizm potensialı gündən-günə genişlənən Azərbaycan 2023-cü ilə qədər 4 milyona yaxın turist qəbul etməyi proqnazlaşdırır. Bu məqsədlə ölkəmizə ildə 10 faiz turist gəlişini artırmaq üçün yaxın və uzaq xarici ölkələrdə təbliğat-təşviqat işlərinin coğrafiyası genişləndirilir. Xüsusilə Avropa ölkələri və şimal qonşumuz olan Rusiya Federasiyası arasında yeni turizm əlaqələri yaradılır. Xatırladaq ki, bu günlərdə Rusiyanın Moskva şəhərində keçirilən X Rusiya-Azərbaycan regionlararası forumunda Azərbaycan Turizm Agentlikləri Assosiasiyası da təmsil olunmuşdur. Forum çərçivəsində Azərbaycan Turizm Agentlikləri Assosiasiyası Rusiya Federasiyasının Sverdlovsk vilayətinin Turizmin İnkişafı Mərkəzi dövlət qurumu ilə iki ölkə arasında turizm sahəsində əməkdaşlığın genişləndirilməsini və inkişaf etdirilməsini nəzərdə tutan saziş imzalanmışdır. Tədbir zamanı assosiasiya ilə Rusiyanın Beynəlxalq Fəaliyyət Komitəsinin "İşgüzar Rusiya" (Деловая Россия) təşkilatının Başqırdıstan regional şöbəsi arasında da əməkdaşlığa dair sənəd imzalanıb. Bundan əlavə, Azərbaycan və Rusiya arasında turizm sahəsinin inkişaf etdirilməsi, partnyorluq əlaqələrinin qurulması, uzunmüddətli, effektiv və qarşılıqlı əlaqələrin genişləndirilməsi məqsədilə Rusiyanın Turizm Komitəsinin "İşgüzar Rusiya" (Деловая Россия) Ümumrusiya İctimai Təşkilatı ilə əməkdaşlığa dair saziş rəsmiləşdirilib. Belə sazişlərin və turizm əlaqələrinin sayı artmaqdadır.



Ölkəmizə gələn turistlərin rahatlığı üçün geniş imkanlar yaradılır. Salınan müasir avtomobil və dəmir yolları daxili turizmin, habelə beynəlxalq turizmin inkişafına öz töhfəsini verir. Prezident İlham Əliyev "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədrini qəbul edərkən demişdir: "Bizim turizm mərkəzlərindən biri olan Qəbələ şəhərinə dəmir yolunun çəkilişi layihəsi davam etdirilir. Sovet vaxtında Qəbələyə dəmir yolu çəkilməmişdi, buna ehtiyac da yox idi, ancaq hazırda buna böyük ehtiyac var. Mən bu təşəbbüsü irəli sürəndə bəziləri fikirləşirdilər ki, buna ehtiyac yoxdur. Halbuki bu yaxınlarda Qəbələdə olarkən, mənə məlumat verildi ki, bu ilin 9 ayında Qəbələyə 150 min turist gəlmişdir. Ancaq söhbət hotellərdə yerləşən turistlərdən gedir. Əgər fərdi qaydada evlərdə qalan turistləri nəzərə alsaq, bu, əlavə 150 min olacaq. Yəni 9 ayda Qəbələyə 300 min turist gəlib".

Bugünkü magistral yollar və dəmir yolları Azərbaycanın turizm simasını başdan-başa yeniləmişdir. Ölkəmizin bütün bölgələri, turizm istiqamətləri, o cümlədən Qəbələ turizmi sürətlə inkişaf edir. Qəbələnin sosial-iqtisadi inkişafı və zəngin turizm potensialı yaxın illərdə onun dünyanın məşhur turizm mərkəzlərindən birinə çevriləcəyinə zəmin yaradır. Görünən odur ki, Azərbaycan turizmi özünün yeni inkişaf mərhələsinə qədəm qoyur. Odur ki, respublikamızda turizmin inkişafına xüsusi diqqət və qayğı göstərən Azərbaycan Prezidenti İlham Əliyev ölkəmizin bütün bölgələrində turizm mərkəzlərinin, dünya standartlarına cavab verən yeni beşulduzlu hotel və istirahət guşələrinin açılışında iştirak edir, turizmin daha da inkişafı üçün dəyərli təklif və tövsiyələrini verir.

Xarici ölkə mətbuatında yazılanlardan, sayt və internet səhifələrində formalaşan ictimai rəydən məlum olur ki, Azərbaycan artıq dünyada turizm ölkəsi kimi tanınır. Müasir şose və dəmir yolları ölkəmizin iqtisadiyyatının şaxələnməsinə, regionların sürətli iqtisadi tərəqqisi turizmin daha uğurlu mərhələyə qədəm qoymasına münbit şərait yaradır. Ölkədə qış turizminə start verilməsi fonunda Azərbaycana gələn turistlərin sayının 3 milyonu keçəcəyi gözlənilir ki, bu da turizm tarixində növbəti rekord sayılır.

Turizmdə nəqliyyat xidmətinin rahat və əlverişli qiymətə olması vacib amillərdəndir. Turizm bölgələrinə yeni dəmir yollarının çəkilməsi yalnız yerli turistlər üçün deyil, əcnəbi turistlər üçün də önəmlidir. Müsbət dəyişiklik həm də nəqliyyat turizminin inkişafı deməkdir. Bu inkişafın tərkib hissəsi kimi müasir turist-sərnişin qatarlarının sayını artırmaqla yerli və əcnəbi turistlərin respublikamızın bölgələrinə marağını yüksəltmək olar.

Göz oxşayan rahat və müasir yollar əcnəbi turistləri daha çox məmnun edir. Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvanda, cənub bölgəsi Lənkəranda, Talış dağlarının ətəklərində, şimalda Sumqayıtdan tutmuş Quba-Qusaradək, eləcə də qərb bölgəsində Naftalanda, Gəncədə, Göygöldə, Gədəbəydə və digər yerlərdə hansı bir məkana yolumuz düşsə, Qəbələdə olduğu kimi, burada da turizmin üstünlüklərinin şahidi olarıq.

***R.SALMANLI, "Azərbaycan"***

# Corat məktəbinin 120 illik yubileyi qeyd olunub





Sumqayıt şəhəri Corat qəsəbəsində yerləşən 7 nömrəli tam orta məktəbin 120 illik yubileyinə həsr olunmuş tədbir keçirilib.



Tədbirdə Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov, Təhsil Nazirliyinin ümumi təhsil sektorunun müdiri Firidun Həmzəyev, ictimaiyyət nümayəndələri, məktəbin məzunları və qəsəbə sakinləri iştirak ediblər.

Dövlət himninin səsləndirilməsindən sonra məktəbin tarixindən bəhs edən videorolik nümayiş olunub.

Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov əlamətdar gün münasibətilə məktəbin müəllim və şagird kollektivini təbrik edib, onlara bundan sonrakı fəaliyyətlərində böyük müvəffəqiyyətlər arzulayıb. Z.Fərəcov Prezident İlham Əliyevin təhsilə, təhsil işçilərinə göstərdiyi diqqət və qayğının nəticə etibarilə bu sahənin sürətli inkişafı, maddi-texniki bazasının daha da möhkəmlənməsinə töhfə verdiyini diqqətə çəkib.

Qeyd olunub ki, hazırda Prezident İlham Əliyevin imzaladığı sərəncama əsasən, Sumqayıtda 9 nömrəli tam orta məktəbin 1176 şagird yerlik yeni binası tikilir, 1 nömrəli şəhər tam orta məktəbi üçün 1800 şagird yerlik yeni binanın tikintisi işlərinə isə yaxın zamanlarda başlanılacaq.

Tədbirdə vurğulanıb ki, Corat qəsəbəsində 120 il öncə fəaliyyətə başlayan təhsil müəssisəsi böyük inkişaf yolu keçib, məktəbin tədris nailiyyətləri son illərdə daha da artıb. Corat məktəbinin yetirmələri sırasında adları təhsil, elm və mədəniyyət tarixlərinə həkk olunmuş çoxlu sayda tanınmış ziyalılar var. 7 nömrəli tam orta məktəb Sumqayıtın çoxsaylı təhsil ocaqları arasında ən qədimidir. Məktəbin uğurla fəaliyyət göstərməsindən düz 120 il keçir. Üç əsrin tarixini yaşayan Corat məktəbinin hazırkı binası 1990-cı ildə tikilib. Mindən çox şagirdi olan təhsil ocağında tədris bir növbəlidir, şagirdlərin təlim-tərbiyəsi ilə 90 pedaqoji işçi məşğul olur.

Məktəbdə sinif otaqları, fənn kabinetləri ən müasir tələblər səviyyəsində qurulub. Şagirdlərin nəzəri biliklərini laboratoriyalarda tətbiq etmələri üçün yeni avadanlıqlar quraşdırılıb. Kompüter otaqları, zəngin kitabxana, məktəbin tarixi guşəsi, tarix muzeyi şagirdlərin ixtiyarına verilib.

Yubiley tədbirində şagirdlər vətənpərvərlik, təhsil və məktəb həyatından bəhs edən müxtəlif şeirlər, mahnılar, ədəbi-bədii kompozisiyalar nümayiş etdiriblər.

Yubiley tədbirində incəsənət ustaları konsert proqramı ilə çıxış ediblər.

Sonda məktəbin pedaqoji kollektivinin bir sıra üzvlərinə və Corat qəsəbə sakinlərinə səmərəli fəaliyyətlərinə görə Sumqayıt Şəhər İcra Hakimiyyətinin fəxri fərmanı təqdim olunub.

*Akif ƏLİYEV, "Azərbaycan"*

# "Nəsimi irsinin nəşrləri: problemlər və perspektivlər" kitabı nəşr olunub

AMEA Nəsimi adına Dilçilik İnstitutunun direktoru, akademik Möhsün Nağısoylunun "Nəsimi irsinin nəşrləri: problemlər və perspektivlər" adlı kitabı çap olunub.

Kitabın elmi redaktoru akademik Kamal Abdulla, redaktoru Könül Mirzəyevadır.

Kitabda dilçi-mətnşünas Möhsün Nağısoylu Nəsimi irsinin nəşrlərindəki mövcud problemləri araşdırır, onlara müəllif münasibəti bildirir. Müəllif mövzu ilə bağlı fikirlərini əsaslandırmaq üçün bir çox hallarda ilkin qaynaqlara - əlyazma kitablarına üz tutaraq mövcud faktlara söykənir.

Girişdə Prezident İlham Əliyevin böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyinin qeyd edilməsi haqqında sərəncamından bəhs olunur.

Kitab iki fəsildən ibarətdir. Birinci fəsil "Nəsiminin Azərbaycan klassik poeziyasında və ədəbi dil tarixində yeri" adlanır. Akademik qeyd edir ki, Azərbaycan ədəbiyyatında Seyid İmadəddin Nəsiminin özəl yeri və məqamı, xüsusi çəkisi və sanbalı vardır.

"Nəsimi irsinin nəşrləri: problemlər və perspektivlər" adlı ikinci fəsildə Nəsimi irsinin Azərbaycanda nəşrləri, şairin qəzəllərinin çoxvariantlılıq və səbəbləri kimi məsələlər öz əksini tapıb.

*X.MURADLI, "Azərbaycan"*




**Azercell abunəçilərinin nəzərinə**

Mövcud xidmətdə yeni brend siyasətinə uyğun olaraq daha rəqəmsal yanaşma və dəyişikliklərin tətbiq olunması ilə əlaqədar olaraq 26.01.2020-ci il tarixdən etibarən "Azercell Telekom" MMC-nin GəncOL tarifi daxilində təqdim olunan təklif və güzəştlərin istifadəsi dayandırılacaq.

# "Azercell" yenidən jurnalistlər üçün ingilis dili kursları elan edir

Fəaliyyət illəri ərzində KİV nümayəndələrinin inkişafına, onların peşəkar bacarıqlarının artırılmasına və beynəlxalq əlaqələrinin qurulmasına, həmçinin rəqəmsal ingilis dilli mənbələrdən sərbəst istifadəsinə yardımçı olmaq məqsədilə çoxsaylı layihələr həyata keçirən ölkənin lider mobil operatoru "Azercell Telekom" jurnalistlər üçün növbəti ingilis dili kurslarını təşkil edir.

2020-ci ilin əvvəlində start veriləcək kurslar çap, elektron və teleradio kütləvi informasiya vasitələrində çalışan aktiv peşəkarlar üçün açıqdır. Kurslarda iştirak etmək üçün jurnalistikada ən azı bir il iş təcrübəsinə malik olan şəxslər KİV-də dərc olunan 3 məqaləsini və jurnalist vəsiqəsinin surətini 15 yanvar 2020-ci il tarixinə qədər azercell.press@azmemo.info elektron ünvanı vasitəsilə şirkətə təqdim etməlidirlər. Dərslər ixtisaslaşmış ingilis dili müəllimləri tərəfindən əyani şəkildə həftədə 2 dəfə keçiriləcək. 6 ay davam edəcək dərslərdə media nümayəndələrinə qrammatika, danışıq, dinləmə, yazı qabiliyyəti üzrə ingilis dili biliklərini gücləndirmək imkanı yaradılacaq.

Qeyd edək ki, "Azercell" 10 ildən artıq bir müddət ərzində jurnalistlər üçün dil kursları təşkil edir. İndiyədək yüzlərlə KİV nümayəndəsi ingilis dili üzrə ixtisaslaşmış kurslarda iştirak edib. Bundan əlavə, media sahəsində baş verən yenilik və trendlərlə yerli jurnlaistləri tanış etmək, fərqli təcrübələrlə bölüşmək, beynəlxalq jurnalistika məktəbi ilə tanışlıq və təcrübə mübadiləsi məqsədilə şirkət tərəfindən mütəmadi olaraq xaricdən dəvət olunmuş tanınmış təlimçilərin maraqlı mövzularda seminar və təlimləri təşkil olunur.

*"Azərbaycan"*

# Beynəlxalq aləm

## Aİ ölkələrinə qaçqın və qeyri-leqal miqrant axını azalır



Avropa İttifaqı (Aİ) ölkələrinə üz tutan qaçqın və qeyri-leqal miqrantların sayı cüzi olsa da, azalır. Bu barədə Beynəlxalq Miqrasiya Təşkilatı məlumat vermişdir. Bu il Aralıq dənizi ilə gəlmiş köçkünlərin ümumi sayı əvvəlki illə müqayisədə təxminən 5 faiz - 107546 nəfərədək azalmışdır.

Miqrantların Aİ ölkələri arasında bölüşdürülməsi də xeyli dəyişmişdir. Məsələn, İtaliya və İspaniya 2018-ci illə müqayisədə iki dəfə az qaçqın qəbul etmişdir. Məcburi immiqrantların sayına görə lider Yunanıstan olmuşdur. Bu ölkədə 60 min nəfərdən çox adam, yəni ötən illə müqayisədə iki dəfə çox miqrant qeydə alınmışdır. Kiprə qaçqın axını təqribən yeddi dəfə artmışdır. Hazırda bu göstərici təxminən 7 min nəfər təşkil edir.

Beynəlxalq Miqrasiya Təşkilatı Aralıq dənizini keçərkən həlak olanların sayının xeyli azalmasına diqqət yetirir. Əgər 2018-ci ildə həmin marşrutda 2200-dən çox ölüm halı qeydə alınmışdırsa, indi 1246 nəfərin həlak olduğu bildirilir. Hüquq müdafiəçilərinin məlumatına görə, 2014-cü ildə Aralıq dənizində monitorinq başladığı vaxtdan bəri 34 min nəfərdən çox adam həlak olmuşdur.

## Əfqanıstanda taliblər 27 nəfəri girov götürdülər



Əfqanıstanın Fərəh əyalətində "Taliban" hərəkatının silahlıları Sülh uğrunda xalq hərəkatının 27 üzvünü oğurlamışdır. Bu barədə əyalətin polis idarəsinin mətbuat katibi Muhibullah Muhib məlumat vermişdir.

Muhib qeyd etmişdir ki, "Sülh uğrunda xalq hərəkatı"nın üzvləri ölkənin müxtəlif regionlarına səfər edərək əhaliyə sülhün bərqərar olmasının vacibliyi barədə danışırdılar.

Polis nümayəndəsinin dediyinə görə, oğurlananların yeri məlum deyil. "Taliban" hərəkatından bu məsələ ilə bağlı heç bir bəyanat daxil olmamışdır.

Girovların azad olunması üçün tədbirlər görülür.

## Qırğızıstan Tacikistana ərazi mübadiləsi təklif edir




Qırğızıstan Prezidenti Sooranbay Jeenbekov bildirmişdir ki, onun ölkəsi sərhədyanı rayonlarda Tacikistanla ərazi mübadiləsinə hazırdır. Bu barədə CA-NEWS agentliyi xəbər verir.

Prezident qeyd etmişdir ki, iki il əvvəl danışıqlar dayandırılmış, indi isə dialoq bərpa olunmuşdur. Bu məsələ ilə əlaqədar Sooranbay Jeenbekovla Tacikistan Prezidenti Emoməli Rəhmon arasında bır neçə görüş baş tutmuşdur.

"Əgər mübadilə lazımdırsa, biz buna da hazırıq. Gəlin bunu əhali ilə müzakirə edək. Düzünü desəm, iş istədiyimiz kimi getmir. Ən yaxşı həll variantı iki ölkənin maraqlarını nəzərə almaqla danışıqlar aparmaqdır. Biz bu istiqamətdə fəaliyyət göstəririk", - deyə Jeenbekov bildirmişdir. Qırğızıstan Prezidenti, həmçinin məlumat vermişdir ki, bu günlərdə Tacikistan nümayəndə heyətinin Bişkekə səfəri gözlənilir.

## Filippində qasırğa 16 nəfərin həyatına son qoydu



Filippin adalarını vurmuş "Fanfon" ("Ursula") qasırğasının zərbəsi üzündən ölkədə azı 16 nəfər həlak olmuşdur. Bu barədə "Frans Press"agentliyi xəbər verir.

"Röyter" agentliyinin xəbərinə görə, Şərqi Visayi regionundan 4 min nəfərdən çox adam təxliyə edilmişdir. Qasırğa 100-ə yaxın evi dağıtmışdır. Hakimiyyət orqanları ölənlərin sayının artacağından ehtiyat edir. Məlumata görə, Milad bayramını qeyd etmək üçün evlərinə gedən on minlərlə adam limanlarda qalmışdır. Küləyin sürəti saatda 190 kilometrə catmışdır.

"Fanfon" 2013-cü ildə "Xayyan" superqasırğasının tüğyan etdiyi əraziləri vurmuşdur. O vaxt 6 min nəfərdən çox adam anomal hava şəraitinin qurbanı olmuşdur.

## Benin sahillərinin yaxınlığında 100 nəfər suda batdı



Nigeriyanın Laqos şəhərindən Benindəki "Xeruvim və Serafim" kilsəsini ziyarət etmək üçün yola çıxmış zəvvar xristianları daşıyan gəminin batması nəticəsində azı 100 nəfər həlak olmuşdur. Bu barədə "Anadolu" agentliyi xəbər verir.

Məlumata görə, gəmi Benin sahillərinin yaxınlığında qəzaya uğramışdır.

Gəmidəki zəvvarların dəqiq sayı məlum deyil. Hazırda 100 nəfərin cəsədi aşkar edilmişdir. Güman olunur ki, gəmi həddən artıq yükləndiyinə görə batmışdır.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az

## BİLDİRİŞ

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti tərəfindən " Azərbaycan" qəzetinin 04 dekabr 2019-cu il tarixdə dərc edilmiş elan ilə əlaqədar bildiririk ki, 10 dekabr 2019-cu il tarixdə keçirilmiş təkliflər sorğusu metodu ilə Qax rayon Məşğulluq Mərkəzlərinin inzibati binasının cari təmir işlərinin satın alınmasına dair Tender komissiyasının qərarı ilə müsabiqənin qalibi "Az AVS" MMC elan olunmuş və 19 dekabr 2019-cu il tarixdə satınalma müqaviləsi imzalanmışdır.

*Tender komissiyası*

## BİLDİRİŞ

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti tərəfindən "Azərbaycan" qəzetinin 04 dekabr 2019-cu il tarixdə dərc edilmiş elan ilə əlaqədar bildiririk ki, 10 dekabr 2019-cu il tarixdə keçirilmiş təkliflər sorğusu metodu ilə Ucar rayon Məşğulluq Mərkəzlərinin inzibati binasının cari təmir işlərinin satın alınmasına dair Tender komissiyasının qərarı ilə müsabiqənin qalibi "Az AVS" MMC elan olunmuş və 19 dekabr 2019-cu il tarixdə satınalma müqaviləsi imzalanmışdır.

*Tender komissiyası*

## Ermənistan silahlı qüvvələrinin bölmələri atəşkəs rejimini 20 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 20 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan Respublikasının Noyemberyan rayonunun Şavarşavan kəndində və adsız yüksəkliklərdə, İcevan rayonunun Berkaber kəndində yerləşən mövqelərdən Qazax rayonunun Qızılhacılı kəndində və adsız yüksəkliklərdə, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Göyəli kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qaraxanbəyli, Aşağı Seyidəhmədli, Qorqan, Kürdlər, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Tərtər və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə məruz qalıb.

## "Uşaqlar üçün ekoloji laboratoriya" layihəsi çərçivəsində növbəti təlim keçirilib

IDEA İctimai Birliyi və "Sevimli bala" təşkilatının birgə həyata keçirdiyi "Uşaqlar üçün ekoloji laboratoriya" layihəsi çərçivəsində növbəti təlim keçirilib.

İctimai birlikdən AZƏRTAC-a verilən məlumata görə, uşaqların ətraf mühit barədə biliklərinin artırılması məqsədini daşıyan laboratoriyanın dekabr təlimi tullantıların azaldılması, təkrar emalı və təkrar istifadəsi mövzusuna həsr olunub.

Yeni il ərəfəsində baş tutan təlim zamanı uşaqlara təbiətə zərər vermədən Yeni il küknarının hazırlanması və bəzədilməsi yolları nümayiş edilib, tullantılar və onların təkrar emalı prosesi, bu prosesin planetimiz, xüsusilə də canlı aləm üçün əhəmiyyəti izah edilib. Təlim müddətində gənc təbiətsevərlər əyləncəli oyun və bilik yarışmalarında, bir sıra sınaqların keçirilməsində iştirak ediblər.

Təlimin sonunda IDEA İctimai Birliyi tərəfindən kiçik ekoloqlara Yeni il hədiyyələri təqdim edilib.

Qeyd edək ki, 2015-ci ilin yanvar ayından həyata keçirilən "Uşaqlar üçün ekoloji laboratoriya" təlimi uşaqlara maraqlı və əyləncəli gün bəxş etməklə yanaşı, həm də onların kiçik yaşlarından ekoloji biliklərə sahib olmaları baxımından da əhəmiyyətlidir. Layihə çərçivəsində hər ay mütəmadi olaraq iqlim dəyişmələri və qlobal istiləşmə, "yaşıl şəhər", tullantılar və onların təkrar emalı, ilin fəsilləri və ağaclar, atmosfer çirklənməsi, ekoloji təmiz və sağlam qida, suyun xüsusiyyətləri və onun qorunması, enerji və ona qənaət, heyvanlar və onlara qayğı kimi müxtəlif ekoloji mövzuları əhatə edən təlimlər keçirilib. Ümumilikdə 2000-ə yaxın uşaq ekoloji laboratoriyanın qonağı olub.

IDEA İctimai Birliyinin Resurs Mərkəzlərində təşkil olunacaq "Uşaqlar üçün ekoloji laboratoriya"da növbəti ildən iştirakla bağlı IDEA İctimai Birliyi ilə (497-63-16) əlaqə saxlamaq xahiş olunur.

## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin deputatı, Aqrar siyasət komitəsinin sədri Eldar İbrahimov Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyevə əzizi

**QƏNBƏR TAĞIYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Milli Məclisin deputatı, Aqrar siyasət komitəsinin sədri Eldar İbrahimov Bakı şəhər Baş Polis İdarəsinin rəisi Mirqafar Seyidova əzizi

**NEMƏT SEYİDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

"Aqrarkredit" Qapalı Səhmdar Cəmiyyəti Bank olmayan Kredit Təşkilatının İdarə Heyəti və kollektivi Bakı şəhər Baş Polis İdarəsinin rəisi Mirqafar Seyidova əzizi

**NEMƏT SEYİDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Vəkillər Kollegiyası Bakı şəhəri 3 saylı Vəkil Bürosunun müdiri Sahib Cəlilli və büronun kollektivi vəkil

**SABİR VAQİF OĞLU QƏDİROVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Professor Qəzənfər Paşayev Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti Rövnəq Abdullayevə əzizi

**QƏNİRƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Professor Qəzənfər Paşayev akademik Rafael Hüseynova qardaşı

**RÖVŞƏN MÜƏLLİMİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 432-37-68, |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 538-97-96, | Humanitar siyasət şöbəsi | - 538-56-60, 539-63-82 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-72-39, 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*

Tiraj 8895
Sifariş 4337
Qiyməti 40 qəpik